RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 132 (10152) 28 iyul 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın uğurlu diplomatiya modeli



### Çoxvektorlu, müstəqil və prinsipial xarici siyasət kursu ölkəmizi regional və qlobal nizamın əsas aktorlarından birinə çevirib

Azərbaycan dünyanın nəhəng iqtisadi güclərindən biri olan Çin Xalq Respublikası ilə də əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə ilk dəstək verməklə, özünün modern logistik infrastrukturu ilə Çin və Avropa arasında yüklərin daşınmasında təhlükəsiz, etibarlı və qısa marşrutu təmin edir.

Şərq-Qərb balansını tamamlayan mühüm geostrateji istiqamətlərdən biri də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində dərinləşən inteqrasiya və Mərkəzi Asiya regionu ilə qurulan yüksək münasibətlərdir. Mərkəzi Asiyanın zəngin resurslarının Azərbaycan üzərindən Avropaya daşınmasını nəzərdə tutan Orta dəhliz iki regionu vahid iqtisadi-logistik məkan kimi birləşdirir.

Azərbaycan xarici diplomatiyasını yalnız ənənəvi güc mərkəzləri ilə məhdudlaşdırmayıb, həm də Yaxın Şərq, Afrika və Latın Amerikası regionları ilə çoxtərəfli münasibətlərini genişləndirib. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvü kimi ərəb-islam dünyası ilə həmrəylik nümayiş etdirən Bakı eyni zamanda Qoşulmama Hərəkatına uğurlu sədrlik dövründə Afrika və Latın Amerikası dövlətləri ilə dərin diplomatik körpülər salıb, onların problemlərinin həllinə fəal dəstək verib.

Azərbaycanın milli maraqlara söykənən prinsipial diplomatik xətti xüsusilə Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə özünün ən yüksək zirvəsinə çatıb. Azərbaycanın hərbi sahədə qazandığı tarixi Zəfər paralel olaraq diplomatik müstəvidə də davam etdirilib. Postmünaqişə dövründə yaranmış yeni geosiyasi reallıqların beynəlxalq ictimaiyyətə çatdırılması diplomatiyamızın ən böyük uğuru olub.

Bununla bərabər, Azərbaycan postmünaqişə dövründə bəzi Qərb dövlətlərinin və beynəlxalq təşkilatların qərəzli, ikili standartlara söykənən təzyiqləri ilə üzləşib. Lakin dövlətimizin nümayiş etdirdiyi cəsarətli diplomatik müqavimət ölkəmizin suverenliyinə müdaxilə cəhdlərinin qarşısını qətiyyətlə alıb. Məhz bu prinsipial mövqe Azərbaycanı qlobal miqyasda daha böyük təşəbbüslərin müəllifinə çevirib. Qoşulmama Hərəkatına uğurlu sədrlik edən ölkəmiz BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətindən sonra "Qlobal Cənub"un əsas liderlərindən biri olub.

6

## 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının 2026-cı ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurası Bürosunun 2026-cı il 25 iyun tarixli iclasında 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının (FIFA U-15 World Cup and Festival) 2026-cı il oktyabrın 22-31-də Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir.

İdman tarixində ilk dəfə keçiriləcək 15 yaşınadək oğlanlar arasında futbol üzrə dünya çempionatı və festivalına Azərbaycanın evsahibliyi etməsi ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzunun daha da möhkəmlənməsinə, futbolun inkişafına və Azərbaycanın mötəbər yarışların təşkili sahəsində qazandığı təcrübənin zənginləşməsinə xidmət edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının 2026-cı ildə Azərbaycanda layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. 15 yaşınadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının Azərbaycanda keçirilməsi ilə bağlı tədbirlərin əlaqələndirilməsi və zəruri məsələlərin həlli 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 dekabr tarixli 849 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinə həvalə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

## Azərbaycan-Böyük Britaniya əlaqələri dinamik inkişaf edir



Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhemə ünvanladığı təbrik məktubu Azərbaycanın yeni hökumətlə də münasibətlərinin yüksək səviyyədə inkişaf edəcəyini göstərir. Bu əlaqələr həmçinin başqa parametrləri də əhatə edir. Parlamentlərarası dostluq qrupları, işçi qruplar öz fəaliyyətini davam etdirir, qarşılıqlı səfərlər, parlamentarilərin fəaliyyəti intensiv xarakter daşıyır.

9

## Yeni regional geosiyasi reallıqlar və Qərbi Azərbaycan məsələsi



Hazırda regiondakı geosiyasi dinamikanın yeni çalarları onu deməyə əsas verir ki, Qərbi Azərbaycana qayıdış məsələsi daha incə və fəal yanaşma tələb edir. Burada əsas prinsip azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmasının təmin edilməsindən ibarətdir. Bu prinsipdən vaz keçmək və ya onu dəyişmək mümkün deyildir. Deməli, Azərbaycan tərəfi baş verən hər bir ciddi geosiyasi regional dəyişikliyə çevik və yaradıcı yanaşmalıdır.

Qərbi Azərbaycana qayıdış üçün, məsələn, ABŞ-nin sülh yaratmaq xətti yardım edə bilər, lakin Fransa kimi ölkələrin qərəzli fəaliyyəti yeni çətinliklər meydana çıxarar. Bu məsələdə Aİ-nin bir təşkilat olaraq mövqeyi də əhəmiyyətlidir. Ursula fon der Lyayen 2026-cı ilin iyulunda İrəvanda söz vermişdir ki, "Avropa sizə dəstək olacaq". Hansı mənada və hansı istiqamətdə? Bu "dəstək" vədinin arxasında nələr dayanır? Bunlar hələlik aydın deyildir.

Beləliklə, bir tərəfdən, Aİ regionda inteqrasiya, təhlükəsizlik və əməkdaşlıqdan bəhs edir, digər tərəfdən isə, təşkilatın ən güclü üzv dövlətlərindən biri olan Fransa qeyri-müəyyən bəyanatlar verir, qərəzli münasibətini açıq ifadə edir. Bu vəziyyətə həm Vaşinqtonun münasibəti, həm də Brüsselin baxışı çox maraqlıdır.

8

## Regionun geoiqtisadi mənzərəsini dəyişən Azərbaycan-Mərkəzi Asiya formatı



Azərbaycan və Mərkəzi Asiya əməkdaşlığından danışarkən Türk Dövlətləri Təşkilatının (TDT) rolu xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin çıxışlarında da bu təşkilatın region dövlətlərini bir araya gətirən əsas siyasi platformalardan biri olduğu aydın şəkildə hiss olunurdu.

Son illər Türk Dövlətləri Təşkilatı yalnız mədəni-humanitar əməkdaşlıq mexanizmi olmaqdan çıxaraq iqtisadi, nəqliyyat, enerji, rəqəmsal transformasiya, investisiya, müdafiə sənayesi və təhlükəsizlik sahələrində əməkdaşlığı təşviq edən nüfuzlu beynəlxalq quruma çevrilib. Azərbaycan bu təşkilatın inkişafına mühüm töhfə verən aparıcı dövlətlərdəndir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, türk dünyasının həmrəyliyi ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindəndir.

TDT çərçivəsində qəbul olunan qərarlar Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına, gömrük prosedurlarının uyğunlaşdırılmasına, rəqəmsal ticarətin genişləndirilməsinə və investisiya əməkdaşlığının güclənməsinə mühüm təkan verir. Bu baxımdan Azərbaycan-Mərkəzi Asiya formatı TDT-nin praktik fəaliyyətinin ən uğurlu xətlərindən biri kimi qiymətləndirilə bilər.

Prezident İlham Əliyevin Mərkəzi Asiya regionu üzrə həyata keçirdiyi siyasətdə, o cümlədən türk dünyasının birliyinə xidmət edən strateji qərarlarında Azərbaycan-Özbəkistan münasibətləri xüsusi yer tutur. Hər iki ölkə arasında əlaqələr son illər görünməmiş sürətlə inkişaf edərək strateji müttəfiqlik mərhələsinə yüksəlib.

6

# Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7, № 4, maddə 365, № 5 (I kitab), maddələr 488, 489, 503, № 11, maddə 1187, № 12 (II kitab), maddələr 1350, 1351; 2025, № 1, maddələr 2, 15, 16, № 6, maddə 524) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 39-cu maddə üzrə:

1.1.1. 39.4-cü maddədə "təsviri, spesifikasiyası və nümunəsi" sözləri "məzmunu" sözü ilə əvəz edilsin;

1.1.2. 39.5-ci maddənin ikinci cümləsi çıxarılsın;

1.2. 41.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"41.2. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması məsələsi müsbət həll edildikdə bu barədə qərarın verilməsinə görə dövlət rüsumu ödənildikdən sonra həmin qərar müraciət edənin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində yerləşdirilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülür, eləcə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin təqdim etdikləri elektron poçt ünvanına göndərilir.";

1.3. 42-ci maddə üzrə:

1.3.1. 42.6-cı maddədə "edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə" sözləri "edildikdə" sözü ilə, "qərar təqdim edir" sözləri "qərarı "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada tərtib edir, müraciət edənin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində yerləşdirilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə ötürür və onun təqdim etdiyi elektron poçt ünvanına göndərir" sözləri ilə əvəz edilsin;

1.3.2. 42.8-ci maddədə "fərdi olaraq doldurulması, verilməsi" sözləri "elektron qaydada tərtib olunması, müraciət edənin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində yerləşdirilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsi və onun müraciət edənin təqdim etdiyi elektron poçt ünvanına göndərilməsi" sözləri ilə əvəz edilsin;

1.4. 43.1.4-cü maddəyə "olmadıqda" sözündən sonra "və ya bu Məcəllənin 41.1-ci maddəsində nəzərdə tutulan sənədlərdən biri və ya bir neçəsi təqdim edilmədikdə (bu Məcəllənin 41.3-cü və 41.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

**Maddə 2.** "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88 (Cild I); 2025, № 6, maddə 523, № 7, maddə 629; 2026, № 1, maddə 8) 3-cü maddəsinin birinci hissəsinin 4-cü bəndində "nümunəli" sözü "məzmunlu" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 14.9-cu maddəsindən "və müvəqqəti olma müddətinin uzadılması barədə qərarın" sözləri çıxarılsın.

**Maddə 4.** Keçid müddəa

Bu Qanun qüvvəyə mindiyi günədək verilmiş müvəqqəti olma müddətinin uzadılması haqqında qərarlar onlarda göstərilmiş müddət bitənədək öz hüquqi qüvvəsini saxlayır. Bu qərarlar itirildikdə, məhv olduqda, yararsız hala düşdükdə, habelə əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar dəyişdikdə elektron qaydada tərtib olunur, müraciət edənin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində yerləşdirilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülür, eləcə də müraciət edənin elektron poçt ünvanına göndərilir və bu zaman dövlət rüsumunun ödənilməsi tələb olunmur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 465-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 465-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərar"ın məzmunu" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 465-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 239 (Cild I); 2024, № 11, maddə 1200; 2025, № 1, maddə 53) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 9.6-cı bəndindən "həmin şəxslərə" sözləri çıxarılsın və həmin bənddə "verilməsini" sözü "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada tərtib edilməsini, müraciət edənin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində yerləşdirilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsini və müraciət edənin elektron poçt ünvanına göndərilməsini" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsvir, spesifikasiya və nümunələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 8 aprel tarixli 78 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 223 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adından ", habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın" sözləri çıxarılsın;

4.2. 1.3-cü bənd ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 491 (Cild I); 2024, № 11, maddələr 1200, 1203) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 10.4-cü bəndinə "əcnəbilərin" sözündən əvvəl "Sistem vasitəsilə" sözləri əlavə olunsun və həmin bənddə "fərdi olaraq doldurulması, verilməsi və bu barədə məlumatların Sistemə daxil edilməsi" sözləri "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada tərtib edilməsi, müraciət edənin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində yerləşdirilməsi məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsi və müraciət edənin elektron poçt ünvanına göndərilməsi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# N.E.Mustafayevanın Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu, eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nərminə Elsevər qızı Mustafayeva Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu, eyni zamanda Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

# Azərbaycan ilə Maldiv arasında əlaqələrin hazırkı inkişaf dinamikası bizi sevindirir

## Maldiv Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Muizzuya

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Maldiv arasında əlaqələrin hazırkı inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir. İki ölkə arasında birbaşa uçuşların həyata keçirilməsi, habelə bu yaxınlarda ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi insanlararası təmasların, xüsusilə də turizmin inkişafına mühüm təkan vermişdir.

İnanıram ki, bu il diplomatik əlaqələrin qurulmasının 20 illiyini qeyd edən ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığın yeni məzmunla zənginləşməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Maldiv xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2026-cı il*

# M.İ.Yevdayevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Milix İlxananoviç Yevdayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2026-cı il*

# Q.A.Zeynalovun Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qoşqar Aslan oğlu Zeynalov Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

# Z.M.Əliyevin Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zamin Məmməd oğlu Əliyev Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

# Z.M.Əliyevin Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zamin Məmməd oğlu Əliyev Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

# "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 10-cu və 16-cı bəndlərini rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16, № 2, maddə 110, № 3, maddə 209, № 4, maddələr 295, 300; Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD nömrəli, 1 may tarixli 401-VIIQD nömrəli və 5 iyun tarixli 417-VIIQD nömrəli qanunları) 3-cü maddəsinin 3-cü hissəsinə "notarius," sözündən sonra "xüsusi icra məmuru," sözləri əlavə edilsin.

**Maddə 2.** "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2026, № 1, maddə 16) 1-ci maddəsinin ikinci hissəsinin beşinci abzasına "notarius," sözündən sonra "xüsusi icra məmuru," sözləri əlavə edilsin.

**Maddə 3.** "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100, № 4 (I kitab), maddələr 315, 322, № 5, maddə 440, № 6, maddələr 526, 536, № 7, maddələr 610, 617, № 8, maddələr 743, 744; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 389-VIIQD nömrəli və 30 iyun tarixli 429-VIIQD nömrəli qanunları) 81-2.1-ci maddəsində "79-cu" sözləri "79.1-ci maddəsinin birinci cümləsi və 79.2-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab), maddə 502, № 12 (II kitab), maddə 1337; 2025, № 7, maddələr 606, 617, № 8, maddə 743; 2026, № 3, maddə 210) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.8-ci maddəyə birinci halda "və" sözündən sonra "dövlət" sözü əlavə edilsin;

4.2. 25-1-ci maddə üzrə:

4.2.1. 25-1.1.1-ci maddəyə "halda" sözündən sonra "dövlət icra məmurları tərəfindən" sözləri əlavə edilsin;

4.2.2. 25-1.1.2-ci maddədə "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514 (Cild I); 2024, № 8, maddə 934, № 12 (II kitab), maddə 1348; 2026, № 1, maddə 16) 2.0.14-cü maddəsinə "notarius," sözündən sonra "xüsusi icra məmuru," sözləri əlavə edilsin.

**Maddə 6.** "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669 (Cild I); 2024, № 7, maddə 762, № 8, maddə 934; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322; 2026, № 1, maddə 16) 4-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.1.9-cu maddəyə "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin;

6.2. 4.4.2-ci maddəyə ikinci halda "göstərilən" sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 452-VIIQD nömrəli Qanununun tətbiqi və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 353 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 452-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun 9-4.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 9-4.5-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 452-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 353 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 969 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikası Qanununun 9-4.5-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 9-4.5-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.3. həmin Qanunun 48.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

# "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 673 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 468-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 673 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1223 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddələr 632, 648) ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.10-cu bəndinə birinci halda "və" sözündən sonra "dövlət" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2026-cı il*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 12-ci, 13-cü, 15-ci, 16-cı, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16, № 2, maddə 110, № 3, maddə 209, № 4, maddələr 295, 300; Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD, 1 may tarixli 401-VIIQD və 5 iyun tarixli 417-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddəyə aşağıdakı məzmunda 7-1-ci hissə əlavə edilsin:

"7-1. **İşçilərin pay (səhm) iştirakı planı haqqında müqavilə** - kommersiya hüquqi şəxsin təsisçisinin (iştirakçısının) və ya onun verdiyi səlahiyyət əsasında işəgötürənin təşəbbüsü ilə işçiyə güzəştli şərtlərlə və ya ödənişsiz əsasla müəssisənin paylarının (səhmlərinin) verilməsi və ya gələcəkdə onları əldə etmək (almaq) hüququnun tanınması ilə bağlı məsələləri tənzimləyən ayrıca müqavilə.";

1.2. aşağıdakı məzmunda 7-1-ci və 76-1-ci maddələr əlavə edilsin:

**"Maddə 7-1. İşçilərin pay (səhm) iştirakı planı haqqında müqavilənin şərtləri**

7-1.1. Təsisçi və ya işəgötürənlə işçi arasında bağlanan işçilərin pay (səhm) iştirakı planı haqqında müqavilədə payların (səhmlərin) işçinin tam mülkiyyətinə keçməsi üçün aşağıdakı xüsusi şərtlərdən biri müəyyən edilə bilər:

7-1.1.1. zamana əsaslanan şərt: tərəflər arasında müəyyən edilmiş müddət ərzində işçinin işəgötürənlə əmək münasibətlərində olması şərtilə paya (səhmə) olan hüququnun hissə-hissə və ya müddətin sonunda tam qüvvəyə minməsi;

7-1.1.2. hədəfə əsaslanan şərt: işçinin və ya kommersiya hüquqi şəxsin fəaliyyətində müəyyən hədəflərə nail olunması şərtilə paya (səhmə) olan hüququnun qüvvəyə minməsi.

7-1.2. Tərəflər işçilərin pay (səhm) iştirakı planı haqqında müqavilədə bu Məcəllənin 76-1.1-ci maddəsinə uyğun olaraq, əmək münasibətlərinə xitam verilməsi əsaslarından asılı olaraq paya (səhmə) olan hüquqlarının əldə edilib-edilməməsi nəticələrini müəyyən edə bilərlər.";

**"Maddə 76-1. Əmək münasibətlərinə xitam verilməsinin işçilərin pay (səhm) iştirakı planı haqqında müqaviləyə təsiri**

76-1.1. İşçilərin pay (səhm) iştirakı planı haqqında müqavilədə işçi ilə əmək münasibətlərinə xitam verildikdə, həmin xitamın əsaslarından asılı olaraq işçinin paya (səhmə) olan hüquqlarına və ya əldə etdiyi paylara (səhmlərə) fərqli hüquqi nəticələr nəzərdə tutula bilər.

76-1.2. Bu Məcəllənin 69-cu maddəsi, 70-ci maddəsinin "a", "b", "d" və "e" bəndləri, 73-cü maddəsi, 74-cü maddəsinin birinci hissəsinin "a", "b", "c", "d", "e" və "ə" bəndləri ilə əmək müqaviləsinə xitam verilməsi hallarında işçinin əldə edilməmiş paya (səhmə) olan hüquqlarının hamısının və ya bir hissəsinin əldə edilmiş hesab edilməsi və ya əldə edilmiş payların (səhmlərin) ədalətli bazar dəyəri ilə kommersiya hüquqi şəxsə və ya təsisçiyə (iştirakçıya) geri satılması öhdəliyi nəzərdə tutula bilər.

76-1.3. Bu Məcəllənin 70-ci maddəsinin "c" və "ç" bəndləri, 74-cü maddəsinin birinci hissəsinin "ç" və "f" bəndləri ilə əmək müqaviləsinə xitam verilməsi hallarında işçilərin pay (səhm) iştirakı planı haqqında müqavilədə işçinin bütün əldə edilməmiş paya (səhmə) olan hüquqlarını itirməsi və ya əldə etdiyi payları (səhmləri) nominal və ya daha aşağı dəyərlə kommersiya hüquqi şəxsə və ya təsisçiyə (iştirakçıya) geri satılması ilə bağlı hüquqi nəticələr nəzərdə tutula bilər.";

1.3. 154-cü maddəyə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. İşçinin pay (səhm) iştirakı planı haqqında müqavilənin tələblərinə uyğun olaraq əldə edilən pay (səhm) əmək haqqına daxil edilmir və əmək haqqı əvəzi kimi ödənilmir.".

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744, № 11, maddə 1004; 2026, № 1, maddə 2, № 3, maddə 208; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 61.7-1-ci, 64.10-cu, 65-1-ci, 65-2-ci və 88.3-cü maddələr əlavə edilsin:

"61.7-1. Bu Məcəllənin 404-4.3-cü maddəsində nəzərdə tutulan halda gələcək iştirak payı (səhm) haqqında müqavilə üzrə investorun ödəniş tələbləri, hüquqi şəxsin digər təminatsız kreditorlarının tələblərindən sonra, lakin hüquqi şəxsin iştirakçılarına (səhmdarlarına) qalıq əmlakın verilməsindən (bölüşdürülməsindən) əvvəl yerinə yetirilir.";

"64.10. Bu Məcəllənin 90.4-cü və 104.1-ci maddələrinin tələblərindən fərqli olaraq təsərrüfat cəmiyyətinin nizamnaməsi ilə direktorlar şurasına (müşahidə şurasına) təsisçilərin (iştirakçıların) ümumi yığıncağını çağırmadan, nizamnamədə əvvəlcədən yuxarı həddi nəzərdə tutulmuş, lakin şərtləri (hüquqları, imtiyazları və məhdudiyyətləri) hələ müəyyən edilməmiş yeni payların ayrılması və ya səhmlərin buraxılması barədə qərar qəbul etmək səlahiyyəti verilə bilər. Bu payların (səhmlərin) emissiya şərtləri direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə müəyyən edilir və bununla bağlı nizamnaməyə edilən dəyişikliklər qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınır.";

**"Maddə 65-1. Korporativ müqavilə**

65-1.1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları və ya səhmdar cəmiyyətinin səhmdarları, habelə korporativ müqavilədən irəli gələn öhdəliklərin icrasında iştirakı zəruri olduğu hallarda cəmiyyətin özü, öz aralarında və ya cəmiyyətlə öz korporativ hüquqlarının həyata keçirilməsi qaydasını və cəmiyyətin fəaliyyətinin təmin edilməsi və idarə edilməsi ilə bağlı məsələləri müəyyən edən korporativ müqavilə bağlaya bilərlər. Korporativ müqaviləyə əsasən həmin subyektlər öz hüquqlarını bu müqavilə ilə müəyyən edilmiş qaydada həyata keçirməyi və ya onların həyata keçirilməsindən çəkinməyi (imtina etməyi) öhdələrinə götürürlər.

65-1.2. Korporativ müqavilədə təsisçilərin (iştirakçıların) aşağıdakı məsələlərlə bağlı hüquq və vəzifələri bu Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə zidd olmamaq şərtilə tənzimlənə bilər:

65-1.2.1. təsərrüfat cəmiyyətinin təsisçilərinin (iştirakçılarının) ümumi yığıncağında səsvermə qaydaları və şərtləri;

65-1.2.2. təsərrüfat cəmiyyətinin nizamnamə kapitalındakı payların (səhmlərin) özgəninkiləşdirilməsi qaydaları, müəyyən qiymətə və ya müəyyən hallar baş verdikdə həmin payların (səhmlərin) alınması, yaxud da onların əldə edilməsindən və ya özgəninkiləşdirilməsindən imtinanı, o cümlədən payların (səhmlərin) qiymətinin müəyyən edilməsi qaydasını və bu Məcəllənin 93-cü və 101-ci maddələrində nəzərdə tutulan qaydalardan fərqli olaraq bu Məcəllənin 65-2-ci maddəsində nəzərdə tutulan xüsusi hüquqların tətbiqi;

65-1.2.3. təsərrüfat cəmiyyətinin idarə edilməsi üzrə, o cümlədən cəmiyyətin idarəetmə orqanlarının formalaşdırılması və fəaliyyətinin təşkili üzrə şərtlər;

65-1.2.4. korporativ müqavilənin tərəfi olan təsərrüfat cəmiyyətinin təsisçilərinə (iştirakçılarına) məxsus payların (səhmlərin) tam mülkiyyət hüququnun korporativ müqavilədə nəzərdə tutulmuş hədəflərə çatmaqdan asılı olaraq tədricən yaranması qaydaları və şərtləri, o cümlədən həmin müddət bitənədək və ya hədəflərə çatılmadıqda payların (səhmlərin) cəmiyyət və ya digər iştirakçılar tərəfindən geri alınması mexanizmləri;

65-1.2.5. korporativ müqavilənin tərəfi olan və eyni zamanda təsərrüfat cəmiyyəti ilə əmək münasibətlərində olan təsisçinin (iştirakçının) onunla olan əmək münasibətlərinə xitam verilməsinin əsaslarından asılı olaraq paylarını (səhmlərini) digər iştirakçılara və ya cəmiyyətə geri satması və həmin satış üzrə qiyməti və şərtləri müəyyən edən müddəalar;

65-1.2.6. mübahisələrin həlli qaydası, tərəflər arasında fikir ayrılığı yarandıqda tətbiq ediləcək mübahisələrin həlli üsulları, o cümlədən arbitraj və tətbiq ediləcək hüquq barədə şərtlər;

65-1.2.7. cəmiyyətin idarə edilməsində korporativ müqavilə iştirakçıları üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərin (qorunan məsələlərin) siyahısı, habelə bu məsələlər üzrə qərar qəbulu və səsvermə qaydaları;

65-1.2.8. təsərrüfat cəmiyyətinin idarəetmə orqanlarına namizədlərin təyinatının razılaşdırılması və şərtləri, habelə müəyyən iştirakçıların nümayəndələrinin cəmiyyətin idarəetmə orqanlarının iclaslarında səs hüququ olmadan iştirak etmək və iclas materialları ilə tanış olmaq hüququ;

65-1.2.9. təsərrüfat cəmiyyətinə investisiya edilmiş vəsaitlərin istifadə istiqamətləri və xərclənməsinə nəzarət mexanizmləri;

65-1.2.10. payların (səhmlərin) özgəninkiləşdirilməsi zamanı payı (səhmi) əldə edən yeni iştirakçının (səhmdarın) həmin müqaviləyə qoşulması proseduru;

65-1.2.11. korporativ müqavilənin şərtlərinin pozulmasının hüquqi nəticələri;

65-1.2.12. korporativ müqavilə iştirakçılarının razılığı ilə müəyyən edilən və normativ hüquqi aktlara zidd olmayan digər şərtlər.

65-1.3. Korporativ müqavilə yazılı formada bağlanır və möhürlə (iştirakçı (səhmdar) hüquqi şəxs olduqda həmçinin onun möhürü ilə) təsdiqlənir. Korporativ müqavilənin notariat qaydasında təsdiqi tələb olunmur. Müqavilənin müddəaları yalnız onu imzalamış tərəflər üçün məcburi qüvvəyə malikdir və cəmiyyətin nizamnaməsinin müddəalarına zidd olduqda, müqaviləni imzalamış tərəflər arasındakı daxili münasibətlərdə korporativ müqavilənin müddəaları üstün hüquqi qüvvəyə malikdir (bir şərtlə ki, bu, normativ hüquqi aktlara zidd olmasın və üçüncü şəxslərin hüquqlarına xələl gətirməsin), cəmiyyət (tərəflərdən birinin təsərrüfat cəmiyyəti olduğu hallar istisna olmaqla) və üçüncü şəxslərlə münasibətlərdə isə nizamnamənin müddəaları tətbiq edilir.

65-1.4. Korporativ müqavilənin şərtlərinin pozulması müqavilənin digər tərəfləri üçün dəymiş zərərin ödənilməsinə və müqavilədə nəzərdə tutulmuş digər hüquqi nəticələrin yaranmasına səbəb olur.

65-1.5. Korporativ müqavilənin tərəfləri müqavilənin bağlanmasından sonra on beş gündən gec olmayaraq təsərrüfat cəmiyyətini bu barədə yazılı şəkildə məlumatlandırmağa borcludurlar.

65-1.6. Korporativ müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, müqavilə tərəflərindən birinin təsərrüfat cəmiyyətinin nizamnamə kapitalındakı paylarına (səhmlərinə) olan hüququna xitam verilməsi və ya müqavilədən çıxması müqavilənin digər tərəflər üçün qüvvədən düşməsinə səbəb olmur.

65-1.7. Korporativ müqavilə ilə ondan irəli gələn öhdəliklərin icrasının təmin edilməsi üsulları (dəbbə pulu, girov, zaminlik və s.) və belə öhdəliklərin icra edilməməsi və ya lazımınca icra edilməməsinə görə məsuliyyət müəyyən edilə bilər. Tərəflər həmçinin müqavilənin pozulmasına görə dəymiş zərərin ödənilməsini, cərimələrin tətbiqini və ya öhdəliyin naturada icrasını tələb etmək hüququnu nəzərdə tuta bilərlər.

65-1.8. Korporativ müqavilədə fərqli səs, dividend və ləğvetmə hüquqları verən aşağıdakı xüsusi hüquqlar müəyyən edilə bilər:

65-1.8.1. ləğvetmə və ya özgəninkiləşdirmə zamanı üstünlük: təsərrüfat cəmiyyəti ləğv edildikdə və ya nəzarət zərfinin və ya bütün aktivlərin satışı (özgəninkiləşdirilməsi) həyata keçirildikdə, səhmdar cəmiyyətində imtiyazlı səhmlərə, məhdud məsuliyyətli cəmiyyətdə isə nizamnamədə nəzərdə tutulmuş xüsusi hüquqlu paylara (səhmlərə) sahib olan təsisçilərin (iştirakçıların) öz qoyduqları vəsaiti (nizamnamədə və ya korporativ müqavilədə müəyyən edilmiş əmsalla) digər təsisçilərdən (iştirakçılardan) əvvəl geri almaq hüququ (səhmdar cəmiyyətlərində imtiyazlı səhmlərin hüquqi rejimi üzrə bu Məcəllənin 106.2-ci maddəsi ilə müəyyən edilmiş hallar nəzərə alınmaqla);

65-1.8.2. payın (səhmin) dəyərsizləşməsi əleyhinə müddəalar: təsərrüfat cəmiyyəti tərəfindən gələcəkdə pay (səhm) nominal dəyərindən aşağı olmamaqla, əvvəlki buraxılış (yerləşdirmə) qiymətindən daha aşağı yerləşdirmə qiyməti ilə buraxıldıqda, müəyyən kateqoriya paylara (səhmlərə) sahib olan təsisçilərin (iştirakçıların) paylarının (səhmlərinin) dəyər itkisindən qorunması üçün konvertasiya qiymətinin və ya konvertasiya nisbətinin yenidən hesablanması mexanizmi;

65-1.8.3. xüsusi məsələlər: təsərrüfat cəmiyyətinin imtiyazlı səhmlərinə (paylarına) və (və ya) nizamnamə və ya korporativ müqavilə ilə nəzərdə tutulmuş xüsusi hüquqlu paylara (səhmlərə) sahib olan təsisçilərin (iştirakçıların) razılığı olmadan qəbul edilə bilməyəcək qərarların siyahısı və ya veto hüququ;

65-1.8.4. konvertasiya hüququ: imtiyazlı səhmləri (payları) istənilən zaman nizamnamədə müəyyən edilmiş şərtlərlə və nisbətdə adi səhmlərə (paylara) çevirmək;

65-1.8.5. təsərrüfat cəmiyyətinin fəaliyyətinə və digər təsisçilərin (iştirakçıların) hüquq və qanuni mənafelərinə əhəmiyyətli təsir göstərən qərarlar qəbul edildikdə, kiçik həcmdə paya (səhmə) malik olan təsisçilərin (iştirakçıların) hüquqlarının qorunması mexanizmləri, o cümlədən onlara öz paylarını (səhmlərini) ədalətli bazar qiymətinə satmaq və ya zəmanətli kompensasiya almaq hüququnun verilməsi;

65-1.8.6. ümumi yığıncaqda fərqli sayda səs vermək hüququnun müəyyən edilməsi, təsərrüfat cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin seçilməsi və ya təyin edilməsi ilə bağlı xüsusi hüquqlar;

65-1.8.7. təsərrüfat cəmiyyəti tərəfindən yeni paylar (səhmlər) buraxıldıqda, müəyyən kateqoriya təsisçilərin (iştirakçıların) öz mülkiyyət paylarına (səhmlərinə) mütənasib şəkildə həmin payların (səhmlərin) əldə edilməsində üstünlük hüququnun bu Məcəllə ilə müəyyən edilmiş qaydada verilməsi.

65-1.9. Tərəflər Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidenti olmalarından asılı olmayaraq, korporativ müqavilədə aralarında yaranacaq mübahisələrin həlli üzrə xarici dövlətin hüququnun tətbiq edilməsi barədə razılığa gələ bilərlər.

**Maddə 65-2. Payın (səhmin) özgəninkiləşdirilməsi ilə bağlı xüsusi hüquqlar**

65-2.1. Təsərrüfat cəmiyyətinin nizamnaməsi və ya iştirakçılar arasında bağlanmış korporativ müqavilə ilə payların (səhmlərin) özgəninkiləşdirilməsi ilə bağlı aşağıdakı xüsusi hüquqlar müəyyən edilə bilər:

65-2.1.1. birgə satış hüququ: təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında onun nizamnaməsi və ya korporativ müqavilə ilə müəyyən edilmiş həddən çox paya (səhmə) malik olan və öz paylarını (səhmlərini) üçüncü tərəfə satan təsisçi (iştirakçı) alış təklifi aldıqda, digər təsisçilərin (iştirakçıların) öz paylarını eyni şərtlərlə və eyni qiymətə həmin alıcıya satmaq hüququna dair şərt. Satıcı təsisçi (iştirakçı) bu barədə digər təsisçiləri (iştirakçıları) məlumatlandırmağa və onların da satışda iştirakını təmin etməyə borcludur;

65-2.1.2. məcburi satış hüququ: təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında nizamnamə və ya korporativ müqavilə ilə müəyyən edilmiş həddən çox paya (səhmə) malik olan təsisçi (iştirakçı) təsərrüfat cəmiyyətinin paylarının (səhmlərinin) hamısının və ya nəzarət zərfinin üçüncü şəxsə satışı (özgəninkiləşdirilməsi) barədə üçüncü şəxslə razılığa gəldikdə, digər təsisçiləri (iştirakçıları) öz paylarını (səhmlərini) eyni şərtlərlə və eyni qiymətə satmağa məcbur etmək hüququna dair şərt;

65-2.1.3. ilk imtina hüququ: açıq səhmdar cəmiyyətləri istisna olmaqla, digər təsərrüfat cəmiyyətlərinin hər hansı təsisçisi (iştirakçısı) öz payını (səhmini) üçüncü şəxsə satmaq niyyətində olduqda, həmin payı (səhmi) eyni şərtlərlə ilk növbədə təsərrüfat cəmiyyətinin nizamnaməsi və ya korporativ müqavilə ilə müəyyən edilmiş müəyyən kateqoriya təsisçisinə (iştirakçısına) təklif etməyə dair şərt.";

"88.3. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:

88.3.1. bu Məcəllə və cəmiyyətin təsis sənədləri ilə müəyyən edilmiş qaydada cəmiyyətin idarə edilməsində iştirak etmək, onun idarəetmə və icra orqanlarını seçmək və həmin orqanlara seçilmək;

88.3.2. normativ hüquqi aktlarda və cəmiyyətin təsis sənədlərində müəyyən edilmiş qaydada cəmiyyətin fəaliyyəti haqqında məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;

88.3.3. mənfəətin bölüşdürülməsində iştirak etmək;

88.3.4. bu Məcəllə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada cəmiyyətin nizamnamə kapitalındakı payını və ya onun bir hissəsini bu cəmiyyətin bir və ya bir neçə iştirakçısına satmaq və ya başqa şəkildə güzəştə getmək;

88.3.5. bu Məcəllə və cəmiyyətin təsis sənədləri ilə nəzərdə tutulmuş qaydada digər iştirakçıların razılığından asılı olmayaraq istənilən vaxt cəmiyyətdən çıxmaq;

88.3.6. cəmiyyət ləğv edildiyi halda kreditorlarla hesablaşmalardan, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra qalan əmlakın bir hissəsini və ya onun dəyərini almaq;

88.3.7. cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında onların hüquqlarının bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi barədə korporativ müqavilə bağlamaq;

88.3.8. cəmiyyətin ümumi yığıncağının çağırılmasını, ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;

88.3.9. cəmiyyətin ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək (bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və onun protokolunun surətini tələb etmək;

88.3.10. cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

88.3.11. cəmiyyətin xalis mənfəətindən dividend almaq;

88.3.12. icra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;

88.3.13. cəmiyyətin paylarının satışı prosesində iştirak etmək;

88.3.14. bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

88.3.15. bağlanacaq əqdlərin (o cümlədən aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq;

88.3.16. bu Məcəllədə və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.";

2.2. 90-cı maddə üzrə:

2.2.1. 90.2-ci maddənin birinci və ikinci cümlələrinə "Məhdud məsuliyyətli cəmiyyətin" sözlərindən sonra "(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)" sözləri əlavə edilsin;

2.2.2. aşağıdakı məzmunda 90.3-2-ci maddə əlavə edilsin:

"90.3-2. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarına, idarəetmə orqanlarının üzvlərinə və ya işçilərinə həvəsləndirmə məqsədilə paylar bu Məcəllənin 404-5-ci maddəsinə uyğun olaraq bağlanmış işçilərin pay iştirakı planı haqqında müqavilə əsasında ödənişsiz verildikdə, bu Məcəllənin 90.3-cü maddəsi tətbiq edilmir.";

2.3. 90-1.2-ci maddəyə "Məhdud məsuliyyətli cəmiyyətin" sözlərindən sonra "(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)" sözləri əlavə edilsin;

2.4. 95-ci maddə üzrə:

2.4.1. mətni 95.1-ci maddə hesab edilsin və həmin maddəyə "Məhdud məsuliyyətli cəmiyyətin" sözlərindən sonra "(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)" sözləri əlavə edilsin;

2.4.2. aşağıdakı məzmunda 95.2-ci maddə əlavə edilsin:

"95.2. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda, iştirakçının cəmiyyətdən çıxmaq hüququnun həyata keçirilməsi müddəti, hesablaşma vaxtı, şərtləri və qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilə və məhdudlaşdırıla bilər.";

2.5. aşağıdakı məzmunda 103.4-2-ci maddə əlavə edilsin:

"103.4-2. Səhmdar cəmiyyətinin iştirakçılarına, idarəetmə orqanlarının üzvlərinə və ya işçilərinə həvəsləndirmə məqsədilə səhmlər bu Məcəllənin 404-5-ci maddəsinə uyğun olaraq bağlanmış işçilərin səhm iştirakı planı haqqında müqavilə əsasında ödənişsiz verildikdə, bu Məcəllənin 103.4-cü maddəsi tətbiq edilmir.";

2.6. 106-1.3.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 106-1.3.10-cu maddə əlavə edilsin:

"106-1.3.10. cəmiyyətin səhmdarları arasında onların hüquqlarının bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi barədə korporativ müqavilə bağlamaq.";

2.7. 107-3.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"107-3.5. Bu Məcəllənin 65-1.8.6-cı maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir.";

2.8. aşağıdakı məzmunda 404-2 - 404-5-ci maddələr əlavə edilsin:

**"Maddə 404-2. Konvertasiya edilən maliyyə alətləri**

404-2.1. Təsərrüfat cəmiyyəti gələcəkdə əvvəlcədən müəyyən edilmiş hallar baş verdikdə, cəlb edilən vəsaitin cəmiyyətin payına (səhmlərinə) çevrilməsini (konvertasiyasını) nəzərdə tutan maliyyə alətlərindən istifadə edə bilər.

404-2.2. Konvertasiya edilən maliyyə alətləri borc öhdəliyi (konvertasiya edilən borc müqaviləsi) və ya borc öhdəliyi yaratmayan müqavilə (gələcək iştirak payı (səhm) haqqında müqavilələr) formasında ola bilər.

404-2.3. Konvertasiya edilən maliyyə alətlərinin tətbiqi nəzərdə tutulduğu hallarda, konvertasiya edilən maliyyə alətlərinin buraxılması və konvertasiyası qaydaları cəmiyyətin nizamnaməsi və ya cəmiyyətin iştirakçılarının ümumi yığıncağının qərarı ilə müəyyən edilə bilər.

404-2.4. Konvertasiya edilən maliyyə alətləri üzrə vəsait cəlb edən cəmiyyət, investorun tələbi ilə ona öz fəaliyyəti, maliyyə vəziyyəti və cəlb edilmiş vəsaitlərin istifadəsi haqqında mütəmadi olaraq, dövriliyi cəmiyyətin nizamnaməsi və ya korporativ müqavilə ilə müəyyən edilən qaydada hesabat təqdim edir.

404-2.5. Bu Məcəllənin 404-3-cü və 404-4-cü maddələrində nəzərdə tutulan alətlər (müqavilələr) və onlarda təsbit edilən hüquqlar konvertasiya edilənədək qiymətli kağız və ya törəmə maliyyə aləti hesab olunmur, onların bağlanması qiymətli kağızların emissiyası (kütləvi təklifi) sayılmır.

404-2.6. Cəmiyyət tərəfindən bağlanmış konvertasiya edilən maliyyə alətlərinin daxili reyestri aparılmalıdır. Konvertasiya baş verdikdə nizamnamə kapitalının artırılması və payların (səhmlərin) bölüşdürülməsi qanunvericiliklə müəyyən edilmiş ümumi qaydada dövlət qeydiyyatına alınır.

**Maddə 404-3. Konvertasiya edilən borc müqaviləsi**

404-3.1. Konvertasiya edilən borc müqaviləsi investordan cəmiyyətə borc qismində pul vəsaitinin verilməsini və müqavilədə göstərilən qaytarılma müddəti çatdıqda, yaxud cəmiyyət tərəfindən yeni investorlardan əlavə vəsaitin cəlb edildiyi maliyyələşmə mərhələsi (kvalifikasiyalı maliyyələşmə) baş verdikdə, həmin borcun (əsas məbləğ və faizlərin) qaytarılmaq əvəzinə tərəflərin razılaşdırdığı şərtlərlə cəmiyyətin paylarına (səhmlərinə) çevrilməsini nəzərdə tutan müqavilədir. Konvertasiya edilən borc müqaviləsi yazılı formada bağlanır və möhürlə (investor hüquqi şəxs olduqda həmçinin onun möhürü ilə) təsdiqlənir və onun notariat qaydasında təsdiqi tələb olunmur.

404-3.2. Borcun paya (səhmə) konvertasiyası zamanı ilkin investorun risklərini kompensasiya etmək üçün müqavilədə aşağıdakı qoruyucu mexanizmlərdən azı biri müəyyən edilməlidir:

404-3.2.1. qiymətləndirmənin yuxarı həddi - konvertasiya anında investorun əldə edəcəyi payın həcminin hesablanması üçün tətbiq edilən, cəmiyyətin dəyərinin müqavilə ilə əvvəlcədən razılaşdırılmış maksimal miqdarı;

404-3.2.2. endirim dərəcəsi - kvalifikasiyalı maliyyələşmə mərhələsində cəmiyyətə daxil olan yeni investorların bir pay (səhm) üçün ödədikləri qiymətə ilkin borcverən üçün tətbiq edilən güzəşt faizi.

404-3.3. Müqavilənin müddəti bitdikdə və paya çevrilməni şərtləndirən hadisə baş vermədikdə, investor öz seçimi ilə borcun (faizlərlə birlikdə) pul şəklində geri qaytarılmasını və ya borcun müqavilədə əvvəlcədən razılaşdırılmış qiymətləndirmə əsasında cəmiyyətin payına (səhmlərinə) çevrilməsini tələb edə bilər.

**Maddə 404-4. Gələcək iştirak payı (səhm) haqqında müqavilə**

404-4.1. Gələcək iştirak payı (səhm) haqqında müqavilə investorun cəmiyyətə pul vəsaiti ödəməsini, bunun müqabilində cəmiyyətin hər hansı borc öhdəliyi, faiz və ya ödəmə müddəti yaratmadan investora həmin vəsait müqabilində gələcəkdə cəmiyyətin paylarını (səhmlərini) almaq hüququ verməsini nəzərdə tutan müqavilədir. Gələcək iştirak payı (səhm) haqqında müqavilə yazılı formada bağlanır və möhürlə (investor hüquqi şəxs olduqda həmçinin onun möhürü ilə) təsdiqlənir və onun notariat qaydasında təsdiqi tələb olunmur.

404-4.2. Gələcək iştirak payı (səhm) haqqında müqavilə üzrə investorun vəsaitinin paya (səhmə) konvertasiyası cəmiyyətin nizamnamə kapitalını artıraraq yeni investorlara pay (səhm) satdığı yeni maliyyələşmə mərhələsi (kvalifikasiyalı maliyyələşmə) baş verdikdə və ya cəmiyyətin nəzarət zərfinin və ya bütün aktivlərinin satılması, cəmiyyətin başqa hüquqi şəxsə qoşulması, ləğvi kimi likvidlik hadisəsi baş verdikdə həyata keçirilir.

404-4.3. Gələcək iştirak payı (səhm) haqqında müqavilə üzrə paya (səhmə) çevrilmə zamanı investorun payının həcminin hesablanması tərəflərin razılaşdırdığı qiymətləndirmənin yuxarı həddi və (və ya) endirim dərəcəsi əsasında bu Məcəllənin 404-3.2-ci maddəsinə uyğun olaraq hesablanır. İnvestor bu iki şərtdən onun üçün daha sərfəli olanını seçmək hüququna malikdir.

404-4.4. Likvidlik hadisəsi (cəmiyyətin ləğvi və ya satışı) konvertasiyadan əvvəl baş verdikdə, bu müqavilə üzrə vəsaiti ödəmiş investorun ödəniş (investisiyanın geri qaytarılması) tələbləri cəmiyyətin digər təminatsız kreditorlarının tələblərindən sonra, lakin cəmiyyətin təsisçilərinə (iştirakçılarına, səhmdarlarına) qalıq əmlakın bölüşdürülməsindən əvvəl yerinə yetirilir.

**Maddə 404-5. İşçilərin pay (səhm) iştirakı planı haqqında müqavilə**

404-5.1. Təsərrüfat cəmiyyəti işçilərini və idarəetmə orqanının üzvlərini həvəsləndirmək məqsədilə, onlara cəmiyyətin paylarını (səhmlərini) gələcəkdə müəyyən edilmiş qiymətə (icra qiyməti) və ya ödənişsiz əsaslarla əldə etmək (almaq) hüququ verən pay (səhm) iştirakı planı haqqında müqavilələr bağlaya bilər. Müqavilə yazılı formada bağlanır və cəmiyyətin möhürü ilə təsdiqlənir və onun notariat qaydasında təsdiqi tələb olunmur.

404-5.2. Planın tərtibi tarixi, hüququn qüvvəyə minməsi şərtləri, icra qiyməti (payların (səhmlərin) güzəştli ödənişli əsaslarla əldə edilməsi nəzərdə tutulduğu hallarda) və müddəti müqavilədə aydın şəkildə göstərilməlidir. Cəmiyyət tərəfindən bağlanmış işçilərin pay (səhm) iştirakı planı müqavilələrinin daxili reyestri aparılmalıdır.

404-5.3. Bu müqavilələrin icrası üçün cəmiyyət nizamnamə kapitalının tərkibində səlahiyyət verilmiş (lakin buraxılmamış) xüsusi pay (səhm) fondu yarada bilər.".

**Maddə 3.** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 138, № 3, maddə 250; 2025, № 2, maddə 100, № 5, maddə 432) 11-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. birinci və ikinci hissələrə "Qeyri-rezidentlər" sözlərindən sonra ", o cümlədən rəqəmsal səyyahlar" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 9-cu hissə əlavə edilsin:

"9. Vençur kapitalı fondları və akkreditə olunmuş investorlar tərəfindən Azərbaycan Respublikasından kənarda fəaliyyət göstərən innovativ layihələrdə (startaplarda) gələcək iştirak payının əldə edilməsi (gələcək iştirak payı (səhm) haqqında müqavilə, konvertasiya olunan borc və analoji maliyyə alətləri) məqsədilə investisiyaların qoyulması üzrə köçürmələr Mərkəzi Bankın müəyyən etdiyi qaydada və hədddə həyata keçirilir.".

**Maddə 4.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950 (Cild I); 2025, № 4 (I kitab), maddələr 315, 318, № 5, maddə 432) aşağıdakı dəyişikliklər edilsin:

4.1.1.1-ci maddə üzrə:

4.1.1. aşağıdakı məzmunda 1.1.7-1 - 1.1.7-8-ci maddələr əlavə edilsin:

"1.1.7-1. vençur kapitalı fondu - fəaliyyətinin müstəsna predmeti investorların mənfəət əldə etməsi məqsədilə yalnız peşəkar investorlardan cəlb edilmiş pul vəsaitlərinin investisiya bəyannaməsinə uyğun olaraq investisiya edilməsi olan və aşağıdakı meyarlara cavab verən, habelə bu Qanunla nəzərdə tutulmuş təşkilati-hüquqi formalarda yaradılan investisiya fondudur:

1.1.7-1.1. əsas fəaliyyətinin investisiya qoyuluşundan ibarət olması və bu Qanunda nəzərdə tutulan hallar istisna olmaqla digər kommersiya fəaliyyəti həyata keçirməməsi;

1.1.7-1.2. fondun investorları üçün ortaq gəlir əldə etmək məqsədilə cəlb edilmiş kapitalı birləşdirməsi;

1.1.7-1.3. maliyyə və əməliyyat fəaliyyəti istiqamətlərinin müəyyən edilməsində, investisiya qərarlarının qəbulunda bütün təsisçilərin (iştirakçıların) birgə şəkildə davamlı iştirakının olmaması;

1.1.7-2. peşəkar investor - "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.7-ci maddəsi ilə müəyyən edilmiş institusional investorlar, iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafının maliyyələşdirilməsi və innovasiya fəaliyyətinin həyata keçirilməsi məqsədilə fəaliyyət göstərən dövlət adından yaradılan publik hüquqi şəxslər və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və ya bu Qanunun 1.1.7-3-cü maddəsində müəyyən edilmiş tələblərə cavab verən akkreditə olunmuş investorlardır;

1.1.7-3. akkreditə olunmuş investor - bu Qanunun 9-1.3-cü maddəsində göstərilən fəaliyyətə vençur kapitalı fondu vasitəsilə investisiya edən, investisiya ilə bağlı riskləri dərk etmək üçün maliyyə təcrübəsinə və ya potensial itkiləri qarşılamaq üçün maliyyə imkanlarına malik olan və aşağıdakı meyarlardan azı birinə cavab verən fiziki və ya hüquqi şəxsdir:

1.1.7-3.1. son 2 ilin hər birində illik gəliri 150.000 (yüz əlli min) manatdan çox olan və cari ildə də eyni gəlir səviyyəsini əldə edəcəyini əsaslı şəkildə gözləyən fiziki şəxslər;

1.1.7-3.2. əsas yaşayış yeri olan daşınmaz əmlakının dəyəri istisna olmaqla, xalis maliyyə aktivlərinin dəyəri 500.000 (beş yüz min) manatdan çox olan fiziki şəxslər;

1.1.7-3.3. siyahısı Mərkəzi Bank tərəfindən müəyyən edilmiş sertifikatlara malik olan şəxslər;

1.1.7-3.4. xalis aktivlərinin dəyəri 5.000.000 (beş milyon) manatdan çox olan və ya bütün iştirakçıları bu Qanunun 1.1.7-3.1 - 1.1.7-3.3-cü maddələri ilə müəyyən edilmiş meyarlardan birinə cavab verən hüquqi şəxslər;

1.1.7-3.5. bütün iştirakçıları akkreditə olunmuş investorlardan ibarət olan hüquqi şəxslər;

1.1.7-3.6. vençur kapitalı fondunun idarəçisi (hüquqi şəxs olduqda isə onun rəhbər şəxsləri) və investisiya qərarlarının qəbulunda bilavasitə iştirak edən şəxslər;

1.1.7-4. azad hesabatlı vençur kapitalı fondu - bu Qanunun 9-2-ci maddəsində müəyyən edilmiş meyarlara cavab verən, fəaliyyəti üçün lisenziya tələb olunmayan və Mərkəzi Bank tərəfindən aparılan reyestrdə qeydə alınan vençur kapitalı fondudur;

1.1.7-5. lisenziyalaşdırılan vençur kapitalı fondu - bu Qanunun 9-3-cü maddəsinə uyğun olaraq Mərkəzi Bank lisenziyası əsasında fəaliyyət göstərən vençur kapitalı fondudur;

1.1.7-6. idarə edilən aktivlərin həcmi - vençur kapitalı fondunun idarə etdiyi bütün aktivlərinin, o cümlədən cəlb edilmiş, lakin hələ investisiya edilməmiş kapitalın və investorların ödənilməmiş kapital öhdəliklərinin bu Qanunun 9-1.7-ci maddəsinə əsasən hesablanan ümumi dəyəridir;

1.1.7-7. ödənilməmiş kapital öhdəliyi - vençur kapitalı fondunun təsis sənədlərinə (müqaviləsinə) əsasən fondun çağırışı əsasında investorun gələcəkdə fonda ödəməyi öhdəsinə götürdüyü, lakin hələ ödənilməmiş vəsaitin məbləğidir;

1.1.7-8. investorlardan pul vəsaitlərinin cəlb edilməsi - fond (və ya onun adından çıxış edən şəxs) tərəfindən kənar investorlardan (onların fondun təsisçisi qismində çıxış edib-etməməsindən asılı olmayaraq) investisiya məqsədilə fonda vəsaitin köçürülməsini (və ya bu barədə öhdəliyin götürülməsini) təmin etmək üçün həyata keçirilən fəaliyyətdir;";

4.1.2. 1.1.10-cu maddədə "şəxsdir" sözü "şəxs və ya investisiya şirkətləridir" sözləri ilə əvəz edilsin;

4.1.3. 1.1.17-ci maddəyə "müşahidə şurası" sözlərindən sonra "(olduqda)" sözü əlavə edilsin, "üzvlükdür" sözü "üzvlük və ya kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunda işləri aparan tam ortaqdır (ortaqlardır)" sözləri ilə əvəz edilsin;

4.1.4. aşağıdakı məzmunda 1.2-ci maddə əlavə edilsin:

"1.2. Bu Qanunda xüsusi olaraq fərqləndirilmədikdə, bu Qanunun investisiya fondlarına, o cümlədən səhmdar investisiya fondlarına, qapalı paylı investisiya fondlarına, onların idarəçilərinə, depozitarlarına və investorlarına dair müddəaları (bu Qanunun 42-ci və 43-cü maddələri istisna olmaqla) vençur kapitalı fondlarına, onların idarəçilərinə, depozitarlarına və peşəkar investorlarına da şamil edilir. Bu Qanunun lisenziyalaşdırmaya, habelə prudensial tənzimləməyə və nəzarətə dair müddəaları yalnız lisenziyalaşdırılan vençur kapitalı fondlarına şamil edilir. Azad hesabatlı vençur kapitalı fondlarının fəaliyyəti bu Qanunun II-I fəslində nəzərdə tutulmuş rejimə əsasən tənzimlənir.";

4.2. 3-cü maddə üzrə:

4.2.1. aşağıdakı məzmunda 3.2-1-ci maddə əlavə edilsin:

"3.2-1. Vençur kapitalı fondunun adında "vençur kapitalı fondu" sözləri olmalıdır. Hüquqi şəxs statusu almaq istəyən azad hesabatlı vençur kapitalı fondunun dövlət qeydiyyatına alınması və ya mövcud hüquqi şəxsin nizamnaməsində (adında) dəyişiklik edilməsi zamanı bu sözlərdən istifadə edilməsi üçün Mərkəzi Bankın ilkin razılığı alınmalıdır. İlkin razılığın alınması qaydası Mərkəzi Bankın qəbul etdiyi normativ xarakterli aktlarla müəyyən edilir.";

4.2.2. 3.3-cü maddəyə "İnvestisiya fondu" sözlərindən sonra "və ya "Vençur kapitalı fondu" sözləri, "fondları" sözündən sonra "(vençur kapitalı fondları)" sözləri əlavə edilsin və həmin maddədə "qanunvericiliyinə müvafiq" sözləri "normativ hüquqi aktlarına uyğun" sözləri ilə əvəz edilsin;

4.3. aşağıdakı məzmunda II-I fəsil əlavə edilsin:

**"II-I fəsil**

**Vençur kapitalı fondunun fəaliyyət rejimləri və fəaliyyətinin tənzimlənməsi**

**Maddə 9-1. Vençur kapitalı fonduna dair ümumi müddəalar**

9-1.1. Vençur kapitalı fondunun nizamnaməsində və ya onun təsis sənədlərində fondun fəaliyyətinin müstəsna predmetinin cəlb edilən vəsaitlərinin 70 faizindən az olmayan hissəsinin bu Qanunun 9-1.3-cü maddəsində göstərilən məqsədlərə yatırılmasından ibarət olduğu göstərilməlidir. Qalan vəsait likvidliyin idarə edilməsi məqsədilə digər maliyyə alətlərinə yatırıla bilər.

9-1.2. Vençur kapitalı fondları bu Qanunun II-I fəslinə uyğun olaraq azad hesabatlı vençur kapitalı fondu və ya lisenziyalaşdırılan vençur kapitalı fondu rejimində fəaliyyət göstərirlər. Vençur kapitalı fondu məhdud məsuliyyətli cəmiyyət, qapalı səhmdar cəmiyyəti, kommandit ortaqlığı və ya qapalı paylı investisiya fondu formasında yaradıla bilər. Vençur kapitalı fondu sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul ola bilməz.

9-1.3. Vençur kapitalı fondu investorlardan cəlb olunmuş pul vəsaitlərinin yalnız rəqəmsal texnologiyaların və innovasiya məhsulunun (iqtisadi və ya sosial səmərə əldə etmək məqsədilə yeni yaradılmış və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində (təşkilati-texniki, maliyyə-iqtisadi və digər sahələrdə) tətbiq edilən inzibati, kommersiya, texnoloji və digər xarakterli yeniliklər) hazırlanması, istehsalı və təkmilləşdirilməsini həyata keçirən, mikro, kiçik və orta sahibkarlıq subyekti olan, habelə Azərbaycan Respublikasında "Startap" şəhadətnaməsini və ya texnologiyalar parkının və texnoloji biznes inkubatorunun və ya sənaye və azad iqtisadi zonaların qeydiyyat şəhadətnaməsini alan sahibkarların innovativ layihələrinə bu Qanunla müəyyən edilmiş qaydada yatırılması ilə məşğul olur.

9-1.4. Vençur kapitalı fondunun borc götürməsinə dair məhdudiyyətlər fondun rejimindən asılı olaraq aşağıdakı kimi müəyyən edilir:

9-1.4.1. azad hesabatlı vençur kapitalı fondu yalnız qısamüddətli likvidlik ehtiyaclarını (investisiyaların maliyyələşdirilməsi və ya əməliyyat xərclərinin ödənilməsi) ödəmək məqsədilə borc götürə bilər. Ümumi borc öhdəlikləri fondun ümumi kapital öhdəliklərinin (cəlb edilmiş və ödənilməmiş kapital öhdəliklərinin cəmi) 30 faizindən çox, hər borcun müddəti isə 12 aydan artıq ola bilməz;

9-1.4.2. lisenziyalaşdırılan vençur kapitalı fondu aktivlərinin 10 faizini keçməyən məbləğdə və üç aydan artıq olmayan müddətə borc götürə bilər.

9-1.5. Lisenziyalaşdırılan vençur kapitalı fondunun nizamnamə (şərikli) kapitalının minimum miqdarı və nizamnamə (şərikli) kapitalının formalaşdırması qaydaları Mərkəzi Bank tərəfindən müəyyən edilir.

9-1.6. Vençur kapitalı fondunun pay mülkiyyətçilərinin (səhmdarlarının) reyestri mərkəzi depozitar tərəfindən aparılır.

*Ardı 4-cü səh.*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

9-1.7. Vençur kapitalı fondu ildə azı bir dəfə idarə edilən aktivlərin həcmini hesablamalıdır. İdarə edilən aktivlərin həcminin hesablanması qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir.

9-1.8. Vençur kapitalı fondu öz investisiyalarını Azərbaycan Respublikasında, həmçinin "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasından kənarda həyata keçirə bilər.

9-1.9. Vençur kapitalı fondu tərəfindən hüquqi şəxs təsis edildikdə, 5 iş günü müddətində Mərkəzi Banka məlumat verir.

9-1.10. Vençur kapitalı fondunun fəaliyyət müddətinin uzadılması, idarəçisinin dəyişdirilməsi, habelə idarəçi tərəfindən əvvəlki fondun fəaliyyət müddəti bitdikdən və ya kapitalının (fondun təsis sənədlərində və ya idarə edilməsi qaydalarında müəyyən edilmiş hissəsinin) investisiya edilməsindən sonra yeni varis vençur kapitalı fondunun təsis edilməsi məhdudiyyətləri bu Qanunun tələbləri nəzərə alınmaqla fondun nizamnaməsi, paylı investisiya fondunun idarə edilməsi qaydaları və (və ya) investisiya bəyannaməsi ilə müəyyən edilir. Vençur kapitalı fondunun fəaliyyət müddətinin uzadılması və idarəçinin dəyişdirilməsi investorların (səhmdarların, pay mülkiyyətçilərinin, iştirakçıların) razılığı əsasında həyata keçirilir. Bu maddədə göstərilən hallar baş verdikdə bu barədə 5 (beş) iş günü müddətində Mərkəzi Banka yazılı məlumat verilməlidir.

9-1.11. Yeni varis vençur kapitalı fondu bu Qanunla müəyyən edilmiş qaydada Mərkəzi Bank tərəfindən reyestrdə qeydə alınmalı və ya lisenziya almalıdır.

**Maddə 9-2. Azad hesabatlı vençur kapitalı fondu rejimi və meyarları**

9-2.1. Azad hesabatlı vençur kapitalı fondu aşağıdakı meyarların hamısına cavab verdikdə azad hesabatlı vençur kapitalı fondu rejimində fəaliyyət göstərə bilər:

9-2.1.1. bu Qanunun 9-1.7-ci maddəsi nəzərə alınmaqla, idarə etdiyi aktivlərin həcmi 50 (əlli) milyon manat ekvivalentini keçmirsə;

9-2.1.2. investorlarının ümumi sayı əllidən çox deyilsə (fondun təşkilati-hüquqi forması üçün normativ hüquqi aktlarda daha az say müəyyən edildiyi hallar istisna olmaqla).

9-2.2. Azad hesabatlı vençur kapitalı fondunun fəaliyyəti lisenziyalaşdırılmır. Azad hesabatlı vençur kapitalı fondu fəaliyyətə başlamazdan əvvəl Mərkəzi Bank tərəfindən bu Qanunun 9-6-cı maddəsində müəyyən edilmiş qaydada reyestrdə qeydə alınmalıdır.

9-2.3. Azad hesabatlı vençur kapitalı fondu Mərkəzi Banka illik əsasda bu Qanunun 9-7-ci maddəsində müəyyən edilmiş məzmunda hesabat təqdim etməlidir.

**Maddə 9-3. Lisenziyalaşdırılan vençur kapitalı fondu rejimi və meyarları**

9-3.1. Bu Qanunun 9-2.1-ci maddəsində nəzərdə tutulan meyarlara cavab verməyən vençur kapitalı fondu yalnız lisenziyalaşdırılan vençur kapitalı fondu rejimində fəaliyyət göstərə bilər. Vençur kapitalı fondu həmçinin könüllü olaraq lisenziyalaşdırılan vençur kapitalı fondu rejimində fəaliyyət göstərmək barədə qərar qəbul edə bilər.

9-3.2. Lisenziyalaşdırılan vençur kapitalı fondu bu Qanunun VIII fəslinə uyğun olaraq Mərkəzi Bankdan lisenziya almalıdır.

**Maddə 9-4. Vençur kapitalı fondunun fəaliyyət rejiminin dəyişdirilməsi**

9-4.1. Azad hesabatlı vençur kapitalı fondu bu Qanunun 9-1.7-ci maddəsində qeyd edilən hesablamanı həyata keçirərkən bu Qanunun 9-2.1-ci maddəsində nəzərdə tutulan meyarlara uyğun olmadığı təqdirdə, bu barədə 10 iş günü ərzində Mərkəzi Banka və investorlarına məlumat verməli və bu halın baş verdiyi tarixdən etibarən 90 təqvim günü (keçid dövrü) ərzində lisenziyalaşdırılan vençur kapitalı fondu lisenziyası almaq üçün Mərkəzi Banka müraciət etməlidir.

9-4.2. Keçid dövründə fond yeni investor cəlb edə bilməz, lakin mövcud investisiya fəaliyyətini, o cümlədən mövcud investorlardan ödənilməmiş kapital öhdəliklərini tələb etməyi və mövcud portfel şirkətlərinə əlavə investisiyalar etməyi davam etdirə bilər.

9-4.3. Mərkəzi Bank əsaslandırılmış müraciət əsasında keçid dövrünü əlavə 90 təqvim gününədək uzada bilər.

9-4.4. Bu Qanunun 9-4.1-ci maddəsində göstərilən müddət ərzində lisenziya üçün müraciət edilmədikdə və ya ona lisenziya verilməsindən bu Qanunla nəzərdə tutulmuş hallarda imtina edildikdə vençur kapitalı fondu fəaliyyətini dayandırmalı, Mərkəzi Bank isə azad hesabatlı vençur kapitalı fondunu reyestrdən çıxarılma barədə qərar qəbul etməli və bu barədə məlumatı reyestrdən qeydi çıxarılmış azad hesabatlı vençur kapitalı fonduna və ya onun idarəçisinə, onun depozitarına və vergi orqanlarına dərhal göndərməli və mediada dərc etdirməlidir.

9-4.5. Reyestrdə müvafiq qeydi ləğv edilmiş azad hesabatlı vençur kapitalı fondunun təsisçiləri (iştirakçıları, səhmdarları, tam ortaqları) Mərkəzi Bankın qərarının qəbul edildiyi tarixdən 30 (otuz) təqvim günü müddətində Azərbaycan Respublikası Mülki Məcəlləsinin 59.2.1-ci maddəsinə uyğun olaraq fondun ləğv edilməsi və ya adından "vençur kapitalı fondu" sözləri çıxarılmaqla fəaliyyət predmetinin dəyişdirilməsi barədə qərar qəbul etməlidirlər. Bu müddət ərzində müvafiq qərar qəbul edilmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin hüquqi şəxsin məhkəmə qaydasında məcburi ləğv edilməsi tələbi ilə iddia qaldırır.

**Maddə 9-5. Vençur kapitalı fondunun idarəçilərinə dair tələblər**

9-5.1. Vençur kapitalı fondu daxili idarəetmə formasında (fondun icra orqanı və ya tam ortaq tərəfindən) və ya kənar idarəçi cəlb etməklə idarə oluna bilər.

9-5.2. Lisenziyalaşdırılan vençur kapitalı fondunun idarə edilməsi kənar idarəçi tərəfindən həyata keçirildikdə, həmin kənar idarəçi bu Qanunun IV və VIII fəsillərinə uyğun olaraq investisiya fondlarının idarə edilməsi üzrə lisenziyaya malik olan şəxs olmalıdır.

9-5.3. İdarəçi vençur kapitalı fondunun nizamnamə (şərikli) kapitalının və ya investorların cəlb edilmiş kapital öhdəliklərinin azı 1 - 5 faizinə bərabər məbləğdə öz vəsaiti ilə fondda iştirak etməlidir.

9-5.4. Azad hesabatlı vençur kapitalı fondunun idarə edilməsi üçün bu Qanunla nəzərdə tutulmuş investisiya fondlarının idarə edilməsi üzrə lisenziya tələb olunmur. Aşağıdakı tələblərə cavab verən idarəçi (fondun icra orqanı və ya tam ortaq istisna olmaqla) fondun reyestrə qeydə alınması zamanı Mərkəzi Bank tərəfindən aparılan reyestrdə qeydə alınmalıdır:

9-5.4.1. idarəçinin nizamnamə kapitalı azı 50.000 manat olmalı və ya 3 aylıq əməliyyat xərclərini qarşılamaq üçün kifayət edən likvid aktivlərə malik olmalıdır (hansı daha yüksəkdirsə);

9-5.4.2. idarəçinin rəhbər şəxsləri (və ya tam ortaqlar) bu Qanunun 40-cı maddəsində nəzərdə tutulan məqbul və lazımi keyfiyyətlərə malik olmalıdırlar.

9-5.5. Bu Qanunun 9-5.4-cü maddəsinə əsasən idarəetməni həyata keçirən şəxsin reyestrdə qeydə alınması bu Qanunun 9-6.3 - 9-6.11-ci maddələrində qeyd edilmiş qaydada aparılır.

9-5.6. Azad hesabatlı vençur kapitalı fondunun idarəçisi eyni zamanda ondan artıq vençur kapitalı fondunu idarə edə bilməz.

**Maddə 9-6. Azad hesabatlı vençur kapitalı fondunun reyestri**

9-6.1. Bu Qanunun 3.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, azad hesabatlı vençur kapitalı fondu (və ya onun idarəçisi) tərəfindən fəaliyyətə başlamazdan əvvəl Mərkəzi Bankda reyestrdə qeydə alınmaq üçün ərizə və aşağıdakı sənədlər (məlumatlar) təqdim edilməlidir:

9-6.1.1. fondun və idarəçinin (kənar idarəçi olduqda) təsis sənədlərinin surətləri;

9-6.1.2. fondun investisiya bəyannaməsi və ya əsas investisiya şərtlərini əks etdirən sənəd;

9-6.1.3. idarəçinin bu Qanunun 9-5.3-cü və 9-5.4-cü maddələrinin tələblərinə uyğunluğunu təsdiq edən məlumatlar (rəhbər şəxslər və kapital (likvidlik) barədə).

9-6.2. Bu maddədə nəzərdə tutulmuş sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar müraciət edəndən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.

9-6.3. Mərkəzi Bank təqdim edilmiş sənədlərə 15 iş günü ərzində baxır.

9-6.4. Sənədlərdə və ya məlumatlarda çatışmazlıq aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 3 iş günündən gec olmayaraq Mərkəzi Bank bu barədə məlumatı müraciət edənə təqdim edir. Bütün çatışmazlıqlar müraciət edənə eyni zamanda bildirilməlidir.

9-6.5. Müraciət edən həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman azad hesabatlı vençur kapitalı fondunun reyestrdə qeydə alınması ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət reyestrdə qeydə alınma müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə müraciət edənin müraciətindən sonra müddətin axımı bərpa olunur.

9-6.6. Müraciət edən ərizədə və ona əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları bu Qanunun 9-6.5-ci maddəsində göstərilən müddətdə aradan qaldırmadıqda ərizə baxılmamış saxlanılır və bu barədə məlumat 2 iş günü müddətində müraciət edənə təqdim edilir.

9-6.7. Müraciət edən aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra reyestrdə qeydə alınma üçün təkrar ərizə ilə Mərkəzi Banka müraciət edə bilər. Bu halda müraciətə yeni müraciət kimi baxılır.

9-6.8. Təqdim edilən sənədlərdə və məlumatlarda çatışmazlıq olmadıqda, Mərkəzi Bank fondu azad hesabatlı vençur kapitalı fondu reyestrinə daxil edir və bu barədə 5 iş günü müddətində fonda yazılı bildiriş göndərir.

9-6.9. Mərkəzi Bank aşağıdakı hallarda fondu azad hesabatlı vençur kapitalı fondu kimi reyestrdə qeydə almaqdan imtina edir:

9-6.9.1. ərizədə və ona əlavə olunmuş sənədlərdə bu Qanunun 9-6.1-ci maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmayan məlumatlar olduqda (bu Qanunun 9-6.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla);

9-6.9.2. çatışmazlıqların aradan qaldırılması barədə müraciət edən müraciətindən sonra çatışmazlıqların aradan qaldırılmadığı müəyyən edildikdə.

9-6.10. Fondu azad hesabatlı vençur kapitalı fondu kimi reyestrdə qeydə alınmasından imtina haqqında Mərkəzi Bankın qərarını aldıqdan sonra müraciət edənlər inzibati qaydada və məhkəməyə şikayət edə bilərlər.

**Maddə 9-7. Azad hesabatlı vençur kapitalı fondunun hesabatlılığı**

9-7.1. Azad hesabatlı vençur kapitalı fondu Mərkəzi Banka hesabat təqdim etməlidir.

9-7.2. Hesabatda aşağıdakı məlumatlar göstərilir:

9-7.2.1. hesabat dövrünün sonuna bu Qanunun 9-1.7-ci maddəsinə uyğun hesablanmış idarə edilən aktivlərin həcmi və komponentləri;

9-7.2.2. investorların ümumi sayı və onların hamısının peşəkar investor olduğuna dair təsdiqedici sənədlər;

9-7.2.3. investisiya portfeli haqqında icmal məlumat (əsas investisiya sahələri və coğrafi bölgüsü);

9-7.2.4. fondun borclanma səviyyəsi və bu Qanunun 9-1.4.1-ci maddəsinin tələblərinə uyğunluğunu təsdiq edən sənədlər.

9-7.3. Azad hesabatlı vençur kapitalı fondu bu Qanunun 9-7.2.1-ci maddəsində nəzərdə tutulan məlumatları hər təqvim ili üzrə növbəti ilin birinci rübü ərzində, bu Qanunun 9-7.2.2 - 9-7.2.4-cü maddələrində nəzərdə tutulan məlumatları isə yarımildə bir dəfə (avqust və fevral aylarında), habelə bu Qanunun 9-7.6.2-ci maddəsində investorlara təqdim olunması nəzərdə tutulan illik maliyyə hesabatlarını Mərkəzi Banka təqdim edir.

9-7.4. Hesabatın forması Mərkəzi Bank tərəfindən müəyyən edilir.

9-7.5. Azad hesabatlı vençur kapitalı fondu investisiya strategiyası, risklər, xərclər və kapital itkisi ehtimalı barədə investorları yazılı şəkildə məlumatlandırmalı və onlardan bu riskləri qəbul etdiklərinə dair yazılı təsdiq almalıdır. İnvestorlara təqdim edilən bütün təklif sənədlərində və marketinq materiallarında fondun fəaliyyət rejimi, o cümlədən azad hesabatlı vençur kapitalı fondunun lisenziyalaşdırılmamış statusu barədə investorlara aydın şəkildə məlumat verilməlidir.

9-7.6. Azad hesabatlı vençur kapitalı fondu investorlarına aşağıdakı dövrilikdə və məzmunda hesabat təqdim etməlidir:

9-7.6.1. rüblük əsasda aktivlərin xalis dəyəri, idarəetməsində olan müəssisələrin vəziyyəti və idarəetmə xərcləri barədə hesabat;

9-7.6.2. illik əsasda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış və kənar auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatları və idarə edilən aktivlərin həcmi barədə məlumat.

**Maddə 9-8. Azad hesabatlı vençur kapitalı fonduna dair nəzarət mexanizmləri**

9-8.1. Mərkəzi Bankın azad hesabatlı vençur kapitalı fondu üzərində nəzarəti bu Qanunun 9-7-ci maddəsinə əsasən təqdim edilən illik hesabatların monitorinqi vasitəsilə həyata keçirilir.

9-8.2. Mərkəzi Bank azad hesabatlı vençur kapitalı fondunda və ya onun idarəçisində yalnız aşağıdakı hallarda "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlama apara bilər:

9-8.2.1. fondun azad hesabatlı vençur kapitalı fondu meyarlarını pozduğuna dair əsaslı şübhələr olduqda;

9-8.2.2. fondun fəaliyyətində investorların və digər üçüncü şəxslərin hüquqlarının pozulması barədə şikayət və ya məlumat daxil olduqda.

**Maddə 9-9. Akkreditə olunmuş investor statusunun yoxlanılması qaydaları**

9-9.1. Vençur kapitalı fondu, investorun akkreditə olunmuş investor statusunu müəyyən etmək üçün onun tərəfindən imzalanmış yazılı bəyannaməyə əsaslana bilər. Bəyannamədə investorun bu Qanunun 1.1.7-3-cü maddəsindəki hansı meyara (meyarlara) cavab verdiyi göstərilməlidir. Fondun bu bəyanatın yanlış olduğuna dair faktiki məlumatı olduqda, investorun ona əsaslanmasına yol verilmir.

9-9.2. Vençur kapitalı fondu investorların akkreditə olunmuş investor statusunu yoxlamaq üçün investorlar tərəfindən aşağıdakı sənədlərdən azı biri təqdim edilir:

9-9.2.1. fiziki şəxslərin gəlirlərini və ya xalis aktivlərini təsdiq edən rəsmi sənədlər (vergi bəyannamələri, bank (depozitar) çıxarışları, əmlak qiymətləndirmə hesabatları);

9-9.2.2. hüquqi şəxslərin audit yoxlamasından keçmiş maliyyə hesabatları;

9-9.2.3. investorun akkreditə olunmuş investor statusunu göstərən auditor rəyi.

9-9.3. Akkreditə olunmuş investor statusunun yoxlanılmasına dair sənədlər fond tərəfindən azı 5 il müddətində saxlanılmalıdır.

9-9.4. Fəaliyyətlərin dəstəklənməsi və əlaqələndirilməsi, habelə ümumi mənafelərinin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən müəssisə, idarə və təşkilatlarda, dövlət orqanlarında (qurumlarında), beynəlxalq təşkilatlarda) məqsədilə akkreditə olunmuş investor statusuna malik şəxslər qeyri-kommersiya hüquqi şəxsi formasında (akkreditə olunmuş investor birlikləri) birləşə bilər.

**Maddə 9-10. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun təşkili və fəaliyyəti**

9-10.1. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondu azı üç hüquqi və (və ya) fiziki şəxs tərəfindən yaradılır.

9-10.2. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun təsisçilərinin (iştirakçılarının) ümumi sayı əllidən çox ola bilməz.

9-10.3. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondu bu Qanunun 9-2-ci və 9-3-cü maddələrinə uyğun olaraq azad hesabatlı vençur kapitalı fondu və ya lisenziyalaşdırılan vençur kapitalı fondu rejimində fəaliyyət göstərə bilər.

9-10.4. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun iştirakçıları (səhmdarları) onun öhdəlikləri üçün cavabdeh deyildirlər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.

**Maddə 9-11. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunda idarəetmə**

9-11.1. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107.1-ci maddəsi ilə nəzərdə tutulmuş səlahiyyətlərdən əlavə aşağıdakılar aiddir:

9-11.1.1. idarəçinin və ya depozitarın dəyişdirilməsi barədə qərarın qəbul edilməsi;

9-11.1.2. fondun xərclərinin artırılması barədə qərarın qəbul edilməsi.

9-11.2. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun səhmdarlarının ümumi yığıncağında iştirak etmək hüququna malik olan şəxslərin siyahısı vençur kapitalı fondunun səhmdarlarının reyestri əsasında müəyyənləşdirilir. Həmin siyahı səhmdarların ümumi yığıncağının keçirilməsi tarixinədək 60 gündən gec və 45 gündən tez olmayan müddətdə tərtib edilməlidir.

9-11.3. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun səhmdarların ümumi yığıncağının çağırılmasına azı 45 gün qalmış bu barədə məlumat verilməli, habelə tərtib edilmiş siyahı əsasında səhmdarlara, idarəçiyə, depozitara, həmçinin lisenziyalaşdırılan vençur kapitalı fondu tərəfindən Mərkəzi Banka yazılı bildiriş göndərilməlidir.

9-11.4. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondu ilə müvafiq müqavilələr bağlamış idarəçinin, depozitarın, auditorun və qiymətləndiricinin əməkdaşları, habelə onlara aidiyyəti olan şəxslər vençur kapitalı fondunun icra orqanının üzvü ola bilməzlər.

9-11.5. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun idarəetmə orqanlarının səlahiyyətləri, onların qərarları qəbul etmə prosedurları, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul edildiyi məsələlər səhmdar cəmiyyətlərə dair müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

9-11.6. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun icra orqanının üzvlərinin şəxsi marağı ilə vençur kapitalı fondunun maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda məlumat verilməsi, habelə vençur kapitalı fondunun maraqlarına zidd olan əqdlərin bağlanması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinin tələblərinə uyğun olaraq həyata keçirilir.

**Maddə 9-12. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi**

9-12.1. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi fondun təsis yığıncağının qərarı ilə, fond yaradıldıqdan sonra isə səhmdarların ümumi yığıncağının qərarı ilə qəbul edilir.

9-12.2. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsində aşağıdakılar göstərilir:

9-12.2.1. vençur kapitalı fondunun, idarəçinin (olduqda), depozitarın və auditorun tam adı və yerləşdiyi ünvan;

9-12.2.2. qiymətləndiricinin və ya qiymətləndirici təşkilatın (olduqda) tam adı, fəaliyyət və ya hüquqi ünvanları;

9-12.2.3. vençur kapitalı fondunun investisiya strategiyası, şərtləri, istiqamətləri və sahələri haqqında məlumat;

9-12.2.4. vençur kapitalı fondunun aktivlərinin diversifikasiyası şərtləri;

9-12.2.5. investisiyaların həyata keçirilməsi ilə bağlı risklər;

9-12.2.6. investisiya fəaliyyətinə dair məhdudiyyətlər;

9-12.2.7. fondun aktivləri hesabına idarəçiyə, depozitara və digər şəxslərə ödəniləcək mükafatların, xərclərin və xidmət haqlarının hesablanma qaydaları və maksimum həcmi;

9-12.2.8. dividendlərin ödənilməsi qaydası;

9-12.2.9. vençur kapitalı fondundan və səhmdarlardan qanunla nəzərdə tutulmuş vergilər və onların ödənilməsi qaydası barədə məlumat;

9-12.2.10. vençur kapitalı fondunun fəaliyyətinə dair məlumatların açıqlanması qaydaları;

9-12.2.11. vençur kapitalı fondunun müddəti və investisiyalardan çıxış strategiyası;

9-12.2.12. investisiya bəyannaməsinə əlavə və dəyişikliklərin edilmə proseduru və investorların məlumatlandırılması qaydası;

9-12.2.13. investisiya portfelinə dair tərtib olunan hesabatın əsas valyutası;

9-12.2.14. bu Qanunun 9-1.10-cu maddəsində göstərilən məlumatlar.

9-12.3. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan lisenziyalaşdırılan vençur kapitalı fondunun investisiya bəyannaməsi onun səhm buraxılışı ilə birgə dövlət qeydiyyatına alınır. Səhm buraxılışının dövlət qeydiyyatı "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir. Azad hesabatlı vençur kapitalı fondunun investisiya bəyannaməsi isə fondun reyestrdə qeydə alınması zamanı Mərkəzi Banka təqdim edilir.

9-12.4. Qapalı səhmdar cəmiyyəti formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi hər bir potensial investora təqdim edilməlidir.

**Maddə 9-13. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun təşkili və fəaliyyəti**

9-13.1. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondu bu Qanunun 9-2-ci və 9-3-cü maddələrinə uyğun olaraq azad hesabatlı vençur kapitalı fondu və ya lisenziyalaşdırılan vençur kapitalı fondu rejimində fəaliyyət göstərə bilər.

9-13.2. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortaqları istisna olmaqla, digər ortaqlar (kommanditçi) fondun öhdəlikləri üzrə məsuliyyət daşımır və fondun fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar.

**Maddə 9-14. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunda idarəetmə**

9-14.1. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunda idarəetmə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun həyata keçirilir.

9-14.2. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondu ilə müvafiq müqavilələr bağlamış idarəçi, depozitar, auditor və qiymətləndirici, habelə onlara aidiyyəti olan şəxslər və onların nümayəndələri fondun iştirakçısı ola bilməz.

**Maddə 9-15. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi**

9-15.1. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi fondun tam ortaqlarının qərarı ilə qəbul edilir.

9-15.2. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsində aşağıdakılar göstərilir:

9-15.2.1. vençur kapitalı fondunun və idarəçinin (olduqda) tam adı və yerləşdiyi ünvan;

9-15.2.2. qiymətləndiricinin və ya qiymətləndirici təşkilatın (olduqda) tam adı, fəaliyyəti və hüquqi ünvanları;

9-15.2.3. fondun investisiya strategiyası, şərtləri, istiqamətləri və sahələri haqqında məlumat;

9-15.2.4. fondun aktivlərinin diversifikasiyası şərtləri;

9-15.2.5. investisiyaların həyata keçirilməsi ilə bağlı risklər;

9-15.2.6. investisiya fəaliyyətinə dair məhdudiyyətlər;

9-15.2.7. fondun aktivləri hesabına idarəçiyə digər şəxslərə ödəniləcək mükafatların, xərclərin və xidmət haqlarının hesablanma qaydaları və maksimum həcmi;

9-15.2.8. mənfəət və zərərin bölüşdürülməsi qaydası;

9-15.2.9. vençur kapitalı fondundan və iştirakçılardan qanunvericiliklə nəzərdə tutulmuş vergilər və onların ödənilməsi qaydası barədə məlumat;

9-15.2.10. fondun fəaliyyətinə dair məlumatların açıqlanması qaydaları;

9-15.2.11. vençur kapitalı fondunun müddəti və investisiyalardan çıxış strategiyası;

9-15.2.12. investisiya bəyannaməsinə əlavə və dəyişikliklərin edilmə proseduru və investorların məlumatlandırılması qaydası;

9-15.2.13. investisiya portfelinə dair tərtib olunan hesabatın əsas valyutası;

9-15.2.14. bu Qanunun 9-1.10-cu maddəsində göstərilən məlumatlar.

9-15.3. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsinin təsdiq edilməsi barədə qərar fondun tam ortaqları tərəfindən qəbul edildikdən sonra 5 iş günü ərzində Mərkəzi Banka təqdim edilir. Mərkəzi Bank investisiya bəyannaməsini 10 iş günü ərzində qeydiyyata alır.

9-15.4. Kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi ictimaiyyətə açıqlanmır (dərc edilmir), lakin bütün iştirakçılara təqdim edilməlidir.

**Maddə 9-16. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondunun təşkili və fəaliyyəti**

9-16.1. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu yalnız azad hesabatlı vençur kapitalı fondu rejimində fəaliyyət göstərə bilər.

9-16.2. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan azad hesabatlı vençur kapitalı fondunun nizamnamə kapitalı iştirakçıların bəyan etdiyi ödənilməmiş kapital öhdəliyi prinsipi əsasında formalaşdırıla bilər. İştirakçılar nizamnamə kapitalındakı paylarını (kapital öhdəliyini) fondun nizamnaməsində və ya investisiya bəyannaməsində müəyyən edilmiş investisiya dövrü ərzində, vençur kapitalı fondunun və ya onun idarəçisinin yazılı tələbi əsasında, tələbdə göstərilən və 30 (otuz) iş günündən çox olmayan müddətdə ödəyirlər. İnvestisiya dövrü başa çatdıqda iştirakçıların tələb olunmamış və ödənilməmiş kapital öhdəliklərinə xitam verilir və fondun nizamnamə kapitalı faktiki ödənilmiş məbləğə qədər azaldılır.

9-16.3. İştirakçı kapital öhdəliyini yazılı tələbdə müəyyən edilmiş müddətdə icra etmədikdə, fondun nizamnaməsində və ya təsis sənədlərində nəzərdə tutulmuş qaydada həmin iştirakçıya qarşı aşağıdakı tədbirlərdən biri və ya bir neçəsi tətbiq edilə bilər:

9-16.3.1. ödənilməmiş məbləğə münasibətdə cərimələrin və ya dəbbə pulunun hesablanması;

9-16.3.2. fondun idarə edilməsində səsvermə hüququnun və fondun mənfəətindən (gəlirindən) pay almaq hüququnun məhdudlaşdırılması və ya dayandırılması;

9-16.3.3. iştirakçının fonddakı ödənilməmiş pay hissəsinin və ya əvvəllər ödəmiş olduğu məbləğlərin məcburi qaydada fondun digər iştirakçılarına, yaxud üçüncü şəxslərə (peşəkar investorlara) satılması.

9-16.4. Fondun iştirakçılarının sayı əllidən çox ola bilməz.

9-16.5. İştirakçılar fondun öhdəlikləri üzrə məsuliyyət daşımır və fondun fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar.

9-16.6. Fondun fəaliyyət müddəti ərzində iştirakçının cəmiyyətdən çıxmaq və payının dəyərini tələb etmək hüququ nizamnamə ilə məhdudlaşdırıla bilər.

9-16.7. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu azı iki iştirakçı tərəfindən yaradılır.

**Maddə 9-17. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondunda idarəetmə**

9-17.1. Fondun ali idarəetmə orqanı iştirakçıların ümumi yığıncağıdır. Ümumi yığıncağın səlahiyyətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.3-cü maddəsinə uyğun olaraq müəyyən edilir. Ümumi yığıncaq, o cümlədən fondun idarəçisinin (icra orqanının və ya kənar idarəçinin) təyini və azad edilməsi məsələlərini həll edir.

9-17.2. Fondun cari fəaliyyətinə rəhbərlik təkbaşına icra orqanı (direktor) və ya kollegial icra orqanı tərəfindən həyata keçirilir. Fondun idarə edilməsi müqavilə əsasında kənar idarəçiyə verilə bilər.

9-17.3. Təsis sənədlərində nəzərdə tutulduğu halda fondun mənfəəti və zərəri iştirakçılar arasında onların nizamnamə kapitalındakı paylarına mütənasib olmayan qaydada bölüşdürülə bilər.

**Maddə 9-18. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsi**

9-18.1. İnvestisiya bəyannaməsi iştirakçıların ümumi yığıncağının qərarı ilə qəbul edilir.

9-18.2. Məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondunun investisiya bəyannaməsində bu Qanunun 9-12.2-ci maddəsində qeyd edilən məlumatlar göstərilir.

9-18.3. İnvestisiya bəyannaməsi ictimaiyyətə açıqlanmır (dərc edilmir), lakin fondun reyestrdə qeydə alınması zamanı Mərkəzi Banka və hər bir investora təqdim edilməlidir.";

4.4. aşağıdakı məzmunda 10.8-ci, 13.2-1-ci və 14.1.1-1-ci maddələr əlavə edilsin:

"10.8. Vençur kapitalı fondu kimi fəaliyyət göstərən qapalı paylı investisiya fondunun pay mülkiyyətçilərinin (peşəkar investorlarının) ümumi sayı yüzdən çox ola bilməz.";

"13.2-1. Vençur kapitalı fondu fəaliyyəti ilə məşğul olan qapalı paylı investisiya fondunun idarə edilməsi qaydalarında bu Qanunun 13.2-ci maddəsində qeyd olunan məlumatlardan əlavə idarəçinin peşəkar investorlardan cəlb edilən pul vəsaitlərinin bu Qanunun 9-1.3-cü maddəsində nəzərdə tutulan məqsədlərə və Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydada investisiya qiymətli kağızlarına investisiya edəcəyi ilə bağlı şərt əlavə edilməlidir.";

"14.1.1-1. vençur kapitalı fondu fəaliyyəti ilə məşğul olan qapalı paylı investisiya fondunun peşəkar investorlardan cəlb edilən pul vəsaitlərinin bu Qanunun 9-1.3-cü maddəsində nəzərdə tutulan məqsədlərə və Mərkəzi Bank tərəfindən müəyyən edilmiş qaydada investisiya qiymətli kağızlarına investisiya edilməsi haqqında məlumat;";

4.5. 24-cü maddə üzrə:

4.5.1. 24.2-ci maddənin birinci cümləsinə "İdarəçi" sözündən sonra "(investisiya şirkətləri istisna olmaqla)" sözləri əlavə edilsin;

4.5.2. aşağıdakı məzmunda 24.13-cü maddə əlavə edilsin:

"24.13. Vençur kapitalı fondları müvafiq olaraq məhdud məsuliyyətli cəmiyyətinin və ya qapalı səhmdar cəmiyyətinin icra orqanı və ya kommandit ortaqlığının tam ortağı (ortaqları) tərəfindən idarə olunduğu halda kənar idarəçi cəlb etməyə bilər.";

4.6. 25.11.5-ci maddənin birinci abzasına və 25.11.6-cı maddəyə "idarəçi" sözündən sonra ", kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.7. 27-ci maddə üzrə:

4.7.1. 27.1.1-ci və 27.2.4-cü maddələrə "üzvü" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.7.2. 27.2.5-ci maddəyə "yığıncağının" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.7.3. 27.2.5-1-ci maddəyə "orqanı" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.7.4. 27.2.9-cu maddəyə "üzvləri" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.8. aşağıdakı məzmunda 29.1-1-ci maddə əlavə edilsin:

"29.1-1. Vençur kapitalı fondunun aktivləri pul vəsaitlərindən, hüquqi şəxslərin nizamnamə (şərikli) kapitalında iştirak paylarından (səhmlərindən), investisiya qiymətli kağızlardan və portfel şirkətlərinə verilən borclardan, gələcəkdə kapitala çevrilmə hüququ verən borc alətlərindən, digər investisiya fondlarında (o cümlədən vençur fondlarında) iştirak paylarından, habelə investisiya strategiyasına uyğun olaraq digər maliyyə aktivlərindən və digər maliyyə alətlərindən ibarət ola bilər. Vençur kapitalı fondunun aktivlərinin tərkibinə və strukturuna dair tələblər Mərkəzi Bank tərəfindən qəbul olunmuş normativ xarakterli aktlarla müəyyən edilir.";

4.9. 30.2-ci maddəyə "edilməsini" sözündən sonra ", vençur kapitalı fondları həmçinin maliyyə hesabatlarının təqdim və dərc edilməsini" sözləri əlavə edilsin;

4.10. 36-cı maddə üzrə:

4.10.1. aşağıdakı məzmunda 36.1.9-1-ci və 36.1.9-2-ci maddələr əlavə edilsin:

"36.1.9-1. vençur kapitalı fondunun idarəçi tərəfindən idarə edilməsi nəzərdə tutulduqda vençur kapitalı fondunun idarə edilməsini həyata keçirəcək idarəçi barədə məlumat;

36.1.9-2. vençur kapitalı fondunun öz idarəetmə orqanları tərəfindən idarə olunması nəzərdə tutulduqda həmin idarəetmə orqanları barədə məlumat;";

4.10.2. 36.1.13-cü maddəyə "əməkdaşlarının" sözündən sonra "(vençur kapitalı fondlarında baş mühasib (bu vəzifələri icra edən şəxs mövcud olduqda)" sözləri əlavə edilsin;

4.10.3. 36.1.15-ci maddədə "səhmdarları" sözü "iştirakçıları" sözü ilə əvəz edilsin;

4.11. 38.2.1-ci maddəyə "fondunun" sözündən sonra "və bu Qanunun 24.13-cü maddəsində göstərilən hal istisna olmaqla vençur kapitalı fondunun" sözləri əlavə edilsin;

4.12. 40-cı maddə üzrə:

4.12.1. 40.2-ci maddəyə "üzvü" sözündən sonra ", habelə kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.12.2. 40.4-cü maddəyə "barəsində" sözündən sonra ", habelə kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortaq (ortaqlar) müəyyən olunduqda və dəyişdirildikdə" sözləri əlavə edilsin;

4.12.3. 40.4-2-ci maddədə "verməlidir" sözü "verməli, habelə kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağının (ortaqlarının) işlərin aparılması səlahiyyətinə xitam verməlidir" sözləri ilə əvəz edilsin;

4.13. 41-ci maddə üzrə:

4.13.1. 41.1.1-ci maddəyə "orqanının" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağının (ortaqlarının)" sözləri əlavə edilsin;

4.13.2. aşağıdakı məzmunda 41.1.1-1-ci maddə əlavə edilsin:

"41.1.1-1. idarəçi tərəfindən idarə olunan vençur kapitalı fondunun idarəçisi tərəfindən vençur kapitalı fondunun bütün səhmləri və ya payları satın alındıqda;";

4.13.3. 41.3-cü maddənin ikinci cümləsinə "fondu" sözündən sonra "və bu Qanunun 24.13-cü maddəsinin tələbi nəzərə alınmaqla vençur kapitalı fondu" sözləri əlavə edilsin;

4.14. 45-ci maddə üzrə:

4.14.1. 45.2.1-ci maddədə, 45.3-cü maddənin birinci cümləsində və 45.8-ci maddədə ismin müvafiq hallarında "yığıncağı" sözündən sonra ismin müvafiq hallarında "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.14.2. 45.9-cu maddəyə "orqanına" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağına (ortaqlarına)" sözləri əlavə edilsin;

4.14.3. 45.14-cü maddənin ikinci cümləsinə "səhmdarlar" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.15. 46-cı maddə üzrə:

4.15.1. 46.4-cü maddənin birinci cümləsinə "yığıncağının" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun tam ortağının (ortaqlarının)" sözləri əlavə edilsin;

4.15.2. 46.16-cı maddəyə "orqanına" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağına (ortaqlarına)" sözləri əlavə edilsin;

4.15.3. 46.17.2-ci maddəyə "səhmdarlarının" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun iştirakçılarının)" sözləri əlavə edilsin;

4.16. 46.25-ci maddənin üçüncü cümləsinə "səhmdarlar" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun iştirakçıları)" sözləri əlavə edilsin;

4.17. 48-ci maddə üzrə:

4.17.1. 48.1.4-cü maddəyə "mülkiyyətçilərinin" sözündən sonra "(səhmdarlarının)" sözü əlavə edilsin;

4.17.2. 48.1.6-cı maddəyə "üzvləri" sözündən sonra "(kommandit ortaqlığı formasında yaradılan vençur kapitalı fondunun işlərini aparan tam ortağı (ortaqları)" sözləri əlavə edilsin;

4.17.3. 48.4-cü maddənin birinci cümləsinə "fondları" sözündən sonra "(vençur kapitalı fondları istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 5.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 613) aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 1.0.7-1-ci maddə əlavə edilsin:

"1.0.7-1. **peşəkar investor** - institusional investorlar da daxil olmaqla Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən olunan tələblərə cavab verən hüquqi və fiziki şəxslər;";

5.2. 5.5.5-ci maddədə "institusional" sözü "peşəkar" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 15-ci, 17-ci, 20-ci, 26-cı və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744, № 11, maddə 1004; 2026, № 1, maddə 2, № 3, maddə 208; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 91-2.4-cü maddənin birinci cümləsində "Cəmiyyətin" sözü "Qanunla başqa hal nəzərdə tutulmamışdırsa, cəmiyyətin " sözləri ilə əvəz edilsin;

1.2. 107.4-cü maddənin dördüncü cümləsində "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında" sözləri "Qanunda" sözü ilə əvəz edilsin;

**Maddə 2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; 2026, № 1, maddələr 16, 19, № 3, maddə 211; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 386-VIIQD nömrəli və 387-VIIQD nömrəli, 27 aprel tarixli 395-VIIQD nömrəli qanunları) 271-ci maddəsinin "Qeyd" hissəsinin 3-cü bəndinə "şəxslər" sözündən sonra ", kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab) maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddələr 11, 14, 15, 16, 21; № 2, maddə 111; Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 396-VIIQD nömrəli və 26 may tarixli 413-VIIQD nömrəli qanunları) 30.6.7-1-ci maddəsinə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", "Kraudfandinq haqqında" sözləri əlavə edilsin.

**Maddə 4.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741; 2026, № 1, maddələr 18, 19, № 3, maddələr 202, 212; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli və 12 iyun tarixli 423-VIIQD nömrəli qanunları) aşağıdakı məzmunda 416-1-ci maddə əlavə edilsin:

**"Maddə 416-1. Kraudfandinq haqqında qanunvericiliyin pozulması**

416-1.1. Kraudfandinq platformasının operatoru tərəfindən açıqlanmalı və ya dərc edilməli olan məlumatların açıqlanmamasına və ya dərc edilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

416-1.2. Kraudfandinq platformasının operatoru tərəfindən fəaliyyətinə dair hesabatların Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilməsindən yayınmağa və ya imtina edilməsinə, yaxud təhrif edilmiş məlumatın verilməsinə və ya onların təqdim edilməsi müddətinin pozulmasına görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

416-1.3. Kraudfandinq platformasının operatoru tərəfindən platformanın idarə edilməsi ilə əlaqədar saxlanılmalı məlumatların və sənədlərin saxlanılması qaydalarının pozulmasına görə -

vəzifəli şəxslər beş yüz manatdan altı yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

416-1.4. Kraudfandinq sahəsində kraudfandinq platformasının operatoru tərəfindən pul vəsaitlərinin idarə olunması qaydalarının pozulmasına görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

416-1.5. Kraudfandinq sahəsində kraudfandinq platformasının operatoru tərəfindən kraudfandinq kampaniyasının keçirilməsi qaydalarının pozulmasına görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 5.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab) maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 2.0.8-4-cü və 21-1-ci maddələr əlavə edilsin:

"2.0.8-4. hüquqi şəxslərin kraudfandinq platformasının idarə edilməsi fəaliyyəti üzrə Azərbaycan Respublikası Mərkəzi Bankının reyestrinə daxil edilməsi;";

**"Maddə 21-1. Hüquqi şəxslərin kraudfandinq platformasının idarə edilməsi fəaliyyəti üzrə Azərbaycan Respublikası Mərkəzi Bankının reyestrinə daxil edilməsi üçün dövlət rüsumunun dərəcəsi**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| Hüquqi şəxslərin kraudfandinq platformasının idarə edilməsi fəaliyyəti üzrə Azərbaycan Respublikası Mərkəzi Bankının reyestrinə daxil edilməsi | 2750 manat |

**Maddə 6.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8 (Cild I); 2024, № 7, maddə 743, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 609, № 8, maddə 741; 2026, № 2, maddə 103; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 15.9.3-1-ci maddəsinə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", "Kraudfandinq haqqında" sözləri əlavə edilsin.

**Maddə 7.** "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984 (Cild I); 2024, № 2, maddə 138) 46-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 46.1-ci maddəyə birinci halda "şəxslər" sözündən sonra ", kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin;

7.2. 46.2-ci maddəyə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", "Kraudfandinq haqqında" sözləri əlavə edilsin.

**Maddə 8.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 613) aşağıdakı dəyişikliklər edilsin:

8.1. aşağıdakı məzmunda 2.5-ci maddə əlavə edilsin:

"2.5. Kraudfandinq çərçivəsində qiymətli kağızların emissiyası, kütləvi təklifi və yerləşdirilməsi "Kraudfandinq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.";

8.2. 5.6.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.6.8-ci maddə əlavə edilsin:

"5.6.8. investisiya qiymətli kağızları "Kraudfandinq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kraudfandinq platforması vasitəsilə təklif edildikdə.";

8.3. 6-cı maddə üzrə:

8.3.1. 6.3.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.3.6-1-ci maddə əlavə edilsin:

"6.3.6-1. istiqrazların borc əsaslı kraudfandinq məqsədilə buraxılışı zamanı emitentin "Kraudfandinq haqqında" Azərbaycan Respublikası Qanununun 9.3.1.8-ci və 9.3.1.9-cu maddələrində tələb olunan məlumatları və sənədləri.";

8.3.2. 6.3-2-ci maddədə "və 6.3.6-cı" sözləri ", 6.3.6-cı və 6.3.6-1-ci" sözləri ilə əvəz edilsin;

8.4. 8-ci maddə üzrə:

8.4.1. 8.6-cı maddəyə birinci halda "dövlət" sözündən əvvəl "kütləvi təklifi kraudfandinq platforması vasitəsilə həyata keçirilən investisiya qiymətli kağızları," sözləri əlavə edilsin;

8.4.2. 8.13-cü maddənin birinci abzasının birinci cümləsinə "banklarda" sözündən sonra "("Kraudfandinq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hal istisna olmaqla)" sözləri əlavə edilsin;

8.5. 15.2-ci maddənin birinci cümləsinə "idarəçiləri" sözündən sonra ", habelə kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin;

8.6. 16.6-cı maddənin dördüncü cümləsinə "birjasının" sözündən sonra ", kraudfandinq platformasının operatorunun" sözləri əlavə edilsin;

8.7. 17.2-1.1-ci maddəyə "saxlayıcılar" sözündən sonra ", habelə kraudfandinq platformasının operatoru" sözləri əlavə edilsin;

8.8.19-cu maddə üzrə:

8.8.1. 19.1-ci maddəyə "banklar" sözündən sonra ", kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin;

8.8.2. 19.2-ci maddəyə "idarəçisinin" sözündən sonra ", habelə kraudfandinq platformasının operatorunun" sözləri əlavə edilsin;

8.9. 44.2-ci maddəyə "ticarəti" sözündən sonra ", kütləvi təklifi kraudfandinq platforması vasitəsilə həyata keçirilən investisiya qiymətli kağızları istisna olmaqla," sözləri əlavə edilsin;

8.10. 50.4-cü maddəyə "banklar" sözündən sonra ", habelə kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin;

8.11. 53.1-ci maddənin birinci cümləsinə "idarəçisinin" sözündən sonra ", habelə kraudfandinq platformasının operatorunun" sözləri, "idarəçini" sözündən sonra ", operatoru" sözü əlavə edilsin;

8.12. 56.1-ci maddəyə "bankların"sözlərindən sonra ", habelə kraudfandinq platformasının operatorunun" sözləri əlavə edilsin;

8.13. 58.2-ci maddəyə "bank" sözündən sonra ", habelə kraudfandinq platformasının operatoru" sözləri əlavə edilsin;

8.14. 61.7-ci maddəyə "bankların," sözündən sonra "kraudfandinq platformasının operatorunun," sözləri əlavə edilsin.

**Maddə 9.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; 2025, № 1, maddə 16, № 3, maddə 215, № 4 (I kitab), maddə 314, № 5, maddə 433, № 6, maddə 524, № 7, maddə 626, № 8, maddə 733; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 3.4-cü maddəsinə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", "Kraudfandinq haqqında" sözləri əlavə edilsin.

**Maddə 10.** "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053 (Cild I); 2024, № 12 (II kitab), maddə 1347; 2025, № 1, maddə 6, № 5, maddə 440, № 8, maddə 743, № 10, maddə 895, № 12 (I kitab), maddə 1118; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 3.4.2-ci maddəsinə "Sığorta fəaliyyəti haqqında" sözlərindən sonra ", Kraudfandinq haqqında" sözləri əlavə edilsin.

**Maddə 11.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 37 (Cild I); 2025, № 5, maddə 432, № 7, maddələr 625, 626; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.1.8-ci maddəyə "depozitar" sözündən sonra ", kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin;

11.2. 17-ci maddə üzrə:

11.2.1. 17.2.3-cü və 17.5-ci maddələrə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", Kraudfandinq haqqında" sözləri əlavə edilsin;

11.2.2. "Qeyd" hissəsinə "Qiymətli kağızlar bazarı haqqında" sözlərindən sonra ", "Kraudfandinq haqqında" sözləri əlavə edilsin.

**Maddə 12.** "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1134 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432) 3.2.7-ci maddəsinə "şəxslər" sözündən sonra ", kraudfandinq platformalarının operatorları" sözləri əlavə edilsin.

**Maddə 13.** Bu Qanun "Kraudfandinq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 450-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 238** **Bakı şəhəri, 27 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 iyun tarixli 702 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci iI 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12, (I kitab), maddə 1326, (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294, № 7, maddə 707, № 9, maddə 854, № 12 (II kitab), maddə 1257; 2026, № 4, maddə 380; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı iI 15 may tarixli 149 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 2-ci hissəsinə aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"2-6/ Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Nəqliyyat vasitəsinin duracağa gətirilməsi və orada saxlanılması üçün ödənilmiş haqqın məbləğinin nəqliyyat vasitəsinin sahibinə qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 240** **Bakı şəhəri, 27 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 24 fevral tarixli 361-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 aprel tarixli 642 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Nəqliyyat vasitəsinin duracağa gətirilməsi və orada saxlanılması üçün ödənilmiş haqqın məbləğinin nəqliyyat vasitəsinin sahibinə qaytarılması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 dekabr tarixli 559 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 239** **Bakı şəhəri, 27 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 dekabr tarixli 559 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamənin və Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I); 2024, № 2, maddə 210, № 9, maddə 1090; 2025, № 2, maddə 180, № 9, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 may tarixli 132 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 1-ci hissəsinə "qoşqularının" sözündən sonra ", habelə mopedlərin" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə" üzrə:

1.2.1. adına və 1.1-ci bəndinə "qoşqularının" sözündən sonra ", habelə mopedlərin" sözləri əlavə edilsin;

1.2.2. 1.2-ci bəndin 1-ci yarımbəndinə "yarımqoşqularını" sözündən sonra ", habelə mopedləri" sözləri əlavə edilsin;

1.2.3. 1.3-cü bəndin ikinci abzasının ikinci cümləsinə "motosikl," sözündən sonra "moped," sözü əlavə edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və girov qoyulması Qaydası"nın 1.1-ci bəndinə "yarımqoşqularının" sözündən sonra ", habelə mopedlərin" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 210; 2025, № 2, maddə 196, № 9, maddə 858) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 1.1-ci bəndinin 1-ci yarımbəndinə "yarımqoşqularına" sözündən və 1.4-cü bəndinə "(yarımqoşqularına)" sözündən sonra ", habelə mopedlərə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; 2025, № 2, maddə 180, № 3, maddə 282, № 5, maddə 507, № 9, maddə 858) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3-cü bəndin 1-ci yarımbəndinə (birinci halda) "mühərrikinin" sözündən əvvəl "mopedləri, habelə elektrik mühərriki olan və ya" sözləri əlavə edilsin;

3.2. 1.5-ci bəndin 2-ci yarımbəndindən ", mopedi" sözü çıxarılsın;

3.3. 3.2-ci bənd üzrə:

3.3.1. birinci abzasda "Mexaniki nəqliyyat" sözləri "Nəqliyyat" sözü ilə əvəz edilsin;

3.3.2. ikinci abzasa "motosikletləri," sözündən sonra "mopedləri," sözü əlavə edilsin;

3.4. Əsasnaməyə 4 nömrəli əlavə - "Təcrübi imtahanın keçirilmə Metodikası" üzrə:

3.4.1. 5-ci hissənin adına "MOTOSİKLETDƏ" sözündən sonra "VƏ MOPEDDƏ" sözləri əlavə edilsin;

3.4.2. 5.1-ci bəndə "motosikletdə," sözündən sonra "mopedlərdə," sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 267, (Cild I); 2025, № 1, maddə 88; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 dekabr tarixli 519 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Yol hərəkətinin təhlükəsizliyi göstəricilərinin siyahısı, uçot və hesabat Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-ci bəndə "qoşqularının" sözündən sonra ", habelə mopedlərin" sözləri əlavə edilsin;

4.2. 3.6.1-ci yarımbənddə "vasitəsi ilə" sözləri "vasitəsi, habelə mopedlərlə" sözləri ilə əvəz edilsin.

5. "Sürücülük vəsiqəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 aprel tarixli 145 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 742 (Cild I); 2024, № 3, maddə 328) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Sürücülük vəsiqəsinin təsviri"nin birinci abzasına və 1.1-ci bəndinə "Motosikletləri," sözündən sonra "mopedləri," sözü əlavə edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Sürücülük vəsiqəsinin spesifikasiyası"nın birinci abzasına və 1.1-ci bəndinə "Motosikletləri," sözündən sonra "mopedləri," sözü əlavə edilsin;

5.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Sürücülük vəsiqəsinin nümunəsi"nin birinci abzasına "Motosikletləri," sözündən sonra "mopedləri," sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Beynəlxalq münasibətlər sistemi kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu mərhələyə qədəm qoyub. Siyasi-hərbi qarşıdurmalar, qlobal təhlükəsizlik sistemindəki boşluqlar və iqtisadi böhranlar hər dövləti öz xarici siyasət strategiyasına yenidən baxmağa vadar edir. Belə qeyri-müəyyən şəraitdə Azərbaycan öz milli maraqlarına əsaslanan, beynəlxalq hüququn aliliyinə söykənən və qarşılıqlı hörmət prinsipini rəhbər tutan müstəqil xarici siyasət kursu ilə regionun ən etibarlı, dinamik və nüfuzlu dövlətlərindən birinə çevrilib.**



# Azərbaycanın uğurlu diplomatiya modeli

## Çoxvektorlu, müstəqil və prinsipial xarici siyasət kursu ölkəmizi regional və qlobal nizamın əsas aktorlarından birinə çevirib

Bu uğurlu geostrateji mövqeyin təməlində ölkəmizin illərdir ardıcıllıqla yürütdüyü çoxvektorlu, praqmatik və balanslaşdırılmış diplomatiya dayanır. 1993-cü ildən etibarən formalaşan və son illərdə daha da güclənən bu strateji xətt sayəsində Azərbaycan dünya siyasətinə istiqamət verən əsas güc mərkəzləri və müxtəlif regionlar ilə yüksəksəviyyəli münasibətlər, etibarlı tərəfdaşlıq və sıx əməkdaşlıq mexanizmləri qurmağa nail olub. Beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlik, suverenliyə hörmət və ikili standartlara qarşı qətiyyətli mövqe sərgiləmək Azərbaycanın xarici siyasətinin əsas prinsipləridir.

Azərbaycanın Qərb istiqamətindəki xarici siyasətində Avropa dövlətləri ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir. Avropa İttifaqının 10-dan çox üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayan ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Avropa ilə enerji tərəfdaşlığını bu gün keyfiyyətcə tamamilə yeni mərhələyə daşıyan Azərbaycan 10-u Avropa İttifaqının üzvü olmaqla, 12 Avropa dövlətinə təbii qaz ixrac edir. Bu geniş coğrafiya Bakının Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu aydın göstərir. Təbii qazla yanaşı, xam neft və Xəzərdən Avropaya çəkilən "yaşıl enerji" kabeli layihəsi də Azərbaycanı qitənin bərpaolunan enerji keçidində önəmli tərəfdaşa çevirir.

Son dönəmdə Amerika Birləşmiş Ştatları ilə münasibətlər də qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlıq müstəvisində dinamik inkişaf edir. Enerji təhlükəsizliyi, qlobal terrorizmə qarşı birgə mübarizə, regional nəqliyyat marşrutları və sülh təşəbbüsləri Vaşinqton-Bakı arasında strateji dialoqun əsasını təşkil edir. Bu münasibətlər Cənubi Qafqazda sabitliyin qorunması ilə yanaşı, qlobal təşəbbüslərin reallaşmasında mühüm rola malikdir.

Azərbaycan dünyanın nəhəng iqtisadi güclərindən biri olan Çin Xalq Respublikası ilə də əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə ilk dəstək verməklə, özünün modern logistik infrastrukturu ilə Çin və Avropa arasında yüklərin daşınmasında təhlükəsiz, etibarlı və qısa marşrutu təmin edir.

Şərq-Qərb balansını tamamlayan mühüm geostrateji istiqamətlərdən biri də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində dərinləşən inteqrasiya və Mərkəzi Asiya regionu ilə qurulan yüksək münasibətlərdir. Mərkəzi Asiyanın zəngin resurslarının Azərbaycan üzərindən Avropaya daşınmasını nəzərdə tutan Orta dəhliz iki regionu vahid iqtisadi-logistik məkan kimi birləşdirir.

Azərbaycan xarici diplomatiyasını yalnız ənənəvi güc mərkəzləri ilə məhdudlaşdırmayıb, həm də Yaxın Şərq, Afrika və Latın Amerikası regionları ilə çoxtərəfli münasibətlərini genişləndirib. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvü kimi ərəb-islam dünyası ilə həmrəylik nümayiş etdirən Bakı eyni zamanda Qoşulmama Hərəkatına uğurlu sədrlik dövründə Afrika və Latın Amerikası dövlətləri ilə dərin diplomatik körpülər salıb, onların problemlərinin həllinə fəal dəstək verib.

Azərbaycanın milli maraqlara söykənən prinsipial diplomatik xətti xüsusilə Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə özünün ən yüksək zirvəsinə çatıb. Azərbaycanın hərbi sahədə qazandığı tarixi Zəfər paralel olaraq diplomatik müstəvidə də davam etdirilib. Postmünaqişə dövründə yaranmış yeni geosiyasi reallıqların beynəlxalq ictimaiyyətə çatdırılması diplomatiyamızın ən böyük uğuru olub.

Bununla bərabər, Azərbaycan postmünaqişə dövründə bəzi Qərb dövlətlərinin və beynəlxalq təşkilatların qərəzli, ikili standartlara söykənən təzyiqləri ilə üzləşib. Lakin dövlətimizin nümayiş etdirdiyi cəsarətli diplomatik müqavimət ölkəmizin suverenliyinə müdaxilə cəhdlərinin qarşısını qətiyyətlə alıb. Məhz bu prinsipial mövqe Azərbaycanı qlobal miqyasda daha böyük təşəbbüslərin müəllifinə çevirib. Qoşulmama Hərəkatına uğurlu sədrlik edən ölkəmiz BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətindən sonra "Qlobal Cənub"un əsas liderlərindən biri olub.

Hazırda Azərbaycan Fransanın dənizaşırı ərazilərdə yürütdüyü neokolonializm siyasətinə qarşı qlobal mübarizəyə (Bakı Təşəbbüs Qrupu) liderlik edir, iqlim dəyişikliyindən əziyyət çəkən kiçik ada dövlətlərinin səsinə çevrilir və bununla çoxtərəfli diplomatiyanın zirvəsində dayandığını sübut edir.

Təbii ki, Azərbaycanın beynəlxalq müstəvidə imza atdığı bütün tarixi uğurlar daxili sabitliyin, güclü iqtisadiyyatın və bunları təmin edən Prezident İlham Əliyevin uzaqgörən müstəqil xarici siyasət kursunun birmənalı nəticəsidir. Qlobal güc mərkəzləri və fərqli regionlar ilə bərabərhüquqlu və yüksəksəviyyəli əlaqələr quran Azərbaycan eyni zamanda milli suverenliyini hər şeydən üstün tutan prinsipial dövlətdir.

Bu gün "orta güc"ə çevrilən Azərbaycan regional və qlobal miqyasda gündəmi müəyyən edən geostrateji oyunçu kimi çıxış edir. Şərqlə Qərb, Şimalla Cənub arasında körpü rolunu daha da möhkəmləndirən ölkəmiz beynəlxalq əməkdaşlığa dəyər qatan təşəbbüslərin önündə gedir. Azərbaycanın yürütdüyü çoxvektorlu və müstəqil xarici siyasət kursu göstərir ki, güclü dövlət konsepsiyası həm də prinsipial diplomatiya və sarsılmaz siyasi iradə ilə şərtlənir. Postmünaqişə dövrünün yeni reallıqlarını beynəlxalq miqyasda qəbul etdirən Azərbaycan çoxqütblü dünya nizamında söz sahibi ölkələrdən birinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu uzaqgörən diplomatiya ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, Azərbaycanın milli maraqlarının gələcək onilliklərdə də etibarlı şəkildə qorunacağını tam təmin edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Regionun geoiqtisadi mənzərəsini dəyişən Azərbaycan-Mərkəzi Asiya formatı

**Bu gün Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında formalaşan yeni əməkdaşlıq modeli bütün dünya tərəfindən böyük diqqətlə izlənilir. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər göstərir ki, hazırda Azərbaycan-Mərkəzi Asiya formatı ikitərəfli münasibətlərin inkişafı ilə bərabər, həm də Avrasiya məkanında yeni geosiyasi və geoiqtisadi reallıqların formalaşmasına xidmət edən strateji platformaya çevrilməkdədir.**



Dövlətimizin başçısının məsələ ilə bağlı çıxışlarında vurğulanan əsas məqamlardan biri ondan ibarətdir ki, bu ölkələr arasında əlaqələr təsadüfi siyasi maraqlar üzərində deyil, əsrlərlə formalaşmış ortaq tarix, mədəniyyət, dil yaxınlığı və qarşılıqlı etimada əsaslanır. Məhz bu tarixi təməl yeni siyasi və iqtisadi əməkdaşlıq modelinin bünövrəsini təşkil edir. Beləliklə, ilk növbədə Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında əlaqələrin inkişafı ortaq maraqlara əsaslanır. Bu ölkələr bir-birini tamamlayan iqtisadi potensiala malikdir. Daha sonra Azərbaycan Xəzər regionunda mühüm nəqliyyat və enerji qovşağı kimi çıxış edir. Mərkəzi Asiya ölkələri üçün isə Azərbaycan üzərindən dünya bazarlarına çıxış imkanlarının genişlənməsi xüsusi əhəmiyyət daşıyır.

### Tarixi köklərə söykənən strateji tərəfdaşlıq

Azərbaycan və Mərkəzi Asiya xalqları minilliklər boyu eyni sivilizasiya məkanının tərkib hissəsi olmuşlar. Böyük İpək yolunun mühüm qovşaqlarında yerləşən bu ölkələr tarix boyu ticarət, elm, mədəniyyət və mənəvi dəyərlərin mübadiləsində əhəmiyyətli rol oynamışlar. Türk xalqlarının ortaq etnik və mədəni kökləri, dil yaxınlığı, oxşar adət-ənənələr və ortaq tarixi yaddaş bu münasibətlərin möhkəm bünövrəsini təşkil edir. Müstəqillik əldə etdikdən sonra isə bu tarixi bağlar yeni siyasi məzmun qazanaraq dövlətlərarası strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə münasibətlərini yalnız diplomatik əlaqələr kimi deyil, ortaq kimlik və qarşılıqlı etimada əsaslanan uzunmüddətli strateji əməkdaşlıq kimi qiymətləndirir. Son illər dövlət başçıları arasında intensiv qarşılıqlı səfərlər, imzalanan çoxsaylı sazişlər və reallaşdırılan birgə layihələr də bunun praktik təsdiqidir.

Dünyada baş verən geosiyasi dəyişikliklər, qlobal nəqliyyat marşrutlarının yenidən formalaşması və beynəlxalq ticarətdə alternativ dəhlizlərə artan maraq bu ölkələr arasında əməkdaşlığın strateji əhəmiyyətini daha da yüksəldir. Təbii ki, belə bir əməkdaşlıq təkcə region dövlətlərinin maraqlarına xidmət etmir. Azərbaycan-Mərkəzi Asiya formatı Avropa ilə Asiya arasında iqtisadi inteqrasiyanın sürətlənməsinə, yeni logistika marşrutlarının formalaşmasına və qlobal ticarətin təhlükəsizliyinin təmin olunmasına da mühüm töhfə verir.

Ölkəmiz artıq Xəzər dənizinin qərb sahilində mühüm logistika mərkəzinə çevrilib. Mərkəzi Asiya dövlətləri isə Xəzərin Şərq sahilindən Avropa bazarlarına çıxış üçün ən etibarlı tərəfdaşlardan biri kimi məhz Azərbaycana üstünlük verirlər. Bu qarşılıqlı maraqlar yeni regional əməkdaşlıq modelini daha da möhkəmləndirməkdədir.

Cənab İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda suallara verdiyi cavablarda diqqətçəkən mühüm məqamlardan biri də Azərbaycan və Mərkəzi Asiya ölkələrinin faktiki olaraq vahid iqtisadi və siyasi məkan yaratması barədə səsləndirdiyi fikirlər idi. Bu yanaşma heç də formal inteqrasiya layihəsi sayılmamalıdır. Son illər həyata keçirilən çoxsaylı nəqliyyat, enerji, rəqəmsallaşma və investisiya layihələri göstərir ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri artıq vahid iqtisadi zəncirin mühüm halqalarına çevrilirlər. Ticarət dövriyyəsinin artması, gömrük prosedurlarının sadələşdirilməsi, tranzit imkanlarının genişləndirilməsi, birgə investisiya fondlarının yaradılması və biznes mühitinin yaxınlaşdırılması bu prosesi sürətləndirən əsas amillərdəndir. Siyasi baxımdan da dövlətlərin beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyi, regional təhlükəsizlik məsələlərində oxşar mövqelər nümayiş etdirmələri və suverenlik prinsipinə sadiqlik vahid siyasi baxışın formalaşdığını göstərir.

### Türk Dövlətləri Təşkilatı inteqrasiyanın əsas platformasıdır

Azərbaycan və Mərkəzi Asiya əməkdaşlığından danışarkən Türk Dövlətləri Təşkilatının (TDT) rolu xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin çıxışlarında da bu təşkilatın region dövlətlərini bir araya gətirən əsas siyasi platformalardan biri olduğu aydın şəkildə hiss olunurdu.

Son illər Türk Dövlətləri Təşkilatı yalnız mədəni-humanitar əməkdaşlıq mexanizmi olmaqdan çıxaraq iqtisadi, nəqliyyat, enerji, rəqəmsal transformasiya, investisiya, müdafiə sənayesi və təhlükəsizlik sahələrində əməkdaşlığı təşviq edən nüfuzlu beynəlxalq quruma çevrilib. Azərbaycan bu təşkilatın inkişafına mühüm töhfə verən aparıcı dövlətlərdəndir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, türk dünyasının həmrəyliyi ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindəndir.

TDT çərçivəsində qəbul olunan qərarlar Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına, gömrük prosedurlarının uyğunlaşdırılmasına, rəqəmsal ticarətin genişləndirilməsinə və investisiya əməkdaşlığının güclənməsinə mühüm təkan verir. Bu baxımdan Azərbaycan-Mərkəzi Asiya formatı TDT-nin praktik fəaliyyətinin ən uğurlu xətlərindən biri kimi qiymətləndirilə bilər.

Prezident İlham Əliyevin Mərkəzi Asiya regionu üzrə həyata keçirdiyi siyasətdə, o cümlədən türk dünyasının birliyinə xidmət edən strateji qərarlarında Azərbaycan-Özbəkistan münasibətləri xüsusi yer tutur. Hər iki ölkə arasında əlaqələr son illər görünməmiş sürətlə inkişaf edərək strateji müttəfiqlik mərhələsinə yüksəlib. Azərbaycan və Özbəkistan prezidentləri arasında formalaşmış qarşılıqlı etimad münasibətləri iqtisadi, siyasi və humanitar əməkdaşlığın bütün istiqamətlərinə müsbət təsir göstərməkdədir. İki ölkə arasında sənaye kooperasiyası, avtomobil istehsalı, kənd təsərrüfatı, tekstil sənayesi, enerji, tikinti, logistika və investisiya sahələrində həyata keçirilən layihələr əməkdaşlığın real iqtisadi nəticələr verdiyini nümayiş etdirir.

Qarabağın bərpasında Özbəkistanın göstərdiyi dəstək də xüsusi əhəmiyyət daşıyır. Füzuli şəhərində Özbəkistanın inşa etdiyi məktəb kompleksi iki ölkə arasında dostluğun və qardaşlığın rəmzinə çevrilib. Bu layihə humanitar əməkdaşlığın siyasi münasibətləri daha da möhkəmləndirdiyini göstərən nümunələrdəndir. Azərbaycan və Özbəkistan həm də Türk Dövlətləri Təşkilatının inkişafı istiqamətində oxşar baxışlara malikdirlər. Hər iki ölkə təşkilatın institusional gücləndirilməsini, iqtisadi inteqrasiyanın dərinləşdirilməsini və nəqliyyat əlaqələrinin genişləndirilməsini prioritet hesab edir. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda bu məsələyə xüsusi münasibət bildirmişdi: "Bir çox iqtisadi-sənaye layihələri icra edilir. Həm Azərbaycan investisiyaları, həm Özbəkistan investisiyaları qoyulur. Biz 500 milyon dollar dəyərində birgə sərmayə fondu yaratdıq. Bu sərmayə fondu həm Özbəkistanda, həm Azərbaycanda müxtəlif layihələrin icrası ilə məşğuldur. Bu gün Azərbaycanın neft şirkəti SOCAR Özbəkistanda çox önəmli bir kəşfiyyat yatağına sərmayə qoyur və ümid edirəm ki, yaxın gələcəkdə bizə bir müjdə, xoş xəbər verəcəklər. Çünki bu gün enerji təhlükəsizliyi məsələləri, xüsusilə qaz təchizatı bir çox ölkələr üçün önəmlidir və ümid edirəm ki, "Üstyurt" yatağındakı kəşfiyyat işləri yaxşı nəticə ilə başa çatacaq".

### Nəqliyyat və logistika əməkdaşlığın əsas dayağıdır

Hazırda xüsusi vurğulanan istiqamətlərdən biri də nəqliyyat və logistika layihələrinin inkişafıdır. Azərbaycan Avropa ilə Asiya arasında ən mühüm tranzit qovşağıdır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, müasir avtomobil magistralları və geniş logistika infrastrukturu Mərkəzi Asiya yüklərinin dünya bazarlarına çıxışı üçün əlverişli imkanlar yaradır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz son illərdə xüsusi aktuallıq qazanıb. Çin və Mərkəzi Asiyadan yüklərin Xəzər dənizi vasitəsilə Azərbaycana, buradan isə Gürcüstan, Türkiyə və Avropa bazarlarına daşınması qlobal ticarətdə yeni alternativ kimi çıxış edir.

Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında nəqliyyat sahəsində koordinasiyanın gücləndirilməsi yükdaşımaların həcmini artırır, logistika xərclərinin azalmasına, çatdırılma müddətinin qısalmasına və regional iqtisadi inteqrasiyanın sürətlənməsinə xidmət edir. Eyni zamanda rəqəmsal logistika platformalarının yaradılması, gömrük prosedurlarının elektronlaşdırılması və vahid tranzit mexanizmlərinin tətbiqi regionun rəqabət qabiliyyətini daha da yüksəldir.

Azərbaycanla Mərkəzi Asiya ölkələrinin əməkdaşlığı yalnız nəqliyyatla məhdudlaşmır. Son illər "yaşıl enerji" - bərpaolunan enerji mənbələrinin inkişafı və enerji ixrac marşrutlarının şaxələndirilməsi də gündəmdə olan əsas istiqamətlərdəndir.

Xəzər dənizi bu baxımdan həm nəqliyyat-logistika, həm də enerji əməkdaşlığının mühüm platformasına çevrilir. Azərbaycan öz enerji infrastrukturu və beynəlxalq tərəfdaşlıq təcrübəsi ilə Mərkəzi Asiya ölkələrinin enerji resurslarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır. Bu istiqamətdə həyata keçirilən layihələr regionun enerji təhlükəsizliyinin möhkəmlənməsinə və Avrasiyada dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

### Sabitlik, inteqrasiya və dayanıqlı inkişaf

Son illərin inkişaf dinamikası göstərir ki, Azərbaycan artıq yalnız coğrafi baxımdan yox, siyasi və iqtisadi baxımdan da Mərkəzi Asiya ilə Avropa arasında etibarlı körpü rolunu oynayır. Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər Azərbaycanın gələcək inkişaf strategiyasında Mərkəzi Asiya istiqamətinin xüsusi yer tutduğunu bir daha nümayiş etdirdi. Bu əməkdaşlıq modeli qarşılıqlı hörmətə, suverenliyə, ortaq maraqlara və uzunmüddətli tərəfdaşlığa əsaslanır.

Azərbaycan-Mərkəzi Asiya formatı region dövlətlərini iqtisadi baxımdan yaxınlaşdırır, aradakı siyasi dialoqu dərinləşdirir, təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirir, Türk Dövlətləri Təşkilatının institusional inkişafını sürətləndirir və Avrasiyada yeni əməkdaşlıq arxitekturasının formalaşmasına töhfə verir.

Prezident İlham Əliyevin Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı ilə bağlı səsləndirdiyi fikirlər müasir dövrdə regionun inkişaf istiqamətlərini müəyyən edən strateji baxışın ifadəsi kimi qiymətləndirilə bilər. Ortaq tarixə, mədəni yaxınlığa və qarşılıqlı etimada söykənən bu əməkdaşlıq artıq siyasi bəyanatlar mərhələsini geridə qoyaraq konkret iqtisadi layihələr, nəqliyyat dəhlizləri, logistika infrastrukturu və institusional inteqrasiya ilə möhkəmlənməkdədir.

Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrin dərinləşməsi, Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığının sürətli inkişafı, Trans-Xəzər marşrutunun genişlənməsi və yeni investisiya layihələrinin reallaşdırılması göstərir ki, ölkəmiz ilə Mərkəzi Asiya dövlətləri vahid geoiqtisadi məkanın formalaşdırılması istiqamətində ardıcıl addımlar atırlar. Bu proses təkcə iştirakçı dövlətlərin milli maraqlarına deyil, bütövlükdə Avrasiya məkanında sabitliyə, iqtisadi inteqrasiyaya və dayanıqlı inkişafın təmin olunmasına mühüm töhfə verir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Orta dəhliz, Zəngəzur dəhlizi və Qarabağın bərpası Avrasiyanın yeni geosiyasi arxitekturasının ayrılmaz hissələridir

**Qlobal geosiyasi və geoiqtisadi proseslərin sürətlə dəyişdiyi indiki mərhələdə Orta dəhliz, Zəngəzur dəhlizi və Qarabağın yenidən qurulması bir-birini tamamlayan strateji istiqamətlər kimi çıxış edir. Bu layihələr artıq ayrı-ayrılıqda deyil, Avrasiyanın yeni geosiyasi arxitekturasının tərkib hissəsi kimi qiymətləndirilməlidir.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk siyasi şərhçi Emre DİNER** səsləndirib.

Onun sözlərinə görə, Orta dəhliz artıq təkcə ticarət marşrutu deyil, qlobal təchizat zəncirlərinin yenidən formalaşdığı şəraitdə strateji alternativə çevrilib. Rusiya-Ukrayna müharibəsindən sonra şimal marşrutunda risklərin artması, eləcə də Qırmızı dənizdə təhlükəsizlik problemlərinin yaranması Avropa ilə Asiya arasında yükdaşımalarda Orta dəhlizin əhəmiyyətini artırıb. Bu baxımdan Azərbaycan və Türkiyə Avropanı Mərkəzi Asiya və Çinlə əlaqələndirən mühüm logistika körpüsü funksiyasını yerinə yetirir.

"Zəngəzur dəhlizi də yalnız Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında fiziki bağlantını təmin edən layihə kimi qiymətləndirilməməlidir. Dəhlizin reallaşması türk dünyası arasında quru əlaqələrinin daha da möhkəmlənməsinə, Orta dəhlizin səmərəliliyinin artırılmasına və Cənubi Qafqazın iqtisadi inteqrasiyasına yeni dinamika qazandıracaq. Bu səbəbdən söhbət təkcə nəqliyyatdan deyil, həm də enerji təhlükəsizliyi, logistika sahəsində rəqabət və regional sabitlikdən gedir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma prosesi də xüsusi əhəmiyyət daşıyır. Azərbaycan burada təkcə dağıdılmış şəhərləri bərpa etmir, eyni zamanda "ağıllı şəhər" konsepsiyası, müasir nəqliyyat şəbəkələri, enerji infrastrukturu və dayanıqlı iqtisadi inkişaf modelini formalaşdırır. Türkiyənin bu prosesdə fəal iştirakı isə iki ölkə arasında strateji tərəfdaşlığın gəlib çatdığı yüksək səviyyənin göstəricisidir.



Siyasi şərhçi vurğulayıb ki, bütün bu müsbət proseslərə baxmayaraq, bölgədə həllini gözləyən ən ciddi problemlərdən biri mina təhlükəsidir.

"İşğal dövründə basdırılmış minalar mülki əhalinin təhlükəsiz şəkildə doğma yurdlarına qayıdışını ləngidir, yenidənqurma işlərinin sürətini azaldır və insan tələfatına səbəb olur. Bu baxımdan minatəmizləmə yalnız texniki məsələ deyil, eyni zamanda mühüm humanitar məsuliyyətdir. Minalar müharibə başa çatdıqdan sonra da insan həyatı üçün təhlükə yaratmaqda davam edən silahlardır. Buna görə də minatəmizləmə prosesi yalnız təhlükəsizlik məsələsi kimi deyil, insan hüquqlarının qorunması, davamlı inkişaf və uzunmüddətli sülhün təmin edilməsinin əsas şərtlərindən biri kimi qiymətləndirilməlidir. Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işlərinin, eləcə də "Böyük qayıdış" proqramının uğurla həyata keçirilməsi mina təhlükəsinin beynəlxalq əməkdaşlıq çərçivəsində mümkün qədər qısa müddətdə aradan qaldırılmasından birbaşa asılıdır. Beynəlxalq təşkilatlar bu istiqamətdə daha görünən və konkret dəstək nümayiş etdirməlidirlər. Bölgənin minalardan təmizlənməsi yalnız humanitar məsələ deyil, həm də regional inteqrasiyanın möhkəmləndirilməsinə xidmət edən strateji addım kimi dəyərləndirilməlidir. Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafı baxımından minatəmizləmə yenidənqurma və davamlı inkişafın əvəzolunmaz şərtidir".

Emre Diner bildirib ki, Azərbaycan üçün minatəmizləmə yalnız partlayıcıların zərərsizləşdirilməsi demək deyil. Bu proses insanların təhlükəsiz şəkildə öz evlərinə qayıtmasına, Qarabağ və Şərqi Zəngəzurun bərpasının sürətlənməsinə, iqtisadi investisiyalar üçün əlverişli şəraitin formalaşmasına və Cənubi Qafqazda davamlı sabitliyin təmin edilməsinə xidmət edən strateji istiqamətdir. Türkiyə və Azərbaycan da minatəmizləmə məsələsinə həm humanitar, həm inkişaf, həm də regional təhlükəsizlik baxımından yanaşırlar.

Sonda ekspert əlavə edib ki, hazırkı geosiyasi şəraitdə Qarabağın yenidən qurulmasını, Zəngəzur dəhlizini və Orta dəhlizi bir-birindən ayrı qiymətləndirmək mümkün deyil. Bu istiqamətlər birlikdə Cənubi Qafqazın gələcəyini, Avrasiya ticarətinin yeni marşrutlarını və regionda güc balansını müəyyənləşdirəcək strateji transformasiyanın əsas elementlərini təşkil edir. Buna görə də yaxın illərdə bu layihələrin təkcə iqtisadi deyil, geosiyasi təsirlərinin də daha aydın şəkildə hiss olunacağı gözlənilir.

# DİN-də xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib. Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 167 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# “Orta dəhlizin potensialı genişləndikcə, Azərbaycanın strateji rolu daha da güclənəcək”

**“Qlobal təchizat zəncirlərində yaranan qırılmalar, Rusiya-Ukrayna müharibəsindən sonra şimal marşrutunda meydana çıxan geosiyasi risklər və dövlətlərin nəqliyyat dəhlizlərini şaxələndirmək istəyi Çindən başlayaraq Türküstan (Mərkəzi Asiya), Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyə üzərindən Avropaya uzanan Orta dəhlizin əhəmiyyətini daha da artırıb. Bu kontekstdə Azərbaycan Orta dəhlizin, sadəcə, coğrafi keçid ölkələrindən biri deyil, onun funksionallığını və strateji dəyərini artıran əsas aktorlardan biridir. Xəzər dənizi ilə Cənubi Qafqaz arasında yerləşməsi Azərbaycana təbii geosiyasi üstünlük qazandırır. Son illərdə Bakının nəqliyyat və logistika infrastrukturuna yönəltdiyi irihəcmli investisiyalar isə bu coğrafi üstünlüyü real geoiqtisadi potensiala çevirir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **beynəlxalq münasibətlər üzrə mütəxəssis İsmail CİNGÖZ** deyib.

Onun sözlərinə görə, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt bölgəsində formalaşdırılan logistika və iqtisadi infrastruktur Azərbaycanın "Şərq-Qərb" nəqliyyat xəttində mərkəzi mövqeyini gücləndirən mühüm layihələr sırasındadır. Xəzər keçidində liman imkanlarının genişləndirilməsi, dəmir yolu və avtomobil yollarının müasirləşdirilməsi, gömrük və tranzit prosedurlarının sadələşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər də Orta dəhlizin yükdaşıma potensialının və rəqabət qabiliyyətinin yüksəlməsinə mühüm töhfə verir.

"Lakin Orta dəhlizin əsl strateji dəyəri yalnız daşınan yüklərin həcmi və ya marşrutun qısalması ilə ölçülməməlidir. Bu dəhliz Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxış imkanlarını şaxələndirir, Xəzərin hər iki sahili arasında iqtisadi inteqrasiyanı gücləndirir və Türkiyə vasitəsilə Avropa bazarlarına uzanan fasiləsiz nəqliyyat əlaqəsini formalaşdırır. Bu baxımdan Azərbaycanın nəqliyyat siyasəti təkcə ölkənin milli iqtisadi maraqlarına deyil, həm də daha geniş mənada türk dünyasının bağlantısının möhkəmləndirilməsinə və Avrasiyada Şərq-Qərb istiqamətində iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir. Xüsusilə Azərbaycan ilə Türkiyə arasında mövcud olan strateji tərəfdaşlıq Orta dəhlizin gələcəyi baxımından həlledici amillərdən biridir. Mərkəzi Asiyanın türk dövlətlərinin nəqliyyat, enerji, ticarət və logistika şəbəkələrinə getdikcə daha fəal qoşulması ilə Orta dəhliz türk dünyasını birləşdirən strateji onurğa xəttinə çevrilmək potensialına malikdir. Türk Dövlətləri Təşkilatı çərçivəsində nəqliyyat və logistika sahəsində inkişaf etdirilən əməkdaşlıq da bu prosesin institusional əsaslarını daha da möhkəmləndirir", - deyə İ.Cingöz əlavə edib.

Mütəxəssis bildirib ki, gələcək mərhələdə Xəzər keçidinin ötürücülük qabiliyyətinin artırılması, limanlarla dəmir yolu şəbəkələri arasında inteqrasiyanın gücləndirilməsi, sərhəd və gömrük prosedurlarının rəqəmsallaşdırılması, eləcə də dəhliz boyunca yerləşən ölkələr arasında vahid logistika standartlarının formalaşdırılması Orta dəhlizin qlobal miqyasda daha rəqabətqabiliyyətli nəqliyyat marşrutuna çevrilməsinə imkan verəcək.

Bu gün Azərbaycanın indiyədək nümayiş etdirdiyi siyasi iradə və həyata keçirdiyi infrastruktur layihələri göstərir ki, ölkə bu prosesdə yalnız tranzit dövlət kimi deyil, həm də Avrasiyanın yeni nəqliyyat və logistika arxitekturasının formalaşmasında mühüm rol oynayan regional mərkəz kimi mövqeyini gücləndirməkdədir.

"Nəticə etibarilə Orta dəhlizin yüksələn əhəmiyyəti Avrasiyada baş verən geosiyasi transformasiyanın mühüm nəticələrindən biridir. Azərbaycan isə öz coğrafi üstünlüyünü infrastruktur investisiyaları, regional əməkdaşlıq mexanizmləri və strateji nəqliyyat siyasəti ilə tamamlayaraq bu transformasiyanın əsas aktorlarından birinə çevrilir. Orta dəhlizin potensialı genişləndikcə, Azərbaycanın Xəzər hövzəsi, Türküstan (Mərkəzi Asiya), Cənubi Qafqaz, Türkiyə və Avropa arasında strateji əlaqələndirici rolu daha da güclənəcək. İnsanlar əsrlərlə yollar çəkir, sonra həmin yolların kimə daha çox üstünlük qazandıracağını müzakirə edirlər. Geosiyasət bəzən asfaltın üzərində yazılan tarixdən başqa bir şey deyil", - deyə o fikrini sonlandırıb.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi dövlət ittihamını müdafiə edən prokurorların çıxışları ilə davam etdirilib



İyulun 27-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmə iclası dövlət ittihamını müdafiə edən prokurorların çıxışları ilə davam etdirilib.

Dövlət ittihamını müdafiə edən prokurorlar - Abbas Abbaslı, Anar Ələkbərov və Sevinc Qasımova bildiriblər ki, cinayət işi üzrə ittiham olunan digər təqsirləndirilən şəxslər kimi Bako Sahakyan, David Manukyan, David Babayan, Davit İşxanyan, Levon Mnatsakanyan, Madat Babayan və Melikset Paşayanın da Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı yönəlmiş təcavüzkar müharibə və cinayətkar birliyin fəaliyyətində iştirakları birinci instansiya məhkəməsində araşdırılmış sübutlarla təsdiqlənib.

Dövlət ittihamçıları qeyd ediblər ki, təqsirləndirilən şəxslər sülh və insanlıq əleyhinə, müharibə cinayətləri, habelə suveren ərazilərimizin işğalı, silahlı birləşmələrin təşkili və təminatı, Azərbaycana qarşı düşmənçilik fəaliyyətinin təşviqi, terror, mina partlayışları, mülki şəxslərə qarşı müxtəlif cinayətlər və digər qanunsuz əməlləri törətməkdə təqsirləndirilirlər.

Həmçinin vurğulanıb ki, təqsirləndirilən şəxslərə qarşı irəli sürülən ittihamlar cinayət işinin ibtidai istintaqı zamanı toplanmış, eləcə də məhkəmə baxışı zamanı təqdim və tədqiq edilmiş şahid ifadələri, ekspertiza rəyləri, ifadələr, çoxsaylı istintaq hərəkətləri protokolları, sənədlər və digər dəlillərlə təsdiqlənib.

Məhkəmənin növbəti iclası iyulun 28-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

# Braziliya gömrük xidmətinin rəhbəri Azərbaycanda səfərdədir





**İyulun 27-də Braziliya Federal Gəlirlər Xidmətinin Gömrük Administrasiyasının rəhbəri Fabiano Koelho Azərbaycana səfərə gəlib.**



İlk olaraq Fabiano Koelho Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi anılıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Dövlət Gömrük Komitəsində Braziliya gömrük xidmətinin rəhbəri Fabiano Koelho ilə keçirilən görüşdə iki ölkənin gömrük orqanlarının arasındakı münasibətlərin mövcud vəziyyəti, əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, əməkdaşlığın genişləndirilməsinin, qabaqcıl təcrübələrin mübadiləsinin gücləndirilməsinin vacibliyi vurğulanıb, "Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilən islahatlar və təşəbbüslər" mövzusunda təqdimat nümayiş etdirilib.

İkitərəfli əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi və gələcək fəaliyyət istiqamətlərinin müəyyən edilməsi məqsədilə Azərbaycan və Braziliya gömrük xidmətləri arasında "2026-cı il üzrə Birgə Gömrük Əməkdaşlığı Planı" imzalanıb.

Görüşdən sonra Dövlət Gömrük Komitəsində Hədəf Mərkəzinin fəaliyyəti ilə tanış olan qonağa son dövrlərdə gömrük xidmətində həyata keçirilən rəqəmsal transformasiya, süni intellekt əsaslı həllər, innovativ layihələr və müasir idarəetmə yanaşmaları ilə bağlı xüsusi təqdimatlar əsasında ətraflı məlumat verilib.

❖ ❖ ❖

Daha sonra Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun və Braziliya Federal Gəlirlər Xidmətinin Gömrük Administrasiyasının rəhbəri Fabiano Koelhonun iştirakı ilə panel müzakirə təşkil olunub. Müzakirədə iki olkənin gömrük orqanları arasında əməkdaşlığın perspektivlərindən bəhs edilib, xüsusilə informasiya texnologiyaları sahəsində təcrübə mübadiləsinin vacibliyi vurğulanıb və gömrük əməkdaşlarının sualları cavablandırılıb.

Braziliya Federal Gəlirlər Xidmətinin Gömrük Administrasiyasının rəhbəri Fabiano Koelho Gömrük Tarixi Muzeyini də ziyarət edib.

❖ ❖ ❖

Həmin gün Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinə səfər edən qonağa ofisin regional əməkdaşlıq təşəbbüsləri və potensialın gücləndirilməsi layihələri barədə məlumat verilib. Həmçinin Səlahiyyətli İqtisadi Operator, "Bir pəncərə" və inteqrə edilmiş risk idarəçiliyi sahələrində Braziliya gömrük xidmətinin təcrübəsinə dair təqdimat nümayiş etdirilib, fikir mübadiləsi aparılıb.

# Əlaqələrin inkişafı Azərbaycanı Avropanın enerji bazarına çıxarır, Almaniya isə enerji təhlükəsizliyini təmin edir

**"Almaniyanın marağı təkcə Azərbaycandan təbii qaz almaqla məhdudlaşmır. Bu gün dünya iqtisadiyyatında aparıcı mövqeyə malik olan Almaniyanın qitədə iqtisadi dominantlığını davam etdirmək üçün enerjiyə ehtiyacı var. Enerjini Azərbaycanla yanaşı, Mərkəzi Asiya respublikalarından da idxal etmək istəyən Almaniya diplomatiyası yaxşı bilir ki, Azərbaycan olmadan Mərkəzi Asiya ilə əlaqə qurmaq olmayacaq. Bu, Almaniya üçün strateji xarakter daşıyan və geosiyasi üstünlük qazandıran əlaqədir. Bu baxımdan rəsmi Berlin Azərbaycan ilə münasibətlərini daha da inkişaf etdirmək niyyətindədir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Türkiyənin "365 gün" media qrupunun rəhbəri, siyasi şərhçi Yakub ASLAN** deyib.

O bildirib ki, bu gün Avropada enerji böhranı yaşanır. Bu böhranı aradan qaldırmaq və enerji təhlükəsizliyini dayanaqlı etmək üçün Avropa dövlətləri Azərbaycandan təbii qaz idxal etməklə yanaşı, onun enerji tranziti potensialından da istifadə etmək istəyir ki, bu da Azərbaycanın iqtisadi maraqlarına cavab verir. Hələ 2022-ci ildə "Azərbaycan Respublikası, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması, 2024-cü ildə Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə üç ölkə arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Strateji Tərəfdaşlıq haqqında Hökumətlərarası Sazişin imzalanması və icrasının təmin olunması məqsədilə "Yaşıl Dəhliz Alyansı" MMC yaradılması və Mərkəzi Asiyadan Avropaya enerji tranziti ilə bağlı həyata keçirilən digər qlobal xarakterli tədbirlər Almaniyanın nəzərindən qaçmayıb: "Rusiya-Ukrayna və ABŞ-İran müharibələri başda Almaniya olmaqla Avropa dövlətlərini yeni enerji mənbələri axtarmağa vadar edib. Almaniya texnoloji inkişaf baxımından Avropanın ən qabaqcıl ölkəsidir və alternativ enerji istehsalı sahəsində dünyanın lider dövlətlərindən biridir. Alman mühəndisləri bilirlər ki, Özbəkistanda ildə təqribən 320 günəşli gün olur ki, bu da geniş sahələrdə günəş-elektrik stansiyalarının qurulması üçün əvəzsiz şərait yaradır. Qazaxıstanın geniş düzənlikləri və dəhlizləri güclü, davamlı külək axınları böyük külək stansiyaları tikməyə imkan verir. Tacikistan və Qırğızıstan dağlıq relyef və bol çay şəbəkəsi sayəsində böyük hidroenerji ehtiyatlarına malikdir. Bu potensial isə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin tam real olduğunu göstərir ki, Almaniya da bundan faydalanmağa çalışır".

"Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri bu baxımdan olduqca əhəmiyyətli xarakter daşıyır. Hər iki dövlətin əməkdaşlığı artıq praqmatik siyasətin fayda verəcəyi istiqamətə - perspektivə yönəlib. Bu praqmatizm isə ondan ibarətdir ki, Azərbaycan həm özünün, həm də strateji tərəfdaş olduğu Mərkəzi Asiya respublikalarını Avropanın enerji bazarına çıxarır. Almaniya isə enerji təhlükəsizliyinin dayanıqlı xarakter daşımasını təmin edir", - deyə siyasi şərhçi vurğulayıb.

O bildirib ki, Prezident İlham Əliyevin müəyyən etdiyi strateji kursa uyğun olaraq, Azərbaycan "yaşıl enerji"nin istehsalı, ötürülməsi və ixracı sahəsində etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin layihəyə dəstəyi isə bu təşəbbüsün Avropanın enerji təhlükəsizliyi və "yaşıl enerji" keçidi baxımından strateji əhəmiyyətinin yüksək siyasi səviyyədə qəbul edildiyini bir daha təsdiqləyir. Bu layihə Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, "yaşıl enerji" keçidinin sürətləndirilməsinə və regional əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfə verəcək: "Layihənin texniki-iqtisadi əsaslandırılmasının energetika sektorunda texniki konsaltinq, mühəndislik, sınaq və sertifikatlaşdırma sahəsində 70 ilə yaxın təcrübəyə malik olan İtaliyanın "CESI S.p.A." şirkətinə həvalə edilməsi də xüsusi önəm daşıyır. Bu qlobal şirkət dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərir. Şirkət enerji şəbəkələrinin təhlili və elektrik sistemlərinin birləşdirilməsi, bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını həyata keçirir və böyük təcrübəsi var".

# “Türkiyə və Azərbaycan yeni geosiyasi düzənin mərkəzində yer alan əsas tərəfdaş ölkələrdir”



**"Müasir dövrdə Avrasiyada müşahidə olunan böyük geosiyasi rəqabət artıq yalnız hərbi güclə müəyyənləşmir. Bu rəqabət limanlar, dəmir yolları, enerji xətləri və logistika dəhlizləri üzərində qurulur. Dövlətlər bu gün təkcə sərhədlərini deyil, həm də ticarət marşrutlarını qorumaqla qlobal güc mübarizəsində mövqelərini möhkəmləndirirlər".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **siyasi elmlər və beynəlxalq münasibətlər üzrə ekspert Mehmet Emir AKSOY** bildirib.

"Orta dəhliz türk dünyasının strateji inteqrasiyasını təmin edən əsas sütunlardan biridir. Türkiyə və Azərbaycanın nümayiş etdirdiyi ortaq siyasi iradə Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP layihəsi, müasir liman infrastrukturu və rəqəmsal nəqliyyat sistemlərini özündə birləşdirən geniş strateji baxışın nəticəsidir. Dünyada enerji və ticarət mərkəzlərinin yenidən formalaşdığı indiki mərhələdə Xəzər hövzəsi ilə Anadolu arasında qurulan strateji əlaqə yalnız iqtisadi dividendlər yaratmır, eyni zamanda Avrasiyanın təhlükəsizlik arxitekturasını da yenidən müəyyənləşdirir. Türkiyə və Azərbaycanın həyata keçirdiyi hər bir ortaq layihə Orta dəhlizi qlobal təchizat zəncirinin əvəzolunmaz elementlərindən birinə çevirir" - deyə o qeyd edib.

Ekspert bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri müharibədən sonrakı bərpa prosesindən daha böyük məna daşıyır və gələcəyin şəhərlərinin qurulmasına xidmət edən strateji baxışı əks etdirir: "Burada həyata keçirilən "ağıllı şəhər" layihələri, müasir nəqliyyat şəbəkələri, "yaşıl enerji" investisiyaları və yeni iqtisadi mərkəzlərin yaradılması Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının mühüm göstəriciləridir. Türkiyənin bu prosesdə fəal iştirakı isə "Bir millət, iki dövlət" prinsipinin diplomatik bəyanatdan real əməkdaşlıq modelinə çevrildiyini nümayiş etdirir".

Mehmet Emir Aksoy qeyd edib ki, qarşıdakı illərdə Orta dəhlizin daha da inkişafı fonunda Qarabağ və Şərqi Zəngəzur Qafqazın ən mühüm logistika və iqtisadi mərkəzlərindən birinə çevriləcək.

"Bu proses təkcə Azərbaycanın yenidən inkişafını deyil, eyni zamanda türk dünyasının iqtisadi inteqrasiyasını və Avrasiyada formalaşan yeni geosiyasi tarazlığı müəyyən edən əsas amillərdən olacaq. XXI əsrdə geosiyasi vəziyyəti müəyyən edən əsas amil, artıq yalnız hərbi güc deyil. Dəhlizlər quran, ticarət marşrutlarını idarə edən və davamlı sülhü təmin edən dövlətlər gələcəyin beynəlxalq nizamını da formalaşdırırlar. Bu baxımdan Türkiyə və Azərbaycan yeni geosiyasi düzənin mərkəzində yer alan əsas tərəfdaş ölkələr kimi çıxış edirlər", - deyə ekspert əlavə edib.

# Tarixin hökmü və şəxsiyyətin məsuliyyəti

**Bəzən fərd olaraq hadisələrə və insanlara qiymət verərkən tələsirik. Günün təsiri altında deyilən sözlər, sosial şəbəkələrdə yazılan emosional fikirlər, qərəzli münasibətlər və ya natamam məlumatlar zaman keçdikcə öz əhəmiyyətini itirir. Lakin tarix tələsmir. Tarix öz hökmünü yalnız faktlara, xidmətlərə və bütöv bir ömür yoluna əsaslanaraq verir. Məhz buna görə də hesab edirəm ki, dövlətinə, xalqına və milli-mənəvi dəyərlərinə onilliklər boyu xidmət etmiş insanlar haqqında danışarkən məsuliyyət hissi heç zaman unudulmamalıdır.**



Son illər Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə haqqında müxtəlif fikirlərə rastlaşıram. Bəzən tənqidlər obyektiv olur, bəzən isə heç bir fakta söykənməyən, daha çox emosiyalara və ya qərəzə əsaslanan mülahizələr irəli sürülür. Mən heç kəsin fikir söyləmək hüququnu mübahisələndirmək istəmirəm. Lakin bir insanın yarım əsrə yaxın fəaliyyətinə qiymət verilərkən yalnız bir epizoda və ya eşidilən söz-söhbətə deyil, bütöv həyat yoluna baxmaq lazımdır.

Bu yazını qələmə alarkən bir məsələni xüsusi vurğulamaq istəyirəm. Mən bunları Şeyxülislamın qardaşı olduğuma görə yazmıram. Əgər söhbət yalnız qohumluqdan getsəydi, bəlkə də susmağı üstün tutardım. Mən bu sətirləri 25 ilə yaxındır Azərbaycan Respublikasının Milli Məclisinin deputatı kimi dövlətçilik məktəbindən keçmiş, müxtəlif dövrlərdə ölkəmizin ictimai-siyasi həyatının iştirakçısı olmuş və eyni zamanda Allahşükür Paşazadənin uzun illər ərzində fəaliyyətini ən yaxından izləmək imkanı qazanmış bir insan kimi yazıram. Mənim üçün əsas meyar qohumluq deyil, dövlətə xidmət anlayışıdır.

Allahşükür Paşazadənin bu mötəbər dini quruma rəhbərlik etdiyi dövr Azərbaycan tarixinin ən mürəkkəb və eyni zamanda ən şərəfli mərhələləri ilə üst-üstə düşür. Sovet hakimiyyətinin son illəri, milli azadlıq hərəkatı, müstəqilliyimizin bərpası, Ermənistanın Azərbaycana qarşı təcavüzü, Birinci Qarabağ müharibəsi, dövlət quruculuğu prosesi, 44 günlük Vətən müharibəsi və Zəfərlə başa çatan yeni mərhələ - bütün bu dövrlərdə o, dini rəhbər olmaqla yanaşı, dövlətçiliyin və milli birliyin qorunmasını öz fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qəbul edib.

Azərbaycanın müstəqilliyinin ilk illərini yaşamış insanlar yaxşı xatırlayırlar ki, həmin dövr təkcə siyasi və iqtisadi çətinliklərlə deyil, mənəvi sarsıntılarla da müşayiət olunurdu. Cəbhədən hər gün şəhid xəbərləri gəlirdi, minlərlə ailə ağır faciələrlə üzüzə qalırdı. Belə bir zamanda dini rəhbərin üzərinə düşən vəzifə yalnız dini ayinləri icra etmək deyildi. O, xalqın mənəvi dayağı olmalı, ümidsizliyə qapılan insanlara ümid verməli, şəhid ailələrinin yanında dayanmalı idi. Allahşükür Paşazadə həmin ağır illərdə bu məsuliyyəti öz üzərinə götürdü. Minlərlə şəhidimizin son mənzilə yola salınmasında iştirak etdi, ailələrə təsəlli verdi, xalqın ağrısını xalqla birlikdə yaşadı. Bunlar televiziya üçün göstərilən səhnələr deyildi. Bunlar həmin dövrün canlı tarixidir.

1990-cı ilin Qanlı Yanvar faciəsi Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. O günlərdə xalqın yanında olmaq, haqq səsini dünyaya çatdırmaq və milli birliyi qorumaq hər kəsin bacaracağı iş deyildi. O mürəkkəb dövrdə nümayiş etdirilən mövqe sonrakı illərdə də dəyişmədi. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti beynəlxalq platformalarda müzakirə edildikdə, müxtəlif dini liderlərlə görüşlərdə və beynəlxalq tədbirlərdə ölkəmizin haqlı mövqeyinin çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərildi.

Mən dəfələrlə bunun şahidi olmuşam ki, xarici ölkələrdə keçirilən görüşlərdə və beynəlxalq konfranslarda Azərbaycan haqqında həqiqətlərin çatdırılması üçün böyük səy göstərilib. Bu fəaliyyət bəzən görünmür, televiziya kameralarına düşmür, qəzetlərin manşetinə çevrilmir. Lakin dövlət maraqları baxımından onun əhəmiyyəti son dərəcə böyükdür. Çünki diplomatiya təkcə siyasətçilərin işi deyil. Bəzən dini diplomatiya da xalqlar arasında etimadın yaranmasına, Azərbaycanın haqq səsinin daha geniş auditoriyalara çatdırılmasına mühüm töhfə verir.

Mənim uzun illər ərzində müşahidə etdiyim başqa bir mühüm cəhət də budur ki, Allahşükür Paşazadə Azərbaycan dövlətinin dünyəvilik prinsipini həmişə dəstəkləyib. O, dini heç vaxt dövlətə alternativ kimi təqdim etməyib. Əksinə, milli həmrəyliyin, sabitliyin və dövlətçiliyin möhkəmlənməsini dini dəyərlərlə uzlaşdırmağa çalışıb. Məhz buna görə də Azərbaycan bu gün dünyanın ən tolerant ölkələrindən biri kimi tanınır. Fərqli dinlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşaması təsadüfi deyil. Bu, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət siyasətinin və həmin siyasətə dəstək verən ictimai və dini institutların birgə fəaliyyətinin nəticəsidir.

Bu gün geriyə baxanda bir həqiqət daha aydın görünür: şəxsiyyətin böyüklüyü onun haqqında deyilən sözlərlə deyil, dövlət və xalq qarşısındakı məsuliyyətlə ölçülür. Mən yarım əsrə yaxın bir dövrün şahidi kimi əminliklə deyə bilərəm ki, Allahşükür Paşazadənin həyat yolu yalnız dini fəaliyyət tarixi deyil. Bu, eyni zamanda dövlətə sədaqətin, milli-mənəvi dəyərlərə bağlılığın, Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsi istiqamətində ardıcıl xidmətin tarixidir.

Tarix böyük hakimdir. O, nə tələsir, nə də kiməsə güzəşt edir. Tarix yalnız xidməti, sədaqəti və məsuliyyəti yadda saxlayır. İnanıram ki, illər keçdikcə bu fəaliyyət də məhz həmin meyarlarla qiymətləndiriləcək. Çünki zamanın sınağından çıxan insanlar haqqında son sözü həmişə tarix deyir.

***Cavanşir PAŞAZADƏ,***
***Milli Məclisin deputatı***

***Eka SEPAŞVİLİ:***

## "Prezident İlham Əliyevin Almaniyaya səfəri Gürcüstan üçün də yeni imkanlar yaradır"

**"Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri zamanı iki ölkə arasında iqtisadi fəallığın artırılması və əlaqələrin genişləndirilməsi barədə mühüm razılıqlar əldə olunub. Bu əməkdaşlıqda aparıcı yeri Almaniyanın təbii qazla təchizatı mövzusu tutur. Mövcud reallıqda Gürcüstanın rolu əvəzolunmazdır, çünki bu marşrut ən qısa və ən əlverişli yollardan biridir".**



AZƏRTAC xəbər verir ki, bu sözləri **Gürcüstanın "Xalqın Gücü" partiyasının beynəlxalq əlaqələr üzrə katibi, parlamentin deputatı Eka SEPAŞVİLİ** "İmedis Kvira" verilişində deyib.

Sepaşvili iyulun 21-22-də Berlində Almaniya və Azərbaycan liderləri arasında keçirilən görüşdən bəhs edərək, bu səfərin Gürcüstan üçün də geniş perspektivlər açdığını vurğulayıb: "Cəmi bir neçə gün əvvəl Almaniyada səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev ilə Federal Kansler iki ölkə arasında iqtisadi əlaqələrin fəallaşdırılması barədə razılığa gəliblər. Burada, əlbəttə ki, əsas yeri Almaniyanın təbii qazla təchizatı məsələsi tutur. Aydındır ki, bu prosesdə Gürcüstanın rolu əvəzsizdir, çünki ölkəmizdən keçən xətt ən qısa və ən sərfəli marşrutdur.

Düşünürəm ki, Avropa dövlətlərinin Şərqlə, ilk növbədə Çinlə aktiv ticarət əlaqələri qurmağa çalışmasını nəzərə alsaq, bu cür təşəbbüslərin sayı daha da artacaq. Qlobal mənzərəyə nəzər salsaq, ticarət-iqtisadi əlaqələrin qurulmasında ən mühüm tranzit xətlərindən biri məhz Azərbaycan və Gürcüstandan keçir. Müasir dünyada beynəlxalq yükdaşımaların əhəmiyyəti hər kəsə məlumdur və bu daşınmalar bizim ərazilərimiz vasitəsilə həyata keçirilir".

# Yeni regional geosiyasi reallıqlar və Qərbi Azərbaycan məsələsi

**Azərbaycan Prezidenti İlham Əliyevin gərgin fəaliyyəti, səyləri sayəsində Qərbi Azərbaycana qayıdış məsələsi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. Qayıdış məsələsi Azərbaycan xalqının tarixi Qələbəsi nəticəsində Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların əsas komponentlərindən biri kimi geosiyasi mahiyyətə malikdir. Bu xüsusda ölkə rəhbəri Qərbi Azərbaycan məsələsini tarixi ədalətin bərpası konteksti ilə yanaşı, regionda davamlı sülhün və sabitliyin təmin olunmasının ayrılmaz tərkib hissəsi kimi təqdim etmişdir.**



Qərbi Azərbaycan məsələsinin mahiyyətini onun geosiyasi faktor kimi xüsusiyyətləri təşkil edir. Bu baxımdan Qərbi Azərbaycan məsələsinin geosiyasi-konseptual aspekti ilə praktiki həlli aspekti arasında sıx bağlılıqdan bəhs etmək lazım gəlir. Sirr deyil ki, hazırkı tarixi mərhələdə dünyanın böyük güclərinin Cənubi Qafqaz istiqamətində yürütdükləri siyasət regional vəziyyətə ciddi təsir edir. Xüsusilə Ermənistanla bağlı həyata keçirilən həmin siyasi kurs Azərbaycanın "Böyük qayıdış" konsepsiyasına əhəmiyyətli təsir göstərir. Nümunə kimi ABŞ-nin Ermənistanı və onun cəmiyyətini geosiyasi aspektdə necə görməsinin təsirini göstərə bilərik. Eyni fikri Rusiya, İran, Avropa İttifaqı, xüsusilə Fransa, Almaniya, Türkiyə, Çin və Hindistanla əlaqəli deyə bilərik. Bütün bunların, "Böyük qayıdış" konsepsiyasının fonunda aşağıdakı ümumi mənzərə yaranır.

Cənubi Qafqazın yeni geosiyasi mənzərəsinin formalaşdıran güc Azərbaycandır. Azərbaycanın 2020-ci il İkinci Qarabağ müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş lokal antiterror tədbirlərində əldə etdiyi qələbələr regionu yeni pozitiv geosiyasi mövqeyə transformasiya etdi. Bir neçə il bu prosesə mane olmaq istəyənlər Azərbaycan-Türkiyə-Pakistan birliyinin sərt müqaviməti ilə rastlaşdılar. Aydın oldu ki, yaranmış yeni geosiyasi konfiqurasiyanı heç bir aspektdə, o cümlədən hərbi sferada dəyişmək mümkün deyildir. Regionun geosiyasi arxitekturasının yaradıcısı və müəyyənedicisi Azərbaycandır.

### Böyük güclərin geosiyasi manevrləri

Azərbaycanın hazırkı geosiyasi statusu nöqteyi-nəzərindən bir sıra cəhətlər mövcuddur ki, bunlar da Qərbi Azərbaycana qayıdış kontekstində xüsusi rol oynayır. Bu xüsusda son dövrlərdə bir sıra böyük güclərin regionla bağlı siyasi-diplomatik manevrləri diqqət çəkir.

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sənədi paraflandıqdan sonra ABŞ-nin Cənubi Qafqaza təsiri daha konkret cizgilər almağa başladı. Hiss olunurdu ki, Amerika müəyyən passivlik müddətindən sonra regional geosiyasi konfiqurasiyada ciddi yeniliklər etməyə çalışır. Bunun üçün ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidentinin nüfuzundan və həyata keçirdiyi müstəqil xarici siyasətin başlıca üstünlüklərindən, Ermənistanın isə Rusiyadan olan güclü asılılığını minimuma endirmək istəyindən yararlanmağa çalışacaq.

Bütün bunlara görə də 2026-cı ilin yanvarında D.Trampın "Truth Social" platformasında yazdığı aşağıdakı fikirləri maraqla qarşılandı. ABŞ Prezidenti yazırdı: "Biz Azərbaycanla strateji tərəfdaşlığımızı dərinləşdirəcəyik, Ermənistanla dinc və davamlı sülh üzrə ola bir saziş imzalayacağıq, iri yarımkeçirici istehsalçılarımız üçün müqavilələr bağlayacağıq, həmçinin ABŞ-də istehsal olunan müdafiə avadanlıqlarını, məsələn, zirehli gödəkçələr və qayıqlar da daxil olmaqla Azərbaycana satacağıq və daha artıq işlər görəcəyik".

2026-cı ilin fevral ayında ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens Cənubi Qafqaza səfər etdi və onun geosiyasi mənası geniş təhlil olundu. Azərbaycan ekspertləri C.D.Vensin Gürcüstana getməməsini regional geosiyasətə təsir edən faktor olaraq qiymətləndirdilər. Belə nəticə çıxarıldı ki, ABŞ Cənubi Qafqazda əsas stavkanı Azərbaycana edir və bunun fonunda Ermənistanı Moskvanın caynağından almağa çalışır. Bununla yanaşı, ABŞ Gürcüstanı Qərbə doğru addım atmağa məcbur etməyə cəhdlər göstərir.

Bu prosesdə Avropa İttifaqı ABŞ ilə həmrəydir. "ABŞ Ermənistan və Azərbaycanı əməkdaşlıq və regional layihələr üzrə məsələlərin müzakirə olunduğu Sülh Şurasına daxil etmişdir. Gürcüstan bura daxil deyil, müzakirə olunan müqavilələr digər Cənubi Qafqaz ölkələri ilə enerji, təhlükəsizlik və infrastruktur sahələrində əlaqələrin gücləndirilməsinə yönəlmişdir. Vaşinqtonda vəziyyətin bu cür inkişafının səbəblərindən biri ABŞ xarici siyasətinin məntiqindəki dəyişiklikdir".

ABŞ-nin xarici siyasətində dəyişikliyin məntiqi Vaşinqtonun vurğunu "tez və görünən nəticələr verən konkret iqtisadi və strateji razılaşmalar"a yönəltməsi ilə bağlıdır. Əlbəttə, bu kimi dəyişikliklər fonunda Amerika enerji, logistika layihələri həyata keçirən və ya geosiyasi təşəbbüslər irəli sürən Azərbaycana daha çox diqqət yetirəcəkdir.

Beləliklə, Vaşinqtonda paraflanan sülh sənədindən sonra ABŞ birmənalı olaraq Cənubi Qafqazda lider dövlət kimi Azərbaycanı qəbul etməyə başlamışdır və buna uyğun addımlar atmaqdadır. ABŞ Prezidenti D.Tramp Azərbaycan Prezidenti İlham Əliyevə 31-ci Bakı Enerji Həftəsinin başlaması ilə əlaqədar göndərdiyi məktubda region və Azərbaycanla bağlı vacib mesajlar vermişdir. D.Tramp yazmışdır ki, "bu naliyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur"; "mən qətiyyətlə inanıram ki, qlobal enerji təhlükəsizliyi sahəsində əsaslı tərəfdaşlığımızın əhəmiyyəti gələcək illərdə yalnız artacaqdır"; "biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq" və "biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq".

Bu tezislər Amerikanın xarici siyasətində Cənubi Qafqazın və eyni zamanda Azərbaycanın yeni səviyyədə əhəmiyyət kəsb etdiyini ifadə edir. Aydın görünür ki, Vaşinqton daha geniş kontekstdə Azərbaycanla münasibətləri inkişaf etdirməli qərarına gəlmişdir.

ABŞ-nin regional strategiyasının prioritetləri dəyişir. Bu çərçivədə Azərbaycan Avrasiyanın yeni iqtisadi və geosiyasi arxitekturasının formalaşmasında mühüm tərəfdaş kimi qəbul edilir. "Məhz buna görə ABŞ-Azərbaycan münasibətlərində müşahidə olunan canlanma... Cənubi Qafqazın gələcək inkişaf modelinə dair mühüm siyasi mesajdır... Azərbaycanın geosiyasi çəkisi artıq yalnız regionun deyil, qlobal güclərin strateji hesablamalarının da mühüm elementinə çevrilməkdədir".

ABŞ-nin Cənubi Qafqaz siyasətinin regional təsiri üzərində bir qədər geniş dayanmağımızın səbəbi var. Sirr deyil ki, hazırda məhz Vaşinqton böldə geosiyasi konfiqurasiyanın formalaşmasında çox ciddi rol oynayan kənar gücdür. Bu müstəvidə bizim üçün ABŞ-Azərbaycan münasibətlərinin yeni səviyyəyə yüksəlməsi faktı olduqca önəmlidir. Həmin faktın işığında Qərbi Azərbaycana qayıdış məsələsinin də yeni reallıqlar fonunda təhlili aktualdır. Həmin istiqamətdə digər bir gücün - Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin son zamanlar özünü göstərən bir sıra məqamlarına nəzər salaq.

### Brüssel Cənubi Qafqazda fəallaşır

2026-cı ilin əvvəllərindən Brüsselin yüksəksəviyyəli rəsmiləri Azərbaycana səfərlərini intensivləşdirmişlər. Mart ayında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta Bakıya təşrif buyurmuşdur. May ayında Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas, iyul ayında isə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycana səfər etmişlər. Onlar Prezident İlham Əliyevlə birbaşa və intensiv dialoq aparmışlar. Ekspertlər əmindirlər ki, bu kimi səfərlərdə aparılan müzakirələr göstərir ki, Aİ Cənubi Qafqaz regionu ilə əməkdaşlığının məhz Azərbaycanla qurulan konstruktiv münasibətlərdən asılı olduğunu qəbul edir. Bu səfərlər tərəflər arasında qarşılıqlı etimadın və ortaq maraqların yeni mərhələyə qədəm qoyduğunu bir daha təsdiqləyir.

Bunlardan başqa, Litva Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin, Çexiya Baş naziri Andrey Babişin, İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloninin, Slovakiya Prezidenti Peter Pellegrininin Azərbaycana səfərləri diqqət çəkmişdir. Həmin səfərlər zamanı Aİ rəsmiləri enerji tərəfdaşlığı ilə yanaşı, regional təhlükəsizlik və sülh gündəliyini müzakirə etmişlər. Eyni zamanda həm enerji ixdalı, həm də nəqliyyat dəhlizləri ilə bağlı vacib razılaşmalar əldə olunmuşdur. Həmin sırada Avropa liderlərinin verdikləri bəyanatlarda Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstəyin yüksək səviyyədə ifadəsinin yer alması Brüsselin Cənubi Qafqaz siyasətində Azərbaycan faktorunun yeni səviyyəyə yüksəlməsinin əlaməti sayılır.

Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin 2026-cı il iyulun 1-də Azərbaycana rəsmi səfəri bütün bunların fonunda əhəmiyyətli hadisədir. Avropa rəsmisi "X" sosial şəbəkəsində yazmışdı: "Aİ Cənubi Qafqaz üçün parlaq bir gələcəyə - əlaqəli, dinc və çiçəklənən bir gələcəyə inanır. Biz bu gələcəyin qurulmasına kömək etmək istəyirik. Mən, həmçinin Aİ ilə Azərbaycan arasında ticarətdən nəqliyyata, enerjidən iqtisadiyyata qədər tərəfdaşlığı dərinləşdirmək üçün buradayam".

Əlbəttə, Azərbaycan həmişə Aİ ilə əlaqələrin dərinləşməsində maraqlı olmuşdur və bu istiqamətdə xeyli addımlar atmışdır. Azərbaycan Prezidenti İlham Əliyev də Avropa Komissiyasının prezidenti ilə mətbuata birgə bəyanatında Bakının mövqeyinin prinsipial tərəflərini ifadə etmişdir.

Azərbaycan nadir ölkələrdəndir ki, strateji-coğrafi mövqeyini başqa faktorlarla məharətlə uyğunlaşdırır və buna görə də Bakı Avropanı, Cənubi Qafqazı və Mərkəzi Asiyanı bir araya gətirə bilər. Bütün bunlar Cənubi Qafqazda yeni geosiyasi dinamikanın formalaşdığını göstərir ki, bunun fonunda Qərbi Azərbaycana qayıdış məsələsi daha da aktuallaşır.

### Qərbi Azərbaycana qayıdış: yeni mərhələ

Hazırda regiondakı geosiyasi dinamikanın yeni çalarları onu deməyə əsas verir ki, Qərbi Azərbaycana qayıdış məsələsi daha incə və fəal yanaşma tələb edir. Burada əsas prinsip azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmasının təmin edilməsindən ibarətdir. Bu prinsipdən vaz keçmək və ya onu dəyişmək mümkün deyildir. Deməli, Azərbaycan tərəfi baş verən hər bir ciddi geosiyasi regional dəyişikliyə çevik və yaradıcı yanaşmalıdır.

Qərbi Azərbaycana qayıdış üçün, məsələn, ABŞ-nin sülh yaratmaq xətti yardım edə bilər, lakin Fransa kimi ölkələrin qərəzli fəaliyyəti yeni çətinliklər meydana çıxarar. Bu məsələdə Aİ-nin bir təşkilat olaraq mövqeyi də əhəmiyyətlidir. Ursula fon der Lyayen 2026-cı ilin iyulunda İrəvanda söz vermişdir ki, "Avropa sizə dəstək olacaq". Hansı mənada və hansı istiqamətdə? Bu "dəstək" vədinin arxasında nələr dayanır? Bunlar hələlik aydın deyildir.

Beləliklə, bir tərəfdən, Aİ regionda inteqrasiya, təhlükəsizlik və əməkdaşlıqdan bəhs edir, digər tərəfdən isə, təşkilatın ən güclü üzv dövlətlərindən biri olan Fransa qeyri-müəyyən bəyanatlar verir, qərəzli münasibətini açıq ifadə edir. Bu vəziyyətə həm Vaşinqtonun münasibəti, həm də Brüsselin baxışı çox maraqlıdır.

Lakin bütün bunlar tarixi torpaqlara qayıdışa bədbin yanaşmağa qətiyyən əsas vermir. Söhbət, sadəcə, bəzi dairələrin regionda ənənəvi pozuculuq fəaliyyətinə davam etdiklərinin təsbitindən gedir. Həm də bir sıra geosiyasi dairələrin Cənubi Qafqazda əməkdaşlıqda və təhlükəsizliyin təminində ciddi maraqlarının olduğunu təsdiq edən bir neçə yeni nümunə var. İki nümunəni nəzərdən keçirə bilərik.

2026-cı il iyunun 24-də ABŞ-nin paytaxtı Vaşinqtonun Konqres binasında (Kapitol Hill) Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qayıdış hüququ və öz müqəddəratını təyinetmə: ikili standartlar və selektiv yanaşmalar" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Bu tədbiri azərbaycanlıların Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına dair həqiqətlərin beynəlxalq ictimaiyyətə tanıdılması baxımından çox əhəmiyyətli hadisə kimi qiymətləndirmək lazımdır.

Konfransda edilən təkliflər sırasında Qərbi Azərbaycanda xalqımıza məxsus mədəni, dini və tarixi irsin, o cümlədən toponimlərin, məscidlərin, qəbiristanlıqların, ziyarətgahların və digər abidələrin sistemli şəkildə dağıdılması, təhqir olunması və mənimsənilməsi faktlarına beynəlxalq hüquq müstəvisində hüquqi qiymət verilməsi çağırışı xüsusi yer tutmuşdur. Həm də bu "pozuntuların beynəlxalq təşkilatlar tərəfindən yerində araşdırılması və sənədləşdirilməsi" tələb olunmuşdur.

Əsas məqam ondan ibarətdir ki, konfrans iştirakçıları ABŞ Konqresinin üzvlərinə müraciət ünvanlamışlar. Müraciətdə qayıdış hüququnun və xalqların öz müqəddəratını təyinetmə hüququnun beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq ardıcıl, ədalətli və ayrı-seçkiliyə yol verilmədən tətbiq edilməsinin zəruriliyi vurğulanır. Sənəddə qərbi azərbaycanlıların öz doğma yurdlarına təhlükəsiz, könüllü və ləyaqətli şəkildə qayıdış hüququna beynəlxalq dəstəyin göstərilməsi, onların əmlak hüquqlarının bərpası və mədəni irsinin qorunmasının vacibliyi qeyd edilir.

Digər nümunə, 2026-cı il iyunun 30-da Londonda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə "Xəzər regionunda bağlantılar: inkişaf və dayanıqlılıq" mövzusunda konfransın keçirilməsidir. Tədbirdə Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Olderdays, Azərbaycan, Türkiyə, Gürcüstan və Özbəkistanın Böyük Britaniyadakı səfirləri, digər region ölkələrinin diplomatik nümayəndələri, beynəlxalq təşkilatların, maliyyə institutlarının, biznes dairələrinin və ekspert icmasının təmsilçiləri iştirak etmişlər.

Lord Olderdays çıxışında vurğulamışdır ki, "Böyük Britaniya region ölkələri ilə ticarət və investisiya əlaqələrini daha da genişləndirmək niyyətindədir... Təhsil, investisiya, enerji, kritik minerallar, tikinti və infrastruktur sahələrində geniş əməkdaşlıq potensialı mövcuddur". Britaniya rəsmisi Xəzər regionunun (və deməli, Cənubi Qafqazın) geosiyasi və iqtisadi əhəmiyyət daşıdığını, həmçinin "sabit və dayanıqlı əməkdaşlıq üçün" geniş imkanlar yaratdığını ifadə etmişdir. Bu iki nümunə Azərbaycanın strateji xarakterli Qərbi Azərbaycana qayıdış hədəfini ciddi surətdə dəstəkləyən böyük güclərin mövcud olduğunu təsdiq edir. Bu kontekstdə Prezident İlham Əliyevin Almaniyaya son rəsmi səfəri Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının Qərbdə hüquqi və siyasi dəstəklənməsi baxımından da böyük əhəmiyyət daşıyır.

Beləliklə, Qərbi Azərbaycana qayıdış azərbaycanlıların təbii və hüquqi haqqı kimi aktuallığını saxlayır və onun həyata keçməsi Bakının mütləq şərti və prioritetidir. Regionda formalaşmaqda olan yeni geosiyasi dinamika kontekstində bu məsələ daha da aktuallaşmışdır. Burada eyni zamanda böyük güclərin geosiyasi konfiqurasiyası fonunda problemi həll etmək lazım gəlir və rəsmi Bakı bu istiqamətdə fəaliyyətini inamla davam etdirir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# Ermənipərəst konqresmenlər sülhü hədəf alıb



**Cənubi Qafqaz regionu onilliklər boyu davam edən münaqişə səhifəsini bağlayaraq, nəhayət ki, davamlı və möhkəm sülhün təməlini yaradır. Lakin regionda sabitliyin bərqərar olması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində atılan tarixi addımlar okeanın o tayındakı müəyyən dairələri görünür ki, narahat edir. ABŞ Konqresindəki ermənipərəst qüvvələrin və erməni lobbisinin təsiri altında olan siyasətçilərin son addımları onların hələ də köhnə qərəzlərdən əl çəkmədiyini, regional sülhü və iki ölkə arasında yaxınlaşmanı hədəf aldığını aydın göstərir.**

### Əsassız ittihamlar ölkəmiz tərəfindən qətiyyətlə rədd edilir

İyulun 22-də ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi tərəfindən H.R. 9087 saylı qanun layihəsinin müzakirəsi zamanı Azərbaycana qarşı bir sıra əsassız iddiaları özündə əks etdirən düzəliş müzakirə edilib. Sabiq konqresmen, adı qalmaqallarda hallanan Robert Menendesin siyasi xəttinin davamçısı Bred Şermanın müəllifliyi ilə irəli sürülən bu təşəbbüs erməni lobbi qruplarının siyasi gündəliyini həyata keçirməkdən başqa bir şey deyil.

Yaxınlaşan seçkilər ərəfəsində maliyyə və siyasi dəstək qazanmaq məqsədilə atılan bu addım ABŞ-nin milli maraqlarına deyil, sırf dar lobbi maraqlarına xidmət edir. Ekspertlərin fikrincə, qəbul olunan qərarların obyektivliyini şübhə altına alan bu cür praktika Birləşmiş Ştatların hüquq-mühafizə orqanları tərəfindən ciddi surətdə araşdırılmalı və lazımi hüquqi qiymətini almalıdır.

Azərbaycan Respublikasının Milli Məclisi də sözügedən düzəlişi və əsassız ittihamları qətiyyətlə rədd edərək, bunu beynəlxalq hüquq normalarına kobud etinasızlıq və siyasi təzyiq aləti kimi qiymətləndirib: "Sözügedən təşəbbüsün erməni lobbisinin Azərbaycanı gözdən salmaq üçün çoxdan bəri həyata keçirdiyi kampaniya çərçivəsində irəli sürüldüyü aşkardır. Eynilə belə bir çirkin missiyanı Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okampo yerinə yetirir. Onun Rusiyanın erməni mənşəli oliqarxı Samvel Karapetyan da daxil olmaqla, erməni şovinist dairələri ilə bağlı şəxslərin maliyyə yardımı ilə siyasi motivli rəylər hazırladığı beynəlxalq ictimaiyyətə məlumdur".

Milli Məclisin bu məsələyə münasibətində vurğulanır ki, eyni siyasi xətt Avropanın bir sıra parlament qurumlarının, o cümlədən Avropa Şurası Parlament Assambleyasının fəaliyyətində də görünür: "Bu qurumun ayrı-ayrı deputatları, xüsusən Frank Şvabe kimi şəxslər uzun müddətdən bəri Azərbaycan barəsində qeyri-obyektiv və qərəzli təşəbbüslərlə çıxış edirlər. Bütün bu hərəkətlər erməni lobbisinin müxtəlif beynəlxalq parlament platformalarında həyata keçirdiyi dəqiq əlaqələndirilmiş kampaniyanın tərkib hissələridir".

Qeyd olunan düzəlişdə Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər barəsində "hərbi əsirlər" və "siyasi məhbuslar" kimi terminlər işlədilir. Milli Məclisin münasibətində bu halın hiddət doğurduğu vurğulanır: "Bu şəxslər hərbi əsirlər və ya siyasi məhbuslar deyildir. Onlar Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq normaları ilə nəzərdə tutulan hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və digər cinayətlər törətdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilmişlər. Onları siyasi təqibin qurbanları kimi qələmə vermək cəhdləri faktların bilərəkdən təhrif edilməsidir və müstəqil dövlət tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsinə birbaşa müdaxilədir".

Eyni zamanda bu təxribat Türk Dövlətləri Parlament Assambleyasında (TÜRKPA) da kəskin narahatlıq doğurub. TÜRKPA-nın baş katibi Ramil Həsənin yaydığı bəyanatda vurğulanıb ki, sülh quruculuğu prosesinin fəal davam etdiyi bir dövrdə bu cür təşəbbüslərin irəli sürülməsi təəssüf doğurur. Qanunvericilik qərarlarının lobbi maraqlarına deyil, faktlara və beynəlxalq hüquqa əsaslanmalı olduğunu xatırladan TÜRKPA qanunverici orqanları iki ölkə arasında davam edən normallaşma prosesinə mənfi təsir göstərə biləcək addımlardan çəkinməyə çağırıb.

### Bu hücumlar təsadüfi deyil

ABŞ-dəki lobbiçi konqresmenlərin bu hücumları təsadüfi deyil. Bütün bunların sülh prosesinin həlledici mərhələyə qədəm qoyduğu bir vaxta təsadüf etməsi planlı məqsədlərdən xəbər verir.

Məlum olduğu kimi, ötən il iyulun 10-da Azərbaycan və Ermənistan liderlərinin Birləşmiş Ərəb Əmirliyinin Əbu-Dabi şəhərində keçirilən vasitəçisiz ikitərəfli görüşü sülh gündəliyinin irəlilədilməsində dönüş nöqtəsi oldu. Bu müsbət dinamika beynəlxalq aləm tərəfindən yüksək qiymətləndirildi. ABŞ Prezidenti Donald Tramp iki ölkə arasındakı münaqişənin tezliklə və tamamilə həll olunacağına inamını ifadə etdi.

Nəhayət, 2025-ci il avqustun 8-də Vaşinqtonda sülhün təməl addımı atıldı. Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamə imzalandı və sülh müqaviləsinin mətni paraflandı. Sülhün real müstəviyə keçdiyini və tərəflər arasında yekun sənədin imzalanmasına çox az vaxt qaldığını görən ermənipərəst dairələr əllərində olan son təzyiq rıçaqlarını işə salmağa çalışırlar.

Xatırladaq ki, ötən ilin bu günlərində bəzi konqresmenlər ABŞ Prezidenti Donald Trampın administrasiyasına müraciət edərək ermənilərin "Dağlıq Qarabağ"a qayıtmasına dəstək verməsinə çağırmışdılar. Müraciəti ABŞ Konqresində Ermənistanla dostluq qrupunun həmsədrləri Frank Peloni, Qas Bilirakis, Bred Şerman və Devid Valadaonun rəhbərliyi ilə hər iki partiyadan olan konqresmenlər imzalamışdılar. Bu bir daha sübut edir ki, Qarabağdan könüllü şəkildə, heç bir təhlükə olmadan köçən erməni sakinlərin mövzusundan Azərbaycana qarşı təzyiq kartı kimi istifadə olunmağa çalışılır.

Lakin bu "insan hüquqları müdafiəçiləri" nədənsə real tarixi faciələrə göz yumurlar. 1980-ci illərin sonlarında Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 300 min azərbaycanlı ata-baba yurdlarından amansızlıqla qovulub və onların qayıdış hüququ indiyədək təmin edilməyib.

Birinci Qarabağ müharibəsi zamanı işğalçılıq siyasəti nəticəsində 1 milyona yaxın azərbaycanlı öz torpaqlarından didərgin düşüb, kütləvi qətliamlara məruz qalıb. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aşkarlanan kütləvi məzarlıqlar bu vəhşiliyin bariz sübutudur.

İkiüzlü konqresmenlər bu günə qədər bir dəfə də olsun hüquqları pozulmuş 1 milyondan çox azərbaycanlının taleyindən söz açmayıblar.

Bu qərəzli kampaniyaların arxasında duran digər bir məqam isə Azərbaycan ilə ABŞ arasında son dövrlər dinamik inkişaf edən müsbət münasibətlərdir. ABŞ Prezidenti Donald Tramp ilə Prezident İlham Əliyev arasındakı şəxsi dostluq münasibətləri və qarşılıqlı etimad, eləcə də Vaşinqtonun Bakının sülh səylərinə verdiyi xüsusi dəstək erməni lobbisini ciddi şəkildə narahat edir.

Bütün qərəzli addımlara, təzyiq cəhdlərinə və çirkin siyasi oyunlara baxmayaraq, gerçəklik dəyişməz qalır. Cənubi Qafqazda sülhü hədəf alan radikal şovinist planlar boşa çıxmağa məhkumdur. Azərbaycan regionda ədalətə, beynəlxalq hüquqa və davamlı sülhə söykənən yeni reallıqlar yaratmaqda davam edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Azərbaycan-Böyük Britaniya əlaqələri dinamik inkişaf edir



**Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhemə ünvanladığı təbrik məktubu iki ölkə arasında münasibətlərin dinamik inkişafından xəbər verir. Ölkə rəhbərinin də vurğuladığı kimi, Azərbaycan Birləşmiş Krallıqla münasibətlərin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Böyük Britaniya şirkətləri Azərbaycanda həm neft, həm də qeyri-neft sektorunda uğurla fəaliyyət göstərirlər və bu əlaqələr uzun illərdir davam edir. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə Birləşmiş Krallığın şirkətlərinin yer alması və bu gün həmin ərazilərdə aparılan bərpa və quruculuq işlərində yaxından iştirak etmələri ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir.**

**Milli Məclisin deputatı Tural GƏNCƏLİYEV** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan-Birləşmiş Krallıq əlaqələri çox dərin köklərə bağlıdır və iki ölkə arasında münasibətlər ölkəmizin müstəqilliyini hələ yeni qazandığı günlərdən başlayıb. Həmin dövrdən bəri ölkəmizin neft-qazının Avropaya ixracı üçün Böyük Britaniyanın və şirkətlərinin Azərbaycana yatırdıqları investisiyalar, böyük layihələrin - Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, daha sonra "Cənub qaz dəhlizi"nin çəkilməsi, TANAP və TAP layihələrinin inkişaf etdirilməsi, eyni zamanda, Britaniyanın BP kimi böyük şirkətinin on milyardlarla dollar investisiya yatırması əlaqələrimizin nə qədər sıx olduğunu göstərir. "Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı özünəməxsus ölkədir və dünyada güc mərkəzlərindən biri olaraq Azərbaycanla münasibətlərini sırf ikitərəfli konteksdə Avropa İttifaqından, ABŞ-dən ayrı və müəyyən cəhətləri nəzərə almaqla inkişaf etdirir. Böyük Britaniya və Azərbaycan arasında iqtisadi əlaqələrlə yanaşı, siyasi, hərbi və təhlükəsizlik sahələrində də əməkdaşlıqlar illər boyu inkişaf edib. Böyük Britaniya Azərbaycan-Ermənistan münaqişəsinin davam etdiyi və daha sonrakı dövrdə obyektiv, ədalətli mövqe nümayiş etdirən tərəf kimi imic formalaşdırıb və rəsmi Bakı ilə həmişə praqmatik münasibətlər qurmağa çalışıb. Çünki Birləşmiş Krallıq Sovet İttifaqı dağılandan sonra Qafqazın, Xəzər hövzəsinin və bu xüsusda Azərbaycanın dəyərini, strateji vizyonu olan ölkə olduğunu yaxşı anlayırdı. Bu baxımdan Azərbaycanla münasibətlərini məhz o vaxtdan yüksək səviyyədə qurub", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhemə ünvanladığı təbrik məktubu Azərbaycanın yeni hökumətlə də münasibətlərinin yüksək səviyyədə inkişaf edəcəyini göstərir. Bu əlaqələr həmçinin başqa parametrləri də əhatə edir. Parlamentlərarası dostluq qrupları, işçi qruplar öz fəaliyyətini davam etdirir, qarşılıqlı səfərlər, parlamentarilərin fəaliyyəti intensiv xarakter daşıyır.

T.Gəncəliyev bildirib ki, Azərbaycan-Böyük Britaniya əlaqələri həmçinin humanitar, iqtisadi, ticarət, kommunikasiya xətləri baxımından da yüksək səviyyədədir: "Bir sözlə, Britaniya hazırda istər Rusiya-Ukrayna müharibəsi, istərsə də Yaxın Şərqdə - İran ətrafındakı müharibə kontekstində Azərbaycanı böyük Avrasiyanın strateji, ən dəyərli açar ölkəsi kimi görür. Birləşmiş Krallıq Orta dəhlizin, "Şərq-Qərb" marşrutunun önəmini, xüsusilə Azərbaycanın burada oynadığı əsas rolu dəyərləndirir. Xüsusilə postmünaqişə dövründə ölkəmizin yeni reallıq formalaşdırdığını və "orta güc" kimi özünü göstərdiyini bilir. Buna görə də Azərbaycanla ikitərəfli əlaqələrini genişləndirir və möhkəmləndirir".

Deputat yekunda vurğulayıb ki, Böyük Britaniya-Azərbaycan əlaqələrinin genişlənməsi üçün böyük imkanlar mövcuddur və münasibətlər bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan dialoqu təşviq edən bir ölkə kimi mövqeyini möhkəmləndirib

**Geosiyasi qeyri-müəyyənlik və texnoloji transformasiya fonunda beynəlxalq dialoqa ciddi ehtiyac duyulduğu bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev əməkdaşlığı, qarşılıqlı əlaqələri və strateji sabitliyi ardıcıl şəkildə təşviq edən dövlət xadimi kimi ön plana çıxır. Onun IV Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışı təkcə Azərbaycanın artan diplomatik nüfuzunu deyil, həm də konstruktiv qlobal əməkdaşlığa yönəlmiş daha geniş baxışını nümayiş etdirir. Prezident İlham Əliyevin liderliyi dünyanın bir sıra mürəkkəb problemlər olan regional münaqişələr, enerji təhlükəsizliyi, dezinformasiya və süni intellektin yaratdığı çağırışlarla üzləşdiyi bir vaxtda daha da əhəmiyyət qazanıb.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Pakistanın beynəlxalq münasibətlər üzrə eksperti, **"Gulf Observer Research Forum"un sədri Məhəmməd Əli PAŞA** deyib.

Onun sözlərinə görə, beynəlxalq media forumunun keçirilməsi üçün Şuşa şəhərinin seçilməsi dərin rəmzi məna daşıyır. Vaxtilə münaqişənin izlərini daşıyan şəhər bu gün mədəni dirçəlişin, intellektual mübadilənin və beynəlxalq əməkdaşlığın mərkəzinə çevrilir. Bu dəyişiklik Prezident İlham Əliyevin daha geniş inkişaf fəlsəfəsini əks etdirir. Bu, yalnız infrastrukturun deyil, həm də etimadın, milli kimliyin və beynəlxalq tərəfdaşlıqların bərpasıdır.

"Prezident İlham Əliyev süni intellekt dövründə etimadın əhəmiyyətinə xüsusi önəm verdiyini açıqladı. Süni intellekt iqtisadiyyatları, media mühitini və ictimai müzakirələri sürətlə dəyişdirdiyi bir vaxtda beynəlxalq ictimaiyyət mühüm sualla üz-üzədir: texnoloji inkişaf etik məsuliyyət və sosial həmrəyliklə necə uzlaşdırılmalıdır? Prezident İlham Əliyevin şəffaflıq, məsuliyyətli idarəetmə və beynəlxalq əməkdaşlıq yolu ilə etimadın möhkəmləndirilməsinə çağırışı həm aktual, həm də gələcəyə hesablanmış yanaşmadır. Bu yanaşma onu göstərir ki, təkcə texnologiya bəşəriyyətin gələcəyini təmin edə bilməz; hökumətlər, media qurumları və cəmiyyətlər arasında qarşılıqlı etimad həlledici əhəmiyyət daşıyır. Bundan əlavə, Azərbaycanın enerji diplomatiyasındakı rolu da xüsusi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkə Avropa və digər regionlar üçün etibarlı enerji tərəfdaşına çevrilərək qlobal qeyri-sabitlik dövründə enerji mənbələrinin şaxələndirilməsinə və enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə verib. Bu etibarlılıq Azərbaycanın beynəlxalq münasibətlərdə məsuliyyətli tərəfdaş kimi nüfuzunu daha da artırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumət nəqliyyat dəhlizlərinə, rəqəmsal infrastruktura, bərpaolunan enerji layihələrinə və dar milli maraqlardan kənara çıxan regional əməkdaşlıq mexanizmlərinə mühüm investisiyalar yatırıb", - deyə Məhəmməd Əli Paşa qeyd edib.

Ekspertin sözlərinə görə, Şuşa Qlobal Media Forumu jurnalistlər, siyasətçilər, alimlər və texnologiya mütəxəssisləri arasında açıq dialoqdur. İnformasiya məkanının getdikcə daha çox qütbləşdiyi bir dövrdə dərin müzakirələr üçün platformaların yaradılması qlobal qarşılıqlı anlaşmaya dəyərli töhfədir. Prezident İlham Əliyevin bu cür təşəbbüslərə verdiyi dəstək medianın beynəlxalq ictimai rəyin formalaşmasında və demokratik dayanıqlığın gücləndirilməsində artan rolundan xəbər verir.

"Nəticə etibarilə Prezident İlham Əliyevin son beynəlxalq təşəbbüsləri hadisələrə strateji yanaşması və konstruktiv istiqaməti baxımından diqqətəlayiqdir. Dialoqu təşviq etməsi, Şuşanın yenidən qurulmasını yenilənmə rəmzinə çevirməsi, süni intellekt dövründə etimadın vacibliyini vurğulaması və beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə verdiyi töhfələr daha əməkdaşlıqyönümlü və gələcəyə hesablanmış qlobal müzakirələrin formalaşmasına xidmət edir. Dünyanın parçalanmalarla üzləşdiyi bir zamanda qarşıdurmadan çox, körpülər qurmağa üstünlük verən liderlərin yanaşması yüksək qiymətləndirməyə layiqdir", - deyə o əlavə edib.

# "Azərbaycan üzərindən keçən enerji marşrutları Rumıniya üçün strateji əhəmiyyət kəsb edir"

**Qara dəniz regionunda son günlər baş verən hadisələr Rumıniyanın enerji təhlükəsizliyi ilə bağlı uzun illər diqqətdən kənarda qalan problemlərini yenidən gündəmə gətirib. Rumıniyalı siyasi və hərbi analitik Aleksandru QRUMAZ hesab edir ki, mövcud geosiyasi şərait Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artırır və Bakı üzərindən keçən alternativ marşrutların inkişafı artıq strateji zərurətə çevrilir.**




AZƏRTAC xəbər verir ki, bu barədə Rumıniyanın "National" nəşrində dərc olunan məqalədə qeyd olunub.

Aleksandru Qrumaz qeyd edir ki, Rumıniya istifadə etdiyi neftin böyük hissəsini Qazaxıstandan idxal etsə də, həmin neft əsasən Xəzər Boru Kəməri Konsorsiumu (CPC) vasitəsilə Rusiyanın Novorossiysk limanına çatdırılır və oradan Qara dəniz üzərindən Avropaya göndərilir. Onun fikrincə, bu logistika modeli Rumıniyanın enerji təhlükəsizliyini dolayısı ilə Rusiyanın nəzarətində olan infrastrukturdan asılı vəziyyətdə saxlayır.

Analitik bildirir ki, Novorossiysk yaxınlığındakı enerji infrastrukturuna pilotsuz uçuş aparatları ilə hücumlar və Qara dənizdə təhlükəsizlik risklərinin artması enerji bazarının nə qədər həssas olduğunu nümayiş etdirib. Onun sözlərinə görə, söhbət yalnız neft tədarükünün həcminin azalmasından getmir. Belə hadisələr sığorta tariflərinin yüksəlməsinə, dəniz daşımalarının bahalaşmasına, logistikanın ləngiməsinə və nəticədə Avropada enerji qiymətlərinin artmasına səbəb olur.

Qrumaz vurğulayır ki, Qazaxıstanın ən böyük yatağı olan Tengiz təkcə regional deyil, qlobal əhəmiyyət daşıyan enerji layihəsidir. Yatağın əsas səhmdarları sırasında ABŞ-nin "Chevron" və "ExxonMobil" şirkətlərinin yer alması göstərir ki, bu marşrutda yaranan istənilən problem təkcə Rumıniya və Qazaxıstana deyil, ABŞ və Avropa İttifaqının enerji maraqlarına da təsir edir.

Müəllif hesab edir ki, Avropa son illər Rusiya qazından asılılığını azaltmaq istiqamətində mühüm addımlar atsa da, neft nəqli sahəsində hələ də oxşar risklərlə üzləşir. Onun fikrincə, əsas məsələ neftin hansı ölkədən alınması deyil, onun Avropaya hansı marşrutla çatdırılmasıdır. Bu baxımdan enerji dəhlizlərinin təhlükəsizliyi artıq iqtisadi deyil, milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilməlidir.

Aleksandru Qrumaz Azərbaycanın bu prosesdə xüsusi yer tutduğunu vurğulayır. Onun sözlərinə görə, Xəzər dənizi üzərindən Azərbaycanın limanlarına daşınan Qazaxıstan nefti Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Türkiyənin Aralıq dənizi sahillərinə, oradan isə Avropa bazarlarına çatdırıla bilər. Bu marşrut Rusiya ərazisindən yan keçdiyi üçün geosiyasi baxımdan daha etibarlı alternativ hesab olunur.

Analitik qeyd edir ki, Rumıniya da bu yeni geosiyasi reallıqdan istifadə etməlidir. Onun qənaətinə görə, Konstansa limanının imkanlarının artırılması, Qara dənizdə logistika infrastrukturunun modernləşdirilməsi və Azərbaycan üzərindən keçən alternativ marşrutlara inteqrasiyanın gücləndirilməsi Rumıniyanın enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə möhkəmləndirə bilər.

Aleksandru Qrumaz hesab edir ki, Ukraynada davam edən müharibə Avropaya mühüm dərs verib. Əgər enerji təhlükəsizliyi yalnız iqtisadi amillərlə qiymətləndirilsə, gələcəkdə oxşar böhranlar yenidən təkrarlana bilər. Buna görə də enerji siyasəti geosiyasi risklər nəzərə alınmaqla yenidən formalaşdırılmalı, alternativ marşrutların inkişafı isə Avropa üçün prioritet istiqamətlərdən biri olmalıdır".

Qeyd edək ki, son aylarda Azərbaycan ilə Qazaxıstan arasında Xəzər dənizi üzərindən yükdaşımaların artırılması, Orta dəhlizin inkişafı və enerji əməkdaşlığının genişləndirilməsi istiqamətində həyata keçirilən layihələr Avropanın alternativ enerji marşrutlarının formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

# REGİONLAR

## Göygöldə keçirilən V Milli Yaylaq Festivalı iştirakçılara xoş anlar yaşatdı

**Azərbaycanın zəngin yaylaq mədəniyyətini, milli irsini və kənd təsərrüfatı potensialını tanıtmaq məqsədilə Göygöldə V Milli Yaylaq Festivalı keçirilib.**

Rayon icra hakimiyyətinin, Gənclər və İdman Nazirliyinin, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin, Dünya Etnoidman Konfederasiyasının və "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun təşəbbüsü ilə keçirilən festival iştirakçılara əsl bayram ovqatı yaşatmışdır.











"Xan Yurdu" etnoqəsəbəsində keçirilən festivalda iştirakçılar öncə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirələrini birdəqiqəlik sükutla yad etmişlər. Sonra rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov çıxış edərək Göygölün qədim tarixə malik olduğunu diqqətə çatdırmış, Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin irsimizin qorunması, bölgələrimizin sosial-iqtisadi inkişafı və turizm potensialının genişləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən danışmış, mədəni irsimizin təbliği, mədəniyyətimizin beynəlxalq aləmdə tanıdılması və qədim ənənələrimizin yaşadılması istiqamətində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gördüyü işlərdən söz açmışdır.

Sonra gənclər və idman naziri Fərid Qayıbov və Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop və digər natiqlər festivalın əhəmiyyətindən bəhs edərək belə tədbirlərin milli irsin qorunması, mədəniyyətimizin təbliği və turizmin inkişafı baxımından mühüm rol oynadığını qeyd etmişlər. Tədbirin layihə rəhbəri Müzadil Həsənov isə çıxış edərək vurğulamışdır ki, festival ilbəil miqyasını genişləndirərək təkcə yerli qonaqların deyil, eyni zamanda xarici turistlərin də böyük maraq göstərdikləri beynəlxalq platformaya çevrilmişdir.

Sonra əsrarəngiz Xan Yaylağı ərazisində yerləşən "Xan Yurdu " etnoqəsəbəsində V Milli Yaylaq Festivalına start verilmişdir. Festivalda "Xan Çadırı"nda xalçaçılıq sənətinin sərgisi, "Sənətkarlıq guşəsi", milli idman növləri (oxatma, atçılıq, zorxana və sair), etnospor-oxatma məşqləri, uşaqlar üçün guşə, aşıq musiqisi, folklor-tamaşalar, yorğa atların sərgisi, kəndirbazlar, həmçinin "Yaylaq süfrəsi" və sair tematik sahələr nümyiş etdirilmişdir. Festivalda xarici qonaqların çıxışları da maraqla qarşılanmışdır.

Artıq ənənə halını almış Milli Yaylaq festivalları iştirakçılarda təkcə bayram ovqatı yaratmır, eyni zamanda Azərbaycanın zəngin mədəni irsinin gələcək nəsillərə ötürülməsində, bölgələrin turizm potensialının tanıdılmasında və milli dəyərlərin təbliğində mühüm rol oynayır. Bu dəfə də istisna olmadı. 3 gün davam edən 5-ci festivala ölkəmizin müxtəlif regionlarından, həmçinin 20-dən artıq ölkədən çoxsaylı qonaqların qatılması da bunu sübut edir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

**● Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir**

## Hədəf bəlli, məqsəd aydındır

**Yevlaxın yerləşdiyi coğrafiya ölkəmiz üçün strateji əhəmiyyətə malikdir. Ölkə iqtisadiyyatının şah damarları sayılan, qiymətli yeraltı sərvətimizi Avropa bazarına çıxaran boru kəmərləri, eyni zamanda beynəlxalq statuslu dəmir yol xətləri və avtomobil yolları məhz Yevlaxda kəsişir.**





Təbii ki, bu, Yevlaxın sosial-iqtisadi çəkisini əhəmiyyətli dərəcədə artırır, bölgəyə davamlı və yetərli dövlət dəstəyinin olmasını zərurətə çevirir. Bu dəstək Yevlaxın sosial-iqtisadi inkişafına təkan verir, rayon əhalisinin güzəranını, həyat səviyyəsini aydan-aya, ildən-ilə yaxşılaşdırır.

Yevlax bir kənd təsərrüfatı rayonu olaraq da böyük iqtisadi potensiala, güclü əmək ehtiyatlarına malikdir. Son illər mövcud potensialdan maksimum səmərəli istifadə etmək üçün həyata keçirilən tədbirlər gözlənilən nəticələri verir. Torpaq resurslarından, su ehtiyatlarından, qabaqcıl təcrübədən, mütərəqqi texnologiyadan bacarıqla istifadə edilməsi hesabına rayonun təsərrüfatlarında məhsul istehsalı dinamik artır, torpaq istifadəçilərinin gəliri yüksəlir.

İndi Yevlax kəndlisinin qayğılı günləridir - təsərrüfat işlərinin qızğın çağıdır. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr, dövlət başçısının mayın 25-də keçirilən müşavirədə verdiyi tapşırıq və tövsiyələr rayon fermerlərinin konkret fəaliyyət proqramına çevrilib. Aqrar sektorun yeni inkişaf istiqamətlərini müəyyən edən dövlət proqramı kənd təsərrüfatında məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, mövcud torpaq və su ehtiyatlarından daha səmərəli istifadə etməklə yeni əmək nailiyyətləri qazanmağı, süfrəmizi maddi nemətlərlə daha bol təmin etməyi zamanın təxirəsalınmaz vəzifəsi kimi qarşıya qoyur. Bu aydın məqsəd uğrunda çalışan Yevlax kəndlisinin ilk addımları uğurludur. Rayonun taxılçıları cari ilin məhsul yığımı kampaniyasını uğurla başa çatdırıblar. Zəmilərin bol məhsulu bir sünbül belə itkiyə verilmədən tədarük olunub. Buğda sahələrinin orta məhsuldarlığı 38 sentner təşkil edib. Ayrı-ayrı fermerlər daha çox məhsuldarlığa nail olublar. Üçüncü dərəcəli "Əmək" ordenli fermerlər Telman Novruzov və Sahib Məmmədov, fermer Asif Mikayılov taxıl zəmilərinin hər hektarından orta hesabla 50-55 sentner taxıl biçiblər.



İndi rayonun pambıq tarlalarında becərmə işləri aparılır. Fermerlər bu il 2953 hektarda pambıq əkmişlər. Keçən il 11827 ton pambıq istehsal etmiş pambıqçılar hər hektardan 35,8 sentner məhsul toplamışlar. Bu mövsüm isə məqsəd məhsuldarlığı əhəmiyyətli dərəcədə artırmaqdır.

Yevlaxda pambıqçılıq, taxılçılıq və heyvandarlıqla yanaşı, intensiv bağçılığın inkişafına da böyük önəm verilir. Artıq bu sahədə etibarlı bünövrə qoyulmuşdur. Yevlax Pilot Aqroparkı çox gəncdir. 2025-ci il iyunun 23-də Prezident İlham Əliyev aqroparkın açılışında iştirak etmiş, burada mütərəqqi texnologiya əsasında yaradılmış yeni təsərrüfat sahəsində görülmüş işləri yüksək dəyərləndirmiş, intensiv bağçılığı daha da genişləndirmək, onun ixrac potensialını gücləndirmək üçün tapşırıq və tövsiyələrini vermişdir. Aqropark Aran qəsəbəsinin ərazisində yerləşir və bütövlükdə 2807,6 hektar sahəni əhatə edir. Təsərrüfatın qurulmasına ümumilikdə 58,3 milyon manatadək özəl investisiya qoyulmuşdur. 160 nəfərin daimi, 519 nəfərin mövsümi işdə çalışdığı aqroparkda artıq meyvə bağlarının xeyli hissəsi bara düşüb. Meyvə tutumları da qənaətbəxşdir. İlk olaraq keçən il bazara 400 ton şaftalı, 600 ton nektarin, 200 ton ərik, 5 ton alça, 5 ton gilas çıxarılmışdır.

Aqroparkın rəhbərliyi intensiv bağ sahələrini genişləndirməyə böyük maraq göstərir. 172 hektarda nar, 65 hektarda badam, 33 hektarda xurma, 28 hektarda zeytun, 4 hektarda yeni mavigilə bağları salınmışdır. Yayın bu isti günlərində ağaclar su sarıdan korluq çəkmir. Ərazidə inşa olunmuş tutumu 40 min kubmetr olan su anbarı ağacların suya olan tələbatını yüksək səviyyədə ödəyir, həm də mütərəqqi texnologiya olan damcı suvarma üsulu ilə.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" hər bir regionun, hər bir rayonun spesifik xüsusiyyətləri nəzərə alınaraq həyata keçirilir. Son illər kənd təsərrüfatı məhsulları istehsalının dinamik artımında əhəmiyyətli irəliləyişə nail olan yevlaxlılar qarşıdakı 5 ildə nailiyyətlərini daha da artırmaq əzmindədirlər. Şəhər icra hakimiyyətinin başçısı Anar Tağıyev söhbət zamanı yeni proqramın ölkə, o cümlədən Yevlaxın iqtisadiyyatı üçün əhəmiyyətini vurğuladı. Bildirdi ki, qarşıdakı beş ilin vəzifələri aydın və şərəflidir: "Mövcud torpaq və su resurslarından, əmək ehtiyatlarından maksimum səmərəli istifadə etməklə, eyni zamanda qabaqcıl təcrübədən, mütərəqqi texnologiyalardan bacarıqla bəhrələnməklə yüksək nəticəni təmin etməliyik. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin mayasında qeyri-neft sektorunun dinamik inkişafını təmin etməklə ölkə iqtisadiyyatını daha da gücləndirmək, kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, ixracını genişləndirmək və buna paralel olaraq xalqın həyat firavanlığına, xoş güzaranına nail olmaq istəyi dayanır. Qarşıdakı dövr ərzində görüləcək işlərimiz çoxdur. Hədəflərimiz də məlumdur. Torpaq xalqımızın əvəzolunmaz sərvətidir. Onun qorunması və ondan səmərəli istifadə olunması hər zaman diqqət mərkəzində olmalıdır. Suvarma suyundan daha səmərəli istifadə mexanizmini inkişaf etdirmək əzmindəyik. İntensiv meyvə bağlarının genişləndirilməsi, yeni istixana komplekslərinin yaradılması, taxıl və pambıq əkinlərində yüksək məhsuldarlığa nail olunması hədəflərimiz sırasındadır. Heyvandarlıq məhsulları istehsalının artırılması, emal sahəsinin inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi də fəaliyyət proqramımızın tərkibinə daxildir. Heç şübhəsiz, dövlətin dəstəyindən güc alan yevlaxlılar yeni dövlət proqramında qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün əllərindən gələni əsirgəməyəcəklər.

*Lazım QULİYEV,*
*"Azərbaycan".*

## Qusar: yerli fermer və sahibkarların təklifləri nəzərə alınacaq

**Qusar Rayon İcra Hakimiyyətində növbəti şura iclası keçirilib. İclasın gündəliyində Prezidentin təsdiq etdiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı rayon üzrə tədbirlər planının hazırlanmasında yerli fermer və sahibkarların iştirakı məsələsi dururdu.**





Giriş sözü ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov bildirdi ki, yeni dövlət proqramı aqrar sahənin dayanıqlı inkişafının təmin olunması, istehsal və emal zəncirinin gücləndirilməsi, eləcə də regionlarda məşğulluğun artırılması baxımından strateji əhəmiyyət daşıyır. Diqqətə çatdırıldı ki, proqramın əsas hədəfləri ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılması, müasir texnologiyaların tətbiqi, ətraf mühitin qorunması, aqrar sahədə maliyyə əlçatanlığının və sığorta mexanizmlərinin təkmilləşdirilməsi, eyni zamanda balıqçılıq və akvakultura sahəsinin potensialının reallaşdırılması, bu sahədə yeni istehsal və emal müəssisələrinin yaradılması da prioritet istiqamətlər sırasındadır. Qusarın iqlim şəraiti və təbii resurslarının aqrar sahənin inkişafı üçün geniş imkanlar yaratdığını deyən S.Məmmədxanov qeyd etdi ki, rayon icra hakimiyyəti olaraq dövlət proqramından irəli gələn bütün vəzifələrin vaxtında və keyfiyyətlə icrası təmin ediləcək, sahibkar və fermerlərlə mütəmadi görüşlər keçiriləcək, onların təklif və müraciətləri nəzərə alınacaq.

Sonra rayon icra hakimiyyəti başçısı aparatının sosial-iqtisadi məsələlər, informasiya təminatı və təhlili sektorunun müdiri İkram Tumarxanov çıxış etdi. Bildirildi ki, proqramda sahənin gələcək inkişafı üçün əsas strateji məqsədlər, hədəf və prioritet istiqamətlər müəyyən edilib və ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi, daxili istehsal potensialının və məhsuldarlığın artırılması, ixracyönümlü məhsul istehsalının genişləndirilməsi, innovasiya və rəqəmsal texnologiyaların tətbiqi, insan kapitalının inkişaf etdirilməsi proqramın əsas hədəflərindəndir: "Qusar kənd təsərrüfatı ixtisaslı rayon olduğundan bu proqram yerli fermerlər üçün xüsusi əhəmiyyət kəsb edir. Odur ki, proqramdan irəli gələn vəzifələrin rayon səviyyəsində icrasını əlaqələndirmək və səmərəli təşkil etmək məqsədilə rayon icra hakimiyyəti başçısının sərəncamı ilə 21 üzvdən ibarət qərargah yaradılıb".

Qeyd edildi ki, rayonda bitkiçilik üzrə ixtisaslaşma istiqamətləri nəzərə alınmaqla təsərrüfatlar və sahibkarlar üzrə mövcud əkin sahələri, məhsuldarlıq və illik istehsal göstəriciləri təhlil ediləcək. Yeni əkin sahələrinin salınması, bu məqsədlə nəzərdə tutulan investisiyaların həcmi, eləcə də gələcək dövr üçün məhsuldarlıq üzrə hədəf göstəriciləri müəyyənləşdiriləcək. Həmçinin təsərrüfatlar üzrə heyvanların baş sayı, istehsal olunan məhsulun həcmi, artırılması planlaşdırılan damazlıq və cins mal-qaranın sayı, yeni yaradılması nəzərdə tutulan heyvandarlıq və quşçuluq təsərrüfatları, bu sahəyə qoyulacaq investisiyaların həcmi barədə məlumatlar toplanacaq. Tədbirlər planında rayon ərazisində yaradılması nəzərdə tutulan emal müəssisələrinin fəaliyyət istiqamətləri, tələb olunan xammal ehtiyatları, istehsal gücü, yaradılacaq yeni iş yerlərinin sayı və qoyulacaq investisiyanın həcmi öz əksini tapacaq.

Çıxış edən Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rauf Minhacov isə rayonun kənd təsərrüfatı sahəsində son illər əldə olunmuş nəticələr, əsas iqtisadi göstəricilər, həyata keçirilən layihələr və mövcud problemlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, müasir aqrotexniki yanaşmaların tətbiqi və fermerlərin maarifləndirilməsi istiqamətində görülən işlər kənd təsərrüfatının inkişafına mühüm töhfə verib. Kənd təsərrüfatı sahəsində zəngin təcrübəyə və yüksək istehsal potensialına malik olan Qusar rayonu proqramda müəyyən edilmiş hədəflərin uğurla həyata keçirilməsi üçün bütün imkanlara malikdir.

R.Minhacov xüsusilə rayonun meyvəçilik, heyvandarlıq və digər kənd təsərrüfatı sahələri üzrə ixrac potensialının daha da artırılmasının vacibliyini vurğuladı. Qeyd olundu ki, Qusarda kənd təsərrüfatına yararlı torpaq sahələrinin ümumi həcmi 84700 hektardır. Bunun 35500 hektarını əkinəyararlı torpaqlar, 29398 hektarını suvarılan sahələr təşkil edir. Hazırda rayonda kənd təsərrüfatı sahəsində 19600 nəfər çalışır ki, onlardan 14700 nəfəri bitkiçilik, 4900 nəfəri heyvandarlıq sahələrində fəaliyyət göstərir. Son illər rayon üzrə istehsal edilən ümumi məhsulun dəyərində kənd təsərrüfatının payı 53-55 faiz təşkil edib. Bu göstərici aqrar sahənin rayonda aparıcı sahələrdən biri olduğu deməkdir. Son dövrlər rayonda əsas inkişaf meyvəçilik və bitkiçilik sahələrində müşahidə olunub. Amma heyvandarlıq sahəsində müəyyən azalma qeydə alınıb. Belə ki, heyvandarlıq məhsullarının istehsalında rayonun ölkə üzrə xüsusi çəkisi 1,04 faizdən 0,96 faizə enib.

DAİM direktoru rayon ərazisində fəaliyyət göstərən fermerləri, sahibkarları və aqrar sahə mütəxəssislərini dövlət proqramının icrasında fəal iştirak etməyə çağırdı. Bildirdi ki, proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi təkcə istehsalçıların gəlirlərinin artmasına deyil, həm də ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, daxili bazarın keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına və dövlət iqtisadiyyatının inkişafına mühüm töhfə verəcək.

İclasda "İSFA" MMC-nin direktoru Samir Xeyirbəyov da çıxış etdi. O, rəhbərlik etdiyi müəssisə tərəfindən rayonda həyata keçirilməsi nəzərdə tutulan investisiya layihələri barədə məlumat verdi: "Müəssisəmiz Qusarda müasir tingçilik təsərrüfatı yaratmağı planlaşdırır. Layihə çərçivəsində ildə yüksəkkeyfiyyətli 2 milyon tingin istehsalı nəzərdə tutulub. İstehsal olunacaq tinglər ilk növbədə yerli fermer və sahibkarlara veriləcək. Eyni zamanda müəssisəmiz tərəfindən ölkəyə müasir damcı suvarma sistemlərinin gətirilməsi və onların peşəkar quraşdırılması üçün müvafiq baza və xidmət mərkəzinin yaradılması da planlaşdırılır. Bu təşəbbüs suvarma suyundan səmərəli istifadəni təmin etməklə yanaşı, kənd təsərrüfatı məhsullarının məhsuldarlığının artmasına və istehsal xərclərinin optimallaşdırılmasına xidmət edəcək".

"Mucuq AGRO" MMC-nin təsisçisi, sahibkar Jalə Əmirbəyova və "El Fruits" MMC-nin təsisçisi Elçin Həsrətov da çıxış edərək nəzərdə tutulan layihələr və görüləcək işlər barədə geniş məlumat verdilər.

Şura iclasının yekununda sahibkarların sualları cavablandırıldı və gündəlikdə duran məsələlərlə bağlı müvafiq qərar layihəsi qəbul olundu.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● "Şəhərsalma və Memarlıq İli"

# Xəzərin qoruduğu Bayıl qalası

**Xəzər dənizi min illərin və bu illər ərzində mədəniyyətlərin və talelərin şahididir. Əsrlər boyu sahillərində şəhərlər yaranıb, qalalar ucalıb. Bəzən dalğaları ilə insan əlinin yaratdığı möhtəşəm abidələri sınağa çəkib, bəzən isə onları öz qoynuna alaraq əsrlərin sükutuna qərq edib. Qədim Bayıl qalası da belə sirli abidələrdəndir.**



Suların altında qorunan bu qədim abidə Azərbaycanın şəhərsalma mədəniyyətinin, memarlıq düşüncəsinin və tarixi yaddaşının nadir nümunələrindən biridir. Mənbələrdə "Sualtı şəhər", "Bayıl daşları", "Səbayıl qalası", "Karvansara", "Xanəgah", "Kömrükxana" və başqa adlarla qeyd olunsa da, elmi ədəbiyyatda daha çox "Bayıl qəsri" kimi tanınır.

Tədqiqatlarda bir kitabə daşında Bayıl qəsrinin "Bəndər qələ" adı ilə verilməsi faktı da var. Mənasının liman qala olduğu bu adın Bayıl qalasının əsas funksiyalarından birini aydınlaşdırdığı qeyd edilir. O da bildirilir ki, bütövlükdə Bayıl qəsri Şirvanşahların yeni paytaxt şəhəri yanında iqamətgahı olub. Belə ki, Şamaxı qalasının müdafiəsində Gülüstan qalasının yerinə yetirdiyi funksiyanı Bakı qalasının müdafiəsində də Bayıl qalası həyata keçirib.

Azərbaycan tarixində mühüm dövrlərdən biri olan Şirvanşahlar dövlətinin hakimiyyəti illərində Bakı Xəzər sahilində yerləşən mühüm şəhərlərdən birinə çevrilmişdi. Şəhərin əlverişli coğrafi mövqeyi onun iqtisadi və siyasi əhəmiyyətini artırırdı. Orta əsrlərdə şəhərlərin inkişafında müdafiə məsələsi böyük əhəmiyyət daşıyırdı. Şəhər yalnız yaşayış yeri deyil, həm də dövlətin gücünü, ticarət yollarını və əhalinin təhlükəsizliyini qoruyan mühüm mərkəz sayılırdı. Bayıl qalasının tikilməsi də bu mənada böyük əhəmiyyət kəsb edirdi. Xəzər sahilində inşa edilən bu möhtəşəm istehkam Bakının dəniz tərəfdən müdafiəsində mühüm rol oynayırdı. Qalanın yerləşdiyi ərazi xüsusi strateji əhəmiyyət daşıyırdı. Buradan dəniz yollarına nəzarət etmək, sahilə yaxınlaşan gəmiləri izləmək və şəhərin liman təhlükəsizliyini təmin etmək mümkün idi.

Bayıl qalası yalnız daş divarlardan ibarət müdafiə qurğusu deyil, eyni zamanda Azərbaycanın Orta əsr şəhərsalma düşüncəsinin, memarlıq sənətinin və Bakının qədim tarixinin daşlara həkk olunmuş yaddaşıdır. Məlumata görə, Bayıl qalasının cənub qapısı və qarşısındakı tikililər dəniz ticarəti ilə bağlı olduğu halda sahilə yaxın şimal qapısı və qarşısındakı tikililər Şirvanşahların iqamətgahı olub. Qəsrin ortasında daş döşəməli meydançada monumental bir tikilinin özülü aşkar edilib. Araşdırmalarda həmin yerdə Abşeron qalalarına xas tipdə bir qüllənin ucaldığı bildirilir. Tədqiqatçıların əksəriyyətinin qənaətincə, bu atəşgah və ya məbəd qalıqlarıdır.

Belə ehtimallar da irəli sürülür ki, XII-XIII əsrlərdə möhkəm qəsr, qala liman olaraq inşa edilən, Bakının dənizdən qorunmasında müstəsna yer tutan Bayıl qəsri daha qədim bir memarlıq kompleksinin özülləri üzərində ucaldılıb. Onun inşasına 1234-cü ildə başlandığı mənbələrdə təsdiqini tapıb. Tikinti işləri 1235-ci ildə başa çatıb. Monqol yürüşləri bütün Yaxın Şərqi lərzəyə saldığı illərdə bu möhtəşəm qalanı inşa edənlər onun tarixin sınaqlarına tab gətirəcəyinə, əzəmətlə dayanacağına ümid edirdilər. Ancaq 1306-cı ildə baş vermiş güclü zəlzələdən sonra qala yerləşdiyi ərazi ilə birlikdə su altında qalıb.

Bayıl qəsri əsrlər boyu su altında qalsa da, dəniz bu möhtəşəm abidəni tarixdən silinməyə qoymayıb. Mütəxəssislərin əksəriyyəti bu qənaətdədirlər ki, 400 ildən çox Xəzər suları altında qalmasaydı, Abşeronun bir çox abidəsi kimi, Bayıl qalasının da izi belə olmayacaqdı.

Xəzər dənizinin səviyyəsinin yenidən xeyli enməsi Bayıl qəsrinin su üzündə görünməsinə səbəb olub. Lakin elm aləmi uzun müddət idi ki, Xəzərin dibində belə bir qəsrin olmasından xəbərdar idi. Hələ 1782-ci ildə Bakı limanının ruslar tərəfindən tərtib edilmiş xəritəsində "Bayıl daşları"nın sudan çıxmağa başladığı qeyd olunmuşdu. 1848-ci ildə Bakıda olmuş görkəmli rus şərqşünası İ.N.Berezin və Azərbaycanın görkəmli alimi Abbasqulu ağa Bakıxanov da Bayıl tərəfdə dənizin içərisindəki tikinti qalıqları barədə məlumat vermişlər.

Lakin Bayıl qalasının əsl elmi kəşfi XX əsrdə mümkün oldu. Arxeoloqların apardığı araşdırmalar nəticəsində məlum oldu ki, dənizin dibində, sadəcə, ayrı-ayrı daş parçaları deyil, bütöv bir memarlıq kompleksinin qalıqları var. 1939-1969-cu illərdə qəsrin ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində divar uçuqları altından və su dibindən 700-dən çox yazılı daş tavalar çıxarıldı. Nadir monumental xəttatlıq və heykəltaraşlıq əsərləri olan həmin dərin oymalı daş tavaları mütəxəssislər nəhəng tikinti kitabəsinin ayrıntıları hesab ediblər. Bildirilib ki, onlar ilk çağda divar hörgüsündə yanaşı düzülərək qala divarlarının bayır səthində uzun kitabə qurşağı əmələ gətirib.

Abidənin dövrünü təsdiq edən materiallar da əldə edilib. Bəzi daşların üzərində hicri 632-ci il tarixi yazılıb ki, bu da miladi 1232-1235-ci illərə müvafiqdir. 1939-cu ildə ərazidə üzərində Şirvanşah Güştasp Fərruxzadə və Xəlif əl-Nəsirin (1180-1225) adları həkk olunmuş mis pullar aşkarlanıb.

Bayıl qalası öz dövrünün yüksək memarlıq və mühəndislik səviyyəsini göstərən abidələrdən biridir. Onun tikintisində istifadə olunan materiallar, divarların quruluşu və bədii işləmələr XIII əsr Azərbaycan memarlığının imkanlarını nümayiş etdirir. Dərbənd qalası, Şamaxı qalası, Bakı qalası, Gülüstan qalası və Qəley-Buğurt qalasında olduğu kimi, Bayıl qalasının memarlıq tərtibatında da bədii daş relyeflər, yonma daş fiqurlardan istifadə olunub. Araşdırıcılar Bayıl qəsrinin daş kitabələrində 15 Şirvanşahın adını, tikinti tarixlərini oxumaqla bərabər, başqa mühüm məlumatlar aşkarlayıblar. Daş kitabələrdən Mərdəkan qalasında "müəllif qolu" olan memar Əbdülməcid Məsudoğlunun, ustad Zeynəddin Əburəşid oğlu Şirvaninin adları oxunub.

2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunması Bayıl qalası kimi nadir memarlıq incilərimizin yenidən öyrənilməsi, qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Xalqın bu günü və gələcəyi onun keçmişinə göstərdiyi ehtiramdan başlayır. Milli yaddaşı qorumaq, tarixi irsi öyrənmək və onu gələcək nəsillərə ötürmək hər bir xalqın mənəvi borcudur. Əsrlərin sınağından keçərək Xəzərin qoynunda qorunan Bayıl qalası da Bakının qədim tarixindən, zəngin memarlıq irsindən xəbər verən nadir daş salnamələrindən biridir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Elbəy Rzaquliyev – 100

# Ürəyi ilə yaradan rəssam



**Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi, kino rəssamlığı, rəngkarlıq və qrafika sahələrinin özəlliklərini və incəliklərini xüsusi məharətlə birləşdirməyi və kamil sənət nümunələri yaratmağı bacaran Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyevin bu il 100 yaşı tamam olur.**

Bu yaxınlarda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin təşkilatçılığı ilə Azərbaycan Milli İncəsənət Muzeyində incəsənət xadiminin 100 illik yubileyinə həsr olunmuş "Elbəy Rzaquliyev: Ürəyi ilə yaradan rəssam" adlı fərdi yubiley sərgisi açılmışdır. Sərgidə muzeyin fonduna, Azərbaycan Dövlət Rəsm Qalereyasının və rəssamın ailəsinin kolleksiyasına məxsus 100-ə yaxın əsəri nümayiş olunur. Sərgi avqust ayının sonunadək ziyarətçilərin ixtiyarında olacaq.



Elbəy Rzaquliyev 1926-cı ildə Bakı şəhərində anadan olub. Atasının dövrünün sənət adamları ilə tanışlığı və münasibətləri balaca Elbəydə lap kiçik yaşlarından sənətə xüsusi maraq oyadıb. E.Rzaquliyev 1946-cı ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirdikdən sonra, təhsilini Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda davam etdirmişdir. Orada rəssam dövrünün tanınmış incəsənət xadimləri və pedaqoqları olan Q.Şeqal, F.Pimenov, M.Boqdanov və A.Dixtiyardan kino rəssamlığı sənətinin incəliklərini öyrənmişdir. Təhsilini başa vurub vətənə dönən gənc rəssam 1953-cü ildən başlayaraq C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərmişdir. Rəssam həmçinin ictimai vəzifədə də çalışmışdır. O, Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin katibi seçilmiş, on ildən artıq (1977-1987-ci illər) bu vəzifədə işləmişdir.

E.Rzaquliyevin çoxşaxəli yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, o, Əməkdar incəsənət xadimi (1964) və Xalq rəssamı (1977) fəxri adlarına, eləcə də SSRİ Rəssamlıq Akademiyasının diplomuna (1974), Dövlət mükafatı (1986) və müstəqillik illərində Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə "Şöhrət" ordeninə (1998) layiq görülmüşdür.

E.Rzaquliyevin yaratmış olduğu sənət tabloları bir çox muzey, qalereya və şəxsi kollekiyada saxlanılır. Onun 1960-cı ildə "Meksikada", 1965-ci ildə "Şərq ölkələrində" adlı sərgiləri Bakıda və Moskvada keçirilmişdir. 1967-ci ildə Moskvada və Kaunasda, 1989-cu ildə Moskvada, 2006-cı ildə isə Bakıda əsərlərindən ibarət fərdi sərgiləri təşkil olunmuşdur. Rəssam dəfələrlə xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində olmuşdur. Bunların sırasında Meksika, Rumıniya, İtaliya, Hindistan, Tailand, Yaponiya, ABŞ, Türkiyə, Suriya, Yəmən, Küveyt, İordaniya, Hindistan, İsveçrə, Nepal, Lüksemburq, Almaniya və digər ölkələr var.

İstedadlı kino rəssamı kimi E.Rzaquliyev bir çox filmə bədii quruluş vermiş, obrazların geyim eskizlərini hazırlamışdır. Nə qədər qəribə görünsə də, indi də sevə-sevə izlədiyimiz bədii filmləri seyr edən tamaşaçı nədənsə həmin filmlərin daha gözəl baxılmasına və süjet xətlərinin açılmasına xidmət edən məkanın seçilməsi və ya hazırlanması, eləcə də obrazların filmin ideya qayəsi ilə səsləşən geyim eskizləri və s. cəhətdən dolğun alınmasında gərgin yaradıcılıq əməyi sərf edən filmin quruluşçu rəssamının yaradıcılıq əməyini yada salmır və ya unudur. Filmin ərsəyə gəlməsində sadalanan xüsusiyyətləri nəzərə almasaq, rejissordan heç də az yaradıcılıq əməyi sərf olunmayan rəssamın o zaman işinin nədən ibarət olduğuna aydın təsəvvür yaranar. Təbii ki, E.Rzaquliyev kino rəssamı idi və onun əsasən bədii filimlərdəki yaradıcılıq uğurları və bir çox filmə vermiş olduğu bədii quruluş həlli rəssamın hərtərəfli elmi-bədii yaradıcılıq potensialına və güclü yaradıcılıq dünyasına malik olmasından irəli gəlirdi.



Rəssamın üzərində çalışdığı filmlərə "Onun böyük ürəyi" (1958), "Ögey ana" (1958) (Məmməd Hüseynovla birgə), "Telefonçu qız" (1962), "Möcüzələr adası" (1963), "Arşın mal alan" (1965), "Uşaqlığın son gecəsi" (1968), "Sevil" (1970), "Fitnə" (1970), "Gün keçdi" (1971), "Skripkanın sərgüzəşti" (1972), "Sözsüz mahnı" (1972), "Dənizə çıxmaq qorxuludur" (1973), "Bakıda küləklər əsir" (1974), "Tütək səsi" (1975), "Arxadan vurulan zərbə" (1977), "Vulkana doğru" (1977), "Yarımçıq qalmış mahnı" (1979), "Onun bəlalı sevgisi" (1980), "Musiqi müəllimi" (1983) və eləcə də başqa müəlliflərlə birgə bədii quruluş verdiyi digər filmləri qeyd etmək olar. Təkcə onu söyləmək kifayətdir ki, müəllifin coşğun yaradıcılıq eşqi ilə bədii tərtibat verdiyi filmləri seyr etməklə rəssamın hansı yaradıcılıq proseslərindən keçərək və gərgin axtarışlarının hesabına ərsəyə gətirdiyi səhnələrin bədii tərtibatının əsl estetik zövq mənbəyi olduğunu görə bilərik.

E.Rzaquliyev kino rəssamlığı ilə bərabər, gözümüzü oxşayan çoxsaylı rəngkarlıq və qrafika nümunələri yaratmışdır. Rəssamın yaradıcılığında əsərlərinin bir çoxunun, hətta seriyalarının mövzusu sovet ideoloji xəttinin təsiri ilə yaradılmasına baxmayaraq, həmin əsərlər texniki işlənilmə xüsusiyyətləri baxımından və mövzunun ustalıqla şərhinə görə bu gün də diqqəti cəlb edir. E.Rzaquliyevin Abşerona həsr etdiyi əsərləri var ki, onlar bədii təhlil və sənətkarlıq nöqteyi-nəzərindən yüksək qiymətə layiqdirlər. Sənətkarın rəngkarlıq əsərlərinə misal olaraq, "Şirvanşahlar sarayı" (1972), "Mavi eyvan" (1974), "Bakıda qədim küçə" (1974), "Abşeronda" (1974), "Abşeronda qədim hamam" (1974), "Abşeron" (1975), "Üzeyir Hacıbəylinin dünyası" (1976), "Mirzə Ələkbər Sabir" (1977), "Novruz bayramı" (1987), "Adsız" (1991) və sairə qeyd etmək olar.

E.Rzaquliyev İçərişəhərdə dünyaya göz açmış, Abşeronda böyüyüb, boya-başa çatmışdı. Onun yaddaşına hopmuş İçərişəhərin nostalјı xatirələri və Abşeron təbiətinin füsunkar mənzərələri bu insanın yaradıcılığında qırmızı xətt kimi keçir. Hətta rəssam natürmortlarında da bu incəlikləri xüsusi məhəbbətlə tərənnüm edib. Gülləri, onların rəng keçidlərini, təravətini, incəliyini və yaratdıqları auranı incə rəssam qəlbi ilə duyaraq təsvir edirdi. Onun yaradıcılığında natürmort janrı xüsusi yer tutur. "Qumlar fonunda kuzə" (1977), "Qırmızı və ağ qızılgüllər" (1978), "Ağ qızılgüllər" (1978), "Qərənfillər" (1978), "Bənövşələr və qərənfillər" (1978), "Şərq natürmortu" (1983), "Şərq silahları" (1985), "Qızılgüllər" (1986) və başqalarını buna nümunə göstərmək olar.

E.Rzaquliyev dünyanın hansı ölkəsində olmasına baxmayaraq, ölkənin mədəniyyətini dərindən müşahidə edərək onun rəssamlıq ənənələrinə uyğun sənət inciləri yaratmağa çalışmışdır. Buna nümunə olaraq rəssamın "Meksika silsiləsindən" (1959-1960) "Meksikalı qizlar", "Meydanda", "Meksikalılar kilsə önündə", "Ərəb silsiləsindən" (1965-1966) "Məscid", "Yəmənli əsgər", "Suriyada kənd", "Ömər məscidi önündə", "Qırmızı çalmalı ərəb", "Ədəndə səhər namazı", "Yerusəlimdə məscid", "Hindistan silsiləsindən" (1977-1978) "Hindistan memarlıq abidəsi", "Dehli", "Tac-Mahal", "Yaponiya silsiləsindən" "Fudzyama dağı", "Atelyedə", "Çətirlər. Nikkedə yağış" və başqa ölkələrə həsr edilmiş rəngkarlıq və qrafika əsərlərini göstərmək olar. Sadalanan əsərlərin hər biri yüksək bədii estetik mahiyyəti, texniki işlənilmə xüsusiyyətlərinə görə və mükəmməlliyi ilə nəzər-diqqəti cəlb edir.

E.Rzaquliyev görkəmli rəssam kimi onu tanıyan sənət adamlarının və dostlarının xatirində hörmətlə yad olunur. Düşünürük ki, rəssam özünün uğurlu yaradıcılıq dünyası ilə həmişə sənət adamlarının və sənətsevərlərin yaddaşlarında yaşayacaq.

*Əsəd QULİYEV,*
*sənətşünas, Azərbaycan Rəssamlar İttifaqının üzvü*

# "Dream Fest - 2026" möhtəşəm konsert proqramı atəşfəşanlıqla başa çatıb

**Xəzər dənizinin sahilindəki "Sea Breeze" kurort şəhərində bir neçə gün ərzində dünyanın tanınmış ifaçılarını və minlərlə musiqisevəri bir araya gətirən "Dream Fest - 2026" beynəlxalq musiqi festivalı başa çatıb.**



AZƏRTAC xəbər verir ki, əvvəlki tədbirlərdə olduğu kimi, festivalın yekun axşamı da artistlərin qırmızı xalçadan keçməsi ilə başlayıb. Sonra tamaşaçılara möhtəşəm konsert proqramı təqdim edilib.

Festival zamanı müxtəlif janrları təmsil edən və fərqli nəsillərə aid olan ifaçılar "Dream Fest"in səhnəsinə çıxıblar. Onların arasında EMIN, JONY, Emre Altuğ, Alessandro Safina, Stas Mixaylov, John Newman, Ani Lorak, Jah Khalib, Merab Amzoevi, ANDRO, Ellai, Aygün Kazımova, Yeqor Krid, "Busta Rhymes", "Ty Dolla $ign", Cheb Khaled, EDIS, Zeynep Bastık, "Artik & Asti", Lyusya Çebotina və bir çox başqası var idi. İfaçıların çıxışları canlı səhnə quruluşları, musiqili premyeralar, birgə nömrələrlə müşayiət olunub və tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.

Ümumilikdə "Dream Fest - 2026"da Azərbaycandan və xaricdən 50-dən çox sənətçi çıxış edib. Konsert proqramından əla və, festivala yaradıcı ünsiyyət və beynəlxalq mədəni mübadilə platforması rolunu oynayan bir sıra mədəni tədbirlər də daxil idi.

"Dream Fest - 2026" beynəlxalq musiqi festivalı iyulun 23-26-da tarixdə Xəzər dənizinin sahilindəki "Sea Breeze" kurort şəhərində keçirildi. Festivalın üçüncü buraxılışı beynəlxalq ulduzları yenidən bir araya gətirib, tamaşaçılara dördgünlük genişmiqyaslı şoular, canlı musiqi və unudulmaz təcrübələr təqdim edib.

Festivalın final axşamı Xəzər dənizi sahilini işıqlandıran və dördgünlük musiqi marafonuna möhtəşəm kulminasiya nöqtəsi bəxş edən rəngarəng atəşfəşanlıqla başa çatıb.

Konsert axşamlarının moderatorları qismində Azərbaycanın Xalq artisti Murad Dadaşov və teleaparıcı Reqina Todorenko çıxış ediblər.

# Mingəçevirdə V "Baku Jazz Camp"a yekun vurulub

**Mingəçevirdə Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Baku Jazz Festival" çərçivəsində təşkil olunan V "Baku Jazz Camp"a yekun vurulub.**



Düşərgənin keçirilməsi zamanı "I Am Jazzman" illik beynəlxalq caz müsabiqəsinin ikinci turu və final mərhələsi baş tutub. Layihənin həyata keçirilməsində məqsəd gənc istedadların üzə çıxarılması, yeni nəsil musiqiçilərin dəstəklənməsi və Azərbaycanda caz sənətinin populyarlaşdırılmasıdır.

AZƏRTAC xəbər verir ki, "Baku Jazz Camp" bundan əvvəl Qax, Lənkəran, Qazax, Qubada keçirilib və bu illər ərzində ölkənin musiqi həyatında ən uğurlu mədəni təşəbbüslərdən birinə çevrilib. Hər il 50-dən çox gənc musiqiçi və caz ifaçısı düşərgədə iştirak edir, bacarıqlarını təkmilləşdirir, ustad dərslərinə qatılır, təcrübə mübadiləsi aparır və eyni düşüncəli insanları tapır.

Ənənəyə görə, düşərgə ev sahibi şəhərin sakinləri üçün möhtəşəm qala-konsertlə başa çatır.

"Baku Jazz Camp" proqramına tanınmış musiqiçilər Rain Sultanov, Şahin Növrəsli, Valid Ağayev və Vaqif Əliyevin ustad dərsləri daxildir. İştirakçılar nəfəsli, klaviaturalı və zərb alətlərində ifa, həmçinin musiqi nəzəriyyəsi üzrə praktik biliklər əldə ediblər.

Müsabiqənin yekununda "I Am Jazzman - 2026"nın qaliblərinə diplomlar, pul mükafatları və xatirə hədiyyələri təqdim edilib. Birinci yerə pianoçu Mirsəməd Növrəsli, ikinci yerə pianoçu Cavad Məmmədsadıx və üçüncü yerə bas gitaraçı Ziya Əlişov layiq görülüblər.

# MARAQ MƏKTUBLARININ QƏBUL EDİLMƏSİNƏ DAİR ELAN (MƏSLƏHƏT XİDMƏTLƏRİ - ŞİRKƏTLƏRİN SEÇİMİ)

**Azərbaycan Respublikası**
**Məşğulluğa Dəstək Layihəsi**
**Kredit №: 9712-AZ**

**Tapşırığın adı: Bacarıqların sertifikatlaşdırılması mexanizminin yaradılması, peşə hazırlığının kvalifikasiya proqramlarının hazırlanması və beynəlxalq akkreditasiyası**

**İstinad nömrəsi (Satınalma Planına əsasən): AZ-MLSPP-562949-CS-QCBS**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsini həyata keçirmək məqsədilə Dünya Bankından cəlb edilən maliyyə vəsaitlərinin bir hissəsini məsləhət xidmətlərinin satın alınmasına yönəltmək niyyətindədir.

Məsləhət xidmətlərinə ("Xidmətlər") bacarıqların sertifikatlaşdırılması mexanizminin yaradılması, peşə hazırlığının kvalifikasiya proqramlarının hazırlanması və beynəlxalq akkreditasiyasının təmin edilməsi daxildir. Xidmətlərin icra müddəti 36 ay təşkil edir (icrasına təxminən dekabr 2026 - yanvar 2027-dən başlanılması gözlənilir).

**Tapşırıq üzrə ətraflı Texniki Tapşırıq (TOR) aşağıdakı linkdə təqdim olunmuşdur:**
**TOR 5_Terms of Reference_az_final_for REOİ.docx**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi indi uyğun tələblərə cavab verən məsləhətçi şirkətləri ("Məsləhətçilər") xidmətlərin göstərilməsində maraqlarını ifadə etməyə dəvət edir. Maraqlı olan məsləhətçilər xidmətləri yerinə yetirmək üçün tələb olunan ixtisas və müvafiq təcrübəyə malik olduqlarını sübut edən məlumatları təqdim etməlidirlər. Qısa siyahıya düşmək üçün meyarlar: oxşar xarakterli və mürəkkəblik səviyyəsinə malik layihələrin icrası üzrə təcrübə (səriştə çərçivələrinin və ya peşə və təhsil standartlarının, kurikulumların və qiymətləndirmə alətlərinin hazırlanması); peşə təlimi proqramlarının hazırlanması və təşkili üzrə təcrübə; bacarıqların qiymətləndirilməsi sistemlərinin hazırlanması sahəsində təcrübə; bacarıqların inkişafı sektorunda oxşar şəraitə malik ölkələrdə regional təcrübə (Azərbaycan və ya müqayisə edilə bilən ölkələrdə əldə olunmuş təcrübəyə üstünlük verilir). Qısa siyahı mərhələsində əsas işçi heyəti qiymətləndirilməyəcək.

Maraqlı olan məsləhətçilərin diqqəti Dünya Bankının noyabr 2017, avqust 2018, noyabr 2020 və sentyabr 2023-cü illərdə yenidən baxılmış ("Satınalma Qaydaları"), iyul 2016-cı il tarixli "İLM üzrə Borcalanlar üçün Satınalma Qaydaları" sənədinin Bölmə III, 3.14, 3.16 və 3.17-ci bəndlərinə yönəldilir ki, bu da Dünya Bankının maraqların toqquşmasına dair siyasətini təyin edir.

Məsləhətçilər öz ixtisas və təcrübələrini gücləndirmək məqsədilə digər şirkətlərlə əməkdaşlıq edə bilərlər, lakin bu əməkdaşlığın birgə müəssisə (joint venture) və/və ya subkonsaltinq formasında olduğunu aydın şəkildə göstərməlidirlər. Birgə müəssisə olduqda, ortaq müəssisədəki bütün tərəfdaşlar seçildiyi təqdirdə müqavilə üzrə ortaq və ayrı-ayrılıqda öhdəlik daşıyırlar.

Məsləhətçilərin seçim prosesi Satınalma Qaydaları ilə müəyyən edilmiş məsləhətçilərin keyfiyyət və qiymətə əsaslanan seçim (QCBS) metoduna uyğun olaraq keçiriləcəkdir.

Əlavə məlumat aşağıda göstərilən ünvana iş saatları ərzində (bazar ertəsindən cümə gününədək, saat 09:00-dan 17:00-dək) müraciət etməklə əldə edilə bilər.

Maraq ifadələri 18 avqust 2026-cı il tarixinədək aşağıda göstərilən ünvana yazılı formada (şəxsən, məktub şəklində, faks və ya e-poçt vasitəsilə) təqdim edilməlidir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi**
**Kimə: Fəqan Əsgərov, Layihə koordinatoru**
**AZ1100, Nazim Hikmət küç.,**
**Rich Plaza, 1-ci giriş, 2-ci mərtəbə**
**Bakı, Azərbaycan**
**Tel: (994 12) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**

# REQUEST FOR EXPRESSIONS OF INTEREST (CONSULTING SERVICES – FIRMS SELECTION)

**The Republic of Azerbaijan**
**Employment Support Project**
**Loan No.: 9712-AZ**

**Assignment Title: Development of qualification programs, skills certification schemes, and international accreditation of vocational training programs**

**Reference No. (as per Procurement Plan): AZ-MLSPP-562949-CS-QCBS**

The Ministry of Labor and Social Protection of Population has received financing from the World Bank toward the cost of the Employment Support Project and intends to apply part of the proceeds for consulting services.

The consulting services ("the Services") include development of qualification programs, skills certification schemes, and international accreditation of vocational training programs, with about 36 months of implementation period (expected to start about December 2026- January 2027).

The detailed Terms of Reference (TOR) for the assignment can be found at the following link:
TOR 5_ Terms of reference_eng_final_for REO .docx

The Ministry of Labor and Social Protection of Population / Employment Support Project now invites eligible consulting firms ("Consultants") to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services. The shortlisting criteria are: experience in implementation of projects of similar nature and complexity (development of competency frameworks or occupational and education standards, curricula, and assessment tools); experience in designing and organization of vocational training programs; experience in developing skills assessment; regional experience in similar contexts in skills development sector, preferably in Azerbaijan or comparable countries. Key Experts will not be evaluated at the shortlisting stage.

The attention of interested Consultants is drawn to Section III, paragraphs, 3.14, 3.16, and 3.17 of the World Bank's "Procurement Regulations for IPF Borrowers" July 2016, revised November 2017, August 2018, November 2020 and September 2023 ("Procurement Regulations"), setting forth the World Bank's policy on conflict of interest.

Consultants may associate with other firms to enhance their qualifications but should indicate clearly whether the association is in the form of a joint venture and/or a sub-consultancy. In the case of a joint venture, all the partners in the joint venture shall be jointly and severally liable for the entire contract, if selected.

A Consultant will be selected in accordance with the Consultants Quality and Cost-based Selection method set out in the Procurement Regulations.

Further information can be obtained at the address below during office hours (Monday to Friday 09:00 to 17:00 hours).

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by August 18, 2026.

**Ministry of Labor and Social Protection of Population / Employment Support Project**
**Attn: Mr. Fagan Asgarov, Project Coordinator**
**27, Nazim Hikmet str.,**
**Rich Plaza, 1st entrance, 2nd floor**
**AZ1100, Baku, Azerbaijan**
**Tel: (99412) 5253449**
**E-mail: fagan.asgarov@esp.az; aybeniz.hajiyeva@esp.az**


BEYNƏLXALQ HƏYAT

# Olimp dağı, Normandiya çimərlikləri, İranın Əlamut qalası...

## Bu obyektlər UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib

**Yunanıstan hakimiyyəti illərdir ki, buna nail olmaq istəyirdi: nəhayət, UNESCO Olimp dağını dünyanın ən ikonik abidələrindən biri kimi tanıyıb. Dünya İrs Siyahısına həmçinin müttəfiqlərin Normandiyada desant atdığı çimərliklər və İtaliyadakı "xalq" teatrları da daxil edilib.**

Yunanıstanın Mədəniyyət, Ətraf Mühit və Enerji nazirliklərinin birgə bəyanatına görə, Olimp dağının Dünya İrs Siyahısına daxil edilməsi "mədəni və təbii irsin qorunmasında ən əhəmiyyətli beynəlxalq nailiyyətlərdən biridir, çünki bu, geniş Olimpiya ərazisinin görkəmli universal dəyərini tanıyır və onu ən ikonik abidələr sırasına daxil edir". Baş nazir Kiriakos Mitsotakis öz bəyanatında vurğulayıb ki, bu gündən etibarən mifik Olimp bəşəriyyətə məxsusdur və qorunmalıdır. UNESCO-nun onu Dünya İrs Siyahısına daxil etmək barədə yekdil qərarı ən yüksək miqyaslı milli uğurdur.

Qeyd edək ki, ildırımın və şimşəyin "yaradıcısı" Zevsin başçılıq etdiyi 12 olimpiya Tanrısının mifik evi olan Olimpin UNESCO siyahısına daxil edilməsi Yunanıstan hökumətinin son 12 ildəki səylərinin bəhrəsidir. Ölkənin ən yüksək dağı - 2918 metr yüksəklikdə yerləşən bu dağ biomüxtəlifliyi ilə seçilən unikal təbii landşaftdır. Burada çoxsaylı nadir flora və fauna növləri yaşayır. Bundan əlavə, Olimp massivinin uzandığı bölgə din, tarix və mədəniyyətin simbiozunu təmsil edən abidələrin bolluğu ilə məşhurdur.

Cənubi Koreyanın Busan şəhərində keçirilən sessiyada onlarca namizəd nəzərdən keçirilib. Komitə həmçinin İkinci Dünya müharibəsi zamanı Qərbi Avropanı nasist işğalından azad etmək kampaniyasının bir hissəsi olan



Normandiyadakı müttəfiqlərin desant atdığı 5 çimərliyi Dünya İrs Siyahısına daxil edib.

Dünya İrs Komitəsinə namizədləri qiymətləndirən Beynəlxalq Abidələr və Yerlər Şurası (ICOMOS) ərazidə geniş alman istehkamlarının xarabalıqları, bombardman basqınlarının görünən izləri və gəmi qəzalarının olduğu qənaətinə gəlib - bu, "Avropa qitəsində azadlığı bərpa etmiş və davamlı sülhü elan etmiş hesab olunan" tarixi bir hadisənin sübutudur.

Qədim Yaponiya paytaxtları Asuka və Fucivara, eləcə də təxminən 6 milyon antilopun hərəkətini əhatə edən, planetdə Böyük Nil Miqrasiyası kimi tanınan ən böyük quru məməlilərinin miqrasiyasına evsahibliyi edən Cənubi Sudanın Boma-Bandingilo bölgəsi də UNESCO siyahısında yer alıb. Siyahıya həmçinin İtaliyanın Marke bölgəsinin tarixi teatrları, Fransanın Langedok Kral Qalaları kompleksi (Forteresses royales), Finlandiyada Alvar Aalto tərəfindən tikilmiş 13 memarlıq obyekti (Aalto Works), Berlinin Zehlendorf Meşə Məskəni (Waldsiedlung Zehlendorf), İranın Əlamut qalası, San-Tome və Prinsipinin 19-cu əsrə aid tarixi kənd təsərrüfatı torpaqları, müstəmləkə aqrosənaye kompleksləri və plantasiyaları - rokaslar və Özbəkistanın paytaxtı Daşkənddəki müasir memarlıq ansamblı daxil edilib.

# Parisdə insanlar hücuma məruz qalıblar

## Şübhəlinin şəxsiyyəti və motivi hələ məlum deyil

**Bazar ertəsi yerli vaxtla saat 11:30 radələrində Parisin şimal-qərbindəki Porte de Clichy məhəlləsində baş verən hücumda 3 qadın yaralanıb. AFP-nin məlumatına görə, iki iti bıçaqla silahlanmış bir kişi tramvay dayanacağı ilə yerli pivəxana arasındakı sıx piyada zonasında yoldan keçənlərə hücum edib.**



Hər üç qurban tez bir zamanda xəstəxanaya aparılıb. "Le Parisien" qəzetinin məlumatına görə, yaralılar arasında ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən hamilə qadın da var. Digər iki yaralının vəziyyəti daha az kritik hesab olunur.

Şübhəlinin həbsi hücum zamanı xidmətdə olmayan polis əməkdaşının müdaxiləsi ilə mümkün olub. O, silahlı kişini görüb, kömək çağırıb və əlavə qüvvə gələnə qədər onu izləyib. Şübhəli odlu silah istifadə edilmədən zərərsizləşdirilib.

İlkin məlumata görə, şübhəli şəxs ruhi xəstəyə bənzəyən 31 yaşlı fransızdır. Hücumun motivləri hələlik müəyyən edilməyib. Paris prokurorluğu istintaqa başlayıb.

# Sietl qida festivalında atışma: ölənlər və yaralananlar var




**ABŞ-nin Sietl şəhərindəki ənənəvi qida festivalında baş verən atışmada 2 nəfər həlak olub, azyaşlı uşaq da daxil olmaqla ən azı 5 nəfər yaralanıb.**

Hadisə Sietl Bite of Seattle qastronomik festivalının keçirildiyi Seattle Center kompleksində baş verib. Yaxınlıqdakı Harborview Tibb Mərkəzi yaralılardan birinin vəziyyətinin ağır olduğunu bildirib.

Sietl Polis Departamenti "X" sosial media saytında hadisəni araşdırdığını elan edib. Sakinlərdən atışma bölgəsindən uzaq durmaları xahiş olunub.

Məlumat üçün bildirək ki, Sietl Qida Festivalı 1982-ci ildən bəri keçirilir və təşkilatçıların dediyinə görə, 350 mindən çox ziyarətçi cəlb edir. Tədbir 3 gün davam edir.

*Hazırladı: Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Yay mövsümündə gigiyena qaydalarına xüsusi diqqət yetirilməlidir

**Yay fəsli istirahət, səyahət və açıq havada daha çox vaxt keçirmək üçün ən əlverişli mövsüm hesab olunur. Lakin bu dövrdə qidalanma vərdişlərinin dəyişməsi, soyuq və şirin qidalara meylin artması, kifayət qədər su qəbul edilməməsi ağız və diş sağlamlığı üçün əlavə risklər yaradır. İsti havalarda insanlar daha çox qazlı və şəkərli sərinləşdirici içkilərə, dondurma və müxtəlif desertlərə üstünlük verir, turş meyvələrdən istifadə edirlər. Bu isə diş minasının zədələnməsinə, kariyesin yaranmasına, diş əti problemlərinin artması və ağız boşluğunda müxtəlif narahatlıqların meydana çıxmasına səbəb ola bilər.**

Diş sağlamlığının qorunması yalnız estetik baxımdan deyil, ümumi sağlamlıq üçün də böyük əhəmiyyət daşıyır. Çünki ağız boşluğunda yaranan problemlər vaxtında aradan qaldırılmadıqda digər orqan və sistemlərə də mənfi təsir göstərir.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-stomatoloq Samir Məmmədov bildirib ki, yay aylarında dişlər üçün ən böyük təhlükələrdən biri şəkərli və qazlı içkilərin həddindən artıq qəbuludur. Onun sözlərinə görə, bu içkilərin tərkibində olan şəkər ağız boşluğundakı bakteriyalar üçün əlverişli mühit yaradır. Bakteriyalar şəkəri parçalayaraq turşu əmələ gətirir və həmin turşu diş minasını tədricən zəiflədir. Nəticədə kariyesin yaranma ehtimalı artır.

"Yay aylarında ən çox istehlak olunan qidalardan biri olan dondurma da tamamilə zərərsiz hesab edilə bilməz. Dondurmanın tərkibindəki şəkər kariyes riskini artırır. Bundan başqa, çox soyuq qidaların tez-tez qəbulu diş həssaslığı olan insanlarda ağrı və narahatlıq yarada bilər. Eyni sözləri digər şirin desertlər haqqında da demək mümkündür. Şirin qidaların gün ərzində dəfələrlə qəbul edilməsi ağız boşluğunda turş mühitin yaranmasına səbəb olur və dişlərin zədələnmə riskini yüksəldir. Bu mövsümdə şəkəri yüksək olan meyvələr daha çox istehlak edilir. Bu meyvələr sağlam qidalanmanın vacib hissəsi olsa da, onların həddindən artıq qəbulu diş minasına mənfi təsir göstərə bilər. Turşuluğun yüksək olması diş səthinin yumşalmasına və zamanla eroziyaya səbəb olur. Bu səbəbdən meyvələri yedikdən sonra ağız boşluğunu adi su ilə yaxalamaq məsləhət görülür. Bu sadə vərdiş turşuluğun təsirini müəyyən qədər azalda və diş minasını qoruya bilər", - deyə mütəxəssis diqqətə çatdırıb.



Stomatoloq qeyd edib ki, yayda isti hava səbəbindən orqanizm daha çox maye itirir, bu itkinin vaxtında bərpa olunmaması isə ağız boşluğunda quruluq yaradır və tüpürcəyin ifrazını azaldır: "Tüpürcək ağız boşluğunun təbii müdafiə mexanizmidir. O, qida qalıqlarını təmizləyir, bakteriyaların çoxalmasını məhdudlaşdırır, ağızdakı turşuluğu neytrallaşdırır və diş minasının qorunmasına kömək edir. Ağız quruluğu zamanı ilk növbədə diş çürüməsi riski artır. Bununla yanaşı, ağız qoxusu yarana, diş ətlərində iltihab və qanama ehtimalı yüksələ bilər. Ağız boşluğunda yanğı hissi, narahatlıq və diş həssaslığı da daha çox müşahidə olunur. Bir çox insan susuzluğu qazlı içkilər, enerji içkiləri və ya müxtəlif meyvə şirələri ilə aradan qaldırmağa çalışır. Halbuki bu məhsullar suyun yerini vermir və əksinə, dişlər üçün əlavə təhlükə yaradır. Ən sağlam seçim adi içməli sudur. Su həm orqanizmin maye balansını qoruyur, həm də ağız boşluğunun nəmlənməsinə kömək edir".

Samir Məmmədovun sözlərinə görə, yay mövsümündə dişlərə düzgün qulluq etmək üçün gündəlik gigiyena qaydalarına xüsusi diqqət yetirilməlidir. O bildirib ki, dişlər gündə ən azı iki dəfə - səhər və axşam olmaqla, təxminən iki dəqiqə ərzində flüorlu diş məcunu ilə fırçalanmalıdır. Flüor diş minasını möhkəmləndirir və kariyesə qarşı qoruyucu təsir göstərir. Təkcə diş fırçasından istifadə etmək kifayət deyil. Dişlərin arasında qalan qida qalıqları adi fırça ilə tam təmizlənmir. Buna görə də gündə ən azı bir dəfə diş ipindən və ya dişarası fırçalardan istifadə olunması tövsiyə edilir. Bu, diş əti xəstəliklərinin və çürümələrin qarşısının alınmasında mühüm rol oynayır.

Yay mövsümü insanların daha çox səyahət etdiyi dövrdür. Stomatoloq deyib ki, uzun səfərlər zamanı bir çoxu diş baxımı vasitələrini götürməyi unudurlar. Halbuki diş fırçası, diş məcunu və diş ipi şəxsi gigiyena vasitələri arasında mütləq yer almalıdır. Səyahət zamanı qidalanma rejiminin dəyişməsi, şirin qidaların və hazır məhsulların daha çox istehlakı ağız gigiyenasına diqqəti daha da vacib edir. Bəzi insanlar yalnız diş ağrısı yarandıqda stomatoloqa müraciət edirlər. Lakin bir çox diş xəstəliyi ilkin mərhələdə heç bir əlamət vermədən inkişaf edir. Kariyes, diş əti iltihabı və digər problemlər erkən mərhələdə aşkar edildikdə onların müalicəsi daha asan olur. Buna görə də hər bir insan şikayəti olmasa belə, ən azı altı aydanbir profilaktik stomatoloji müayinədən keçməlidir. Dişlərə göstərilən gündəlik qayğı yalnız yay aylarında deyil, ilin bütün fəsillərində davam etdirilməlidir. Çünki sağlam dişlər həm keyfiyyətli qidalanmanın, həm də ümumi sağlam həyat tərzinin vacib tərkib hissəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və katibliyin əməkdaşları 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi dairə seçki komissiyasının sədri Taməddin Hüseynova oğlu

**ÜMİD HÜSEYNLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**FÜZULİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Qubadlı rayon Prokurorluğunun müstəntiqi

**ÜMİD HÜSEYNLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3204
Sifariş 947

Qiyməti 60 qəpik